RAMİN MƏMMƏDOV

# RUSİYA: ZİYALILARIMIZ, MƏTBUATIMIZ, MÜNASİBƏTLƏRİMİZ

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

BAKI
ŞİRVANNƏŞR
2003

ŞİRVANNƏŞR, 72 (548), 2003.
Naşir Qəşəm İSABƏYLİ

Redaktoru
*Anar İsabəyli*

***Ramin Məmmədov***

***Rusiya: ziyalılarımız,mətbuatımız, münasibətlərimiz. Bakı, Şirvannəşr, 2003.***
*110 səh.*

Bu kitab müəllifin oxucularla on üçüncü görüşüdür. Xalqlar dostluğunu özünün baş mövzusu seçən yazıçı-publisist R.Məmmədov bu növbəti kitabında da öz yaradıcılıq amalına sadiq qalmış, taleyini Rusiya ilə bağlamış 100-dən çox soydaşımız, qardaş ölkədə fəaliyyət göstərən onlarla Azərbaycan ictimai təşkilatının mətbu orqanları və s. haqqında maraqlı məlumatlar verir.

83.3. Az(2)
R ---------------
054

© **R. Məmmədov, 2003.**

*Ünvan: Bakı – AZ 1021, Badamdar şos. 77.*
*Tel.: 92-92-27, 92-93-72, 34-70-94, (850) 316-23-40.*




***Müəllif Tümen vilayətində***
***(2003)***

63.3(2Pos=Aze)+76.0
M-51



## ƏMƏLİ, QƏLƏMİ VƏ QƏLBİ GÖZƏL MÜƏLLİF

*Ramin Məmmədov ağır bir yükü öz çiyinlərinə götürmüşdür. Onu yaxından tanıyan elmlər doktoru Rafiq Qurbanov (Osman Sarıvəllinin oğlu) bu barədə belə deyir: "Ramin Hüseyn oğlu Məmmədov əslində bizim Azərbaycan üçün olduqca lazımlı, vacib bir iş görür. Kitabları ilə şəxsi tanışlığım məni inandırır ki, o, bir tədqiqat institutunun görə biləcəyi işi həyata keçirməyi öz üzərinə götürüb" ("Dünyaya pəncərə" qəzetinin xüsusi buraxılışı, № 4, aprel 2002-ci il).*

*R. Məmmədov özü bu barədə belə deyir: "Moskvada "Puşkinskaya" metro stansiyasının çıxışında "Armeniya" adlı ərzaq mağazası yerləşir. Ərzaq dükanı olsa da, orada əleyhimizə onlarca erməni qəzet, jurnal və kitablarının satıldığını bildikdə mən heyrətləndim, hiddətləndim. Qarşıma məqsəd qoydum ki, bundan sonra xaricdə azərbaycançılığın, Azərbaycan mədəniyyətinin öyrənilməsi və təbliği ilə daha geniş məşğul olacağam. Bu məqsədlə Rusiyada, MDB ölkələrində yaşayan ziyalı, alim soydaşlarımızın fəaliyyəti ilə yaxından maraqlanmağa başladım. Bu zaman son dərəcə dəyərli, fədakar, vətənpərvər, təəssübkeş insanların yaratdıqları zəngin mənəvi irslə rastlaşdım. Bu məni bir*

*tərəfdən sevindirir, ruhlandırır, digər tərəfdən də qarşıma qoyduğum məqsədə çatmaq üçün səfərbər və daha məsuliyyətli edirdi".*

*Fikrimizcə, ötən illər Ramin Məmmədov məqsədinə qismən də olsa nail olmuşdur. 1997-ci ildən başlayaraq hər il öz məzuniyyəti hesabına o, Rusiyanın müxtəlif şəhərlərinə səyahətə çıxır, material toplamışdır. Təkcə Moskvada yüzlərlə alimin, ziyalının izinə düşmüş, onların həyat və fəaliyəti ilə maraqlanmış, külli miqdarda material toplamışdır. Rusiyanın əyalətlərində çoxsaylı həkim, jurnalist, mühəndis, hüquq-mühafizə orqanları işçiləri ilə görüşmüş, həlak olmuş milis işçiləri haqqında məlumatlar əldə etmiş, rusca kitablar yazmışdır. Çap etdirdiyi topluları Moskvada, Sankt-Peterburqda, başqa şəhərlərdə mərkəzi kitabxanalara, arxivlərə, redaksiyalara, alimlərə, ayrı-ayrı ziyalılara çatdırmışdır.*

*Xüsusilə vurğulanmalıdır ki, Ramin Məmmədov son illər Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, daha çox isə Qarabağ həqiqətləri haqqında Rusiya ictimaiyyətində doğru-dürüst, dəqiq fikir formalaşdırmaq üçün əlindən gələni əsirgəməmişdir.*

*Rusiya bizim böyük qonşumuzdur. Bu ölkə ilə münasibətlərimiz həmişə sabit olmasa da əsrlər boyu onunla əlaqələrimiz olmuş, əksər görkəmli şəxsiyyətlərimiz Moskvada, Sankt-Peterburqda təhsil almış, məsul vəzifələrdə işləmiş, siyasətin, iqtisadiyyatın, elmin zirvələrini fəth etmişlər və edirlər. Elə qarşımızdakı kitab da fikrimizi təsdiqləyir. Oxucuların diqqətinə təqdim olunan məlumatlar, faktlar müəllif tərəfindən məsuliyyətlə dəqiqləşdirilmiş, səhihləşdirilmiş, yalnız bundan sonra qələmə alınmışdır.*

*Bu gün fəallıq dairəsini genişləndirən və təşkilatlanma dövründə olan Azərbaycan diasporunun taleyi ilə*





*maraqlanan və təbliği ilə məşğul olan Ramin Məmmədov həmin materialları, necə deyərlər, zərrə-zərrə toplamışdır. Moskvada çap olunmuş nəşrlərdə əleyhimizə yönəldilən saxtakarlıqları uzun illər araşdırmış, aşkar və alt-üst etmişdir. Azərbaycan cəmiyyətlərinin qəzetlərini qarış-qarış gəzdiyi Rusiyanın bölgələrində bir-bir əldə etmişdir. Taleyi qürbətlə bağlı olan məşhur soydaşlarımız haqqında məlumatları çox böyük əzabla aşkar etmiş, bəzilərini isə qəzetlərdən, ensiklopedik mənbələrdən əldə etmişdir.*

*Beləliklə, Ramin Məmmədovun gərgin, yorulmaz fəaliyyətinin, fasiləsiz axtarışlarının, tükənməz həvəsinin bəhrəsi olan növbəti kitabı sizin ixtiyarınızdadır. Bu əsəri vərəqlədikcə siz taleyin hökmü ilə qürbətdə yaşayan soydaşlarımızın həyat və düşüncə tərzi, onların sosial vəziyyəti, cəmiyyətdə tutduqları mövqe, arzu və istəkləri, ürək çırpıntıları, qayğı və problemləri ilə tanış olacaqsınız. Və həm də təkcə bunlarla yox. Siz həm də bu sətirlərin arxasından boylanan əməli, qələmi və qəlbi gözəl bir insanla – Ramin Məmmədovla tanış olacaqsınız. Və bu imza sizin hafizənizi və qəlbinizi fəth edəcək, onu sevimli müəlliflərimizin sırasına daxil edəcəksiniz. Özü də biləndə ki, bu imzanın sahibi polis mayorudur, ona hörmətim ikiqat artacaqdır.*

**_Dursun Hüseynov_**
*tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, səhiyyə əlaçısı, müharibə və əmək veteranı*

**_Abid Tahirli_**
*filologiya elmləri doktoru*

## AZƏRBAYCAN ƏLİFBASI

| kiril | LATIN çap şəkli | LATIN əlyazma şəkli | LATIN adı | kiril | LATIN çap şəkli | LATIN əlyazma şəkli | LATIN adı |
|---|---|---|---|---|---|---|---|
| а | A a | Aa | a | г | Q q | Qq | qe |
| б | B b | Bb | be | л | L l | Ll | el |
| ҹ | C c | Cc | ce | м | M m | Mm | em |
| ч | Ç ç | Çç | çe | н | N n | Nn | en |
| д | D d | Dd | de | о | O o | Oo | o |
| е | E e | Ee | e | ө | Ö ö | Öö | ö |
| ә | Ə ə | Əə | ə | п | P p | Pp | pe |
| ф | F f | Ff | ef | р | R r | Rr | er |
| ҝ | G g | Gg | ge | с | S s | Ss | SE |
| ғ | Ğ ğ | Ğğ | ğe | ш | Ş ş | Şş | şe |
| һ | H h | Hh | he | т | T t | Tt | te |
| х | X x | Xx | xe | у | U u | Uu | u |
| ы | I ı | Iı | ı | ү | Ü ü | Üü | ü |
| и | İ i | İi | i | в | V v | Vv | ve |
| ж | J j | Jj | je | ј | Y y | Yy | ye |
| к | K k | Kk | ke ka | з | Z z | Zz | ze |





# I BÖLMƏ

## XALQLAR DOSTLUĞU...

Tarix öz axarı ilə irəliləyir. Tarixi hadisələrin fonunda inkişaf da ən müxtəlif siyasi-iqtisadi proseslərdən keçməli olur. Bütün bu hadisələr isə insan taleyindən keçir. Yaradıcılıqla, elmlə, siyasətlə, iqtisadiyyatla məşğul olan hər bir insan gələcək nəsillər üçün mənəvi kapital qoyub gedir. Mənim kitabımın qəhrəmanları belə insanlardır.

Rusiya kimi nəhəng və eyni zamanda ziddiyyətlərlə, müəmmallarla dolu bir ölkədə soydaşlarımız dövlət, hökumət və partiya vəzifələrində çalışır, hərbin, elmin, ədəbiyyatın, incəsənətin zirvələrinə qalxa bilmişlər. Bu iki yüz il öncə də belə olub, bu gün də belədir. Mən yaradıcılığımın böyük bir hissəsini bu talelərin öyrənilməsinə, neçə-neçə məzuniyyətimi görkəmli, tanınmış və az tanınmış, tamamilə tanınmamış adamların axtarılıb tapılmasına, dünyadan köçənlərin məzarlarının müəyyən edilməsinə, onların ailələrinin axtarılmasına həsr etmişəm. Bu məqsədlə Moskva, Sankt-Peterburq, Nijni-Novqorod, Yekaterinburq, Saratov, Ulyanovsk, Tambov, Kaluqa, Tümen, Murmansk, Arxangelsk şə-

hərlərinə və Rusiyanın onlarla başqa bölgələrinə yaradıcılıq səfərləri etmişəm. Yüzlərlə alim, general, ziyalı, görkəmli dövlət xadimləri haqqında məlumatlar toplamışam. Rusca altı kitab nəşr etdirib, həmin şəhərlərdə ən müxtəlif kitabxanalara, redaksiyalara, ziyalılara çatdırmışam.

2001-ci ildə "Səfərnamə-Puteşestviye" kitabım işıq üzü gördükdən sonra mən Rusiyada daha üç dəfə olmuş, yeni-yeni ünvanlar aşkar etmişəm, daha yüzlərlə adam haqqında məlumatlar toplamışam.

Əlbəttə, yüz minlərlə soydaşımız yaşayan Rusiyada minlərlə görkəmli yurddaşlarımızla yanaşı müxtəlif səbəblərdən hələ tanımadığımız adamlarımız da çoxdur. Onların hamısını tapmaq tək mənim üçün çətin və yerinə yetirilməsi mümkün olmayan işdir. Odur ki, mən minlərlə qabaqcıl ziyalılarımızdan, taleyi Rusiya ilə bağlı həmyerlilərimizdən ibarət kiçik siyahını sizə təqdim edirəm. Bu adamların çoxları ilə Moskvada, yaxud başqa şəhərlərdə görüşmüşəm, dünyadan köçənlərin ailə üzvləri, yaxınları ilə ünsiyyətdə olmuşam. Bir çox görkəmli adamlar haqqında məlumat hazırlayarkən ASE-nin və BSE-nin cildlərindən, Rusiya paytaxtında nəşr olunmuş müxtəlif ensiklopedik lüğətlərdən, "Azərbaycan", "Xalq qəzeti", "Bakinskiy raboçiy" və başqa qəzetlərdən, kitablardan istifadə etmişəm.

Qeyd edim ki, bu siyahıda Rusiya ilə dostluq münasibətləri qurmağı tövsiyə edən, öz bədii əsərləriylə beynəlmiləlçilik ideyalarını tərənnüm edən şəxsiyyətlərimiz də yer tutur. Buyurun, onlarla siz də tanış olun.

**Nizami Gəncəvi** – Azərbaycan şairi və mütəfəkkiri. "Onun üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. İrqi, milli və dini ayrı-seçkiliyi rədd edən Nizami Gəncəvinin müsbət qəhrəmanları içərisində azərbaycanlı, fars, ərəb, türk, rus, çinli, hindli, zənci, yunan, gürcü, rus və s. xalqların nümayəndələrinə rast gəlirik. Humanist şair müsəlman, atəşpərəst, xristian, yəhudi, bütpərəst və s. dinlərə mənsub olan bu qəhrəmanların heç birisinin milliyyətinə, dini görüşlərinə qarşı çıxmır..." (ASE,VII cild, Bakı-1983, səh. 246-247). Deməli, biz qədim zamanlardan saflığı, alicənablığı üstün tuturuq.





XVII əsrdə yaşayıb-yaratmış alim, müəllim, hüquqşünas **Məhəmməd Əmin Şirvaninin** əsərlərinin əlyazmaları Azərbaycan EA-nın Əyazmalar İnstitutunda, İstanbul, Berlin, Leninqrad, Qahirə kitabxanalarında saxlanılır.

Azərbaycan alimi, coğrafiyaşünas-səyyahı, tarixçisi, etnoqrafı, filosofu, ədəbiyyatşünası, şairi **Hacı Zeynalabdin Şirvaninin** adına (1780-1837) bu yaxınlara kimi Rusiyada çıxan sorğu ədəbiyyatlarında rast gəlmək mümkün deyildi. 2001-ci ildə Moskvada 10000 tirajla 576 səhifəlik "Goğrafiyaçılar və səyyahlar" (Qeoqrafı i puteşestvenniki") kitabı işıq üzü görmüşdür. Bu kitabda H. Z. Şirvaninin həyat yoluna dair ayrıca portret-oçerk verilmişdir (səh.539-541).

**Əlimərdan bəy Mirzəcəfər oğlu Topçubaşov** (1790-1869), "Azərbaycan şərqşünası, şair. Uşaq yaşlarından Tiflisdə yaşamış, təhsilini mədrəsədə almış, ərəb, fars, türk dillərini və ədəbiyyatını, habelə rus, gürcü və erməni dillərini öyrənmişdir...

1817-ci ildə İran səfirliyinin heyəti ilə Peterburqa getmiş, Rusiya Xarici İşlər Nazirliyinin Asiya Departamentində tərcüməçi işləmişdir. 1819-cu ildə Peterburqdakı Baş Pedaqoji İnstitutda ərəb, fars və türk dillərini tədris etmişdir" (ASE, 9-cu cild, Bakı-1986, səh. 316-317). Sonralar Rusiyada məsul vəzifələrdə çalışmış bu adam həmin ölkənin şərqşünaslıq elmi təhsilinin təşəkkülündə böyük rol oynamışdır. İmperator kitabxanasında saxlanılan Şərq əlyazmalarının müxtəsər izahlı biblioqrafiyasını hazırlamışdır.Görkəmli rus şərq-

şünasları V.V. Qriqoryev, O.İ.Senkovski, N.İ.Veselovski, İ.Y. Kraçkovski... Ə. M. Topçubaşovun elmi və pedaqoji fəaliyyətinə yüksək qiymət vermişlər. Ə. M. Topçubaşov London Kral Asiya cəmiyyətinin həqiqi üzvü seçilmişdi...

**Abbasqulu Ağa Bakıxanov** (1794-1847), alim, şair, maarifpərvərdir. Bakı xanı II Mirzə Məhəmmədin oğludur. 1820-ci ildə Əlahiddə Qafqaz Korpusuna hərbi qulluğa daxil olmuşdur. Rus dilinə yaxşı yiyələnmiş və baş komandanın yanında məsul vəzifədə çalışmış, polkovnik rütbəsinədək yüksəlmişdir. Rusiyanın görkəmli ədəbiyyat nümayəndələri A.S.Qriboyedov, A.S.Puşkin, A.A.Bestujev (Marlinski) və başqaları ilə yaxın ünsiyyət, dostluq əlaqələri saxlamışdır.

A.A. Bakıxanovun qardaşı, XIX əsrin əvvəllərində bir neçə müharibədə rus ordusu tərkibində döyüşmüş **Cəfərqulu Ağa Bakıxanov** (1799-1867) general – leytenant rütbəsinə kimi yol keçmişdir.

**Mirzə Kazım Bəy** (1802-1870) maarifçi, rus şərqşünaslıq elminin banilərindən biri kimi hələ XIX əsrin birinci yarısında məmləkətimizin adını qürbətdə ucaltmışdır. Omsk, Kazan, Peterburq ali məktəblərində kafedra müdiri, dekan vəzifələrində çalışmışdır. İngilis, rus, türk, ərəb və fars dillərini mükəmməl bilirdi.

**İsmayıl bəy Qutqaşınlı** (1806-1869) – Azərbaycan ədəbiyyatında ilk maarifçi yazıçılardan biridir. Qəbələdə sonuncu hakim Nəsrulla Soltanın oğludur. Rus ordusunda uzun illər xidmət etmiş, öz bacarığı, savadı ilə 1840-cı illərin əvvələrində artilleriya general-mayoru kimi ali rütbəyə layiq görülmüşdür. "Rəşid bəy və Səadət xanım", "Səfərnamə" kitablarının müəllifidir.

1983-cü ildə Moskvada "Sovetskaya Ensiklopediya" nəşriyyatında 150 min tirajla 840 səhifəlik "Filosofskiy ensiklopediçeskiy slovar" kitabı buraxılmışdır. Azərbaycan yazıçısı, materialist filosofu, dramaturqu və ic-





timai xadimi **Mirzə Fətəli Axundova** (1812-1878) 43-cü səhifədə yer verilmiş, onun həyat və fəaliyyətindən söhbət açılmışdır.

Azərbaycanda aşıq poeziyasının ən görkəmli nümayəndələrindən biri **Aşıq Ələsgərin** (1821-1926) 150 illik yubileyi 1972-ci ildə SSRİ-də Ümumittifaq miqyasında keçirilmişdir.

**Məhəmməd ağa Şahtaxtinski** (1846-1931) – publisist, dilçi, şərqşünas-pedaqoq. Elmi fəaliyyətə Almaniyada başlamış, 1902-ci ildən Parisdə yaşamış, Fransa ali məktəblərində şərq dillərini tədris etmişdir. 1907-ci ildə Erivan quberniyasından II Dövlət Dumasına deputat seçilmiş, Duma bağlandıqdan sonra "Rossiya" (Peterburq) qəzeti redaksiyasında çalışmışdır.

**İsasultan Nəcəfqulu oğlu Şahtaxtinski** (1851-1894) Tiflisdə 1871-ci ildə realnı gimnaziyanı bitirmişdir. O, rus, ingilis, fransız dillərini mükəmməl öyrənmişdir. 1872-75-ci illərdə Peterburq Əkinçilik İnstitutunda təhsil almış, Paris və Londonda siyasi iqtisada dair mühazirələr dinləmişdir.

**Səmədbəy Mehmandarov** (1857-1931), çar ordusunun general-leytenantı olub. 1904-05-ci illər rus-yapon müharibəsində "Qızıl qılınc"la mükafatlandırılmışdır. Rusiyada çıxan müxtəlif kitablarda onun qəhrəmanlığından danışılır.

**Əbülfət Nəcəfqulu oğlu Şahtaxtinski** (1858-1913) 1877-ci ildə Peterburq Texnologiya institutuna daxil olmuş, Almaniyanın Heydelberq şəhərində diplom işi müdafiə etmişdir.1883-cü ildə daxil olduğu yunker məktəbini fərqlənmə diplomu ilə bitirmiş, Rusiya-Yaponiya (1904-05) müharibəsində batalyon komandiri olmuş, polkovnik rütbəsinə kimi ucalmışdır.

**Hüseyn xan Kəlbalı oğlu Naxçıvanski** (1863, Naxçıvan-1919, Petroqrad), 1904-05-ci illər Rusiya-Yaponiya müharibəsində iştirak etmiş, 1906-cı ildə

polk komandiri, Birinci dünya müharibəsində 2-ci süvari diviziyasının, sonralar Zaqafqaziya cəbhəsinin komandanı təyin edilmişdir. Ona 1907-ci ildə general-mayor, 1915-ci ildə general-leytenant rütbəsi verilmişdir.

**Əliağa Şıxlinski** (1865-1943), çar ordusu general-leytenantı olub. Yeganə azərbaycanlıdır ki, ilk dəfə Fransa generallarına məxsus olan "Legion ordeni" və zabitlərə verilən "Legion xaçı" ilə təltif edilmişdir. Rusiya-Yaponiya (1904-05) və Birinci dünya müharibələrinin məşhur komandirlərindən biri olmuşdur.

N. Nərimanov Ə. Şıxlinski və S. Mehmandarov haqqında 1920-ci ildə V. İ. Leninə yazmışdı: "...bir hərbi mütəxəssis kimi onlar əvəzedilməzdir".

**Nəriman Nərimanov** (1870-1925). Yazıçı-publisist və həkim. 1882-ci ildə Qori seminariyasına daxil olmuş, maarifçilik, ədəbi fəaliyyəti ilə yanaşı mübariz, böyük erudisiyalı şəxsiyyət kimi tanınmış, V.İ. Lenindən həmişə dəstək almışdır. SSRİ- nin dörd aparıcı rəhbərlərindən biri olmuşdur.

**Məmmədhəsən Hacınski** (1875-1931). Azərbaycan memarı. 1902-ci ildə Peterburq Texnologiya institutunu bitirmişdir. Onun təşəbbüsü ilə məşhur memarlar Z.Əhmədbəyov və O.Abuyev 1918-ci ildə paytaxtımızda Şirvanşahlar sarayının bərpa layihəsini hazırlamaq üçün ilk elmi-tədqiqat işləri aparmışlar.

**Nəsirbəy Hacı Məmməd oğlu Tağıyev** (1879-1953), əslən şamaxılı olan bu adam 1901-ci ildə Bakıya gəlib, təhsilini artırıb. 1920-ci ildən Azərbaycanın xalq maliyyə komissarı vəzifəsində çalışıb. Bir çox məsul vəzifələrdə işlədikdən sonra 1949-cu ildən ömrünün axırınadək Azərbaycan SSR Nazirlər Sovetinin SSRİ Nazirlər Sovetində daimi nümayəndəsi olmuşdur. Novodeviçye Fəxri xiyabanında dəfn edilmişdir.





**Həmid Ağa Xəlil oğlu Şahtaxtinski** (1880-1944), maarifçi pedaqoq, professor. 1899-cu ildən Erivan seminariyasında Azərbaycan və rus dilləri müəllimi kimi fəaliyyətə başlamışdır. Odessada Novorossiysk universitetinin hüquq fakültəsində (1912), Tiflisdə Zaqafqaziya universitetinin tibb fakültəsində (1938) təhsil almışdır.

**Behbud ağa Şahtaxtinski** (1881-1924), diplomat. Bakı Soveti İcraiyyə Komitəsinin, Bakı XKS Fövqəladə komissiyasının üzvü, "Hümmət" təşkilatı Mərkəzi Komitəsinin sədri olmuşdur. Respublikamızda sovet hakimiyyətinin qələbəsindən sonra Azərbaycan SSR-nin RSFSR-də fövqəladə nümayəndəsi idi. O, 1920-ci ilin iyul, sentyabr aylarında Moskvada V. İ. Leninə Azərbaycan haqqında və bununla bağlı Qafqaz, Türkiyə və İrandakı vəziyyət barədə geniş məruzə təqdim etmişdir.

**Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov** (1885-1948), görkəmli bəstəkar, alim, dramaturq, pedaqoq və ictimai xadimdir. 1899-1904-cü illərdə Qori müəllimlər seminariyasında oxumuşdur. Dünya və rus mədəniyyəti ilə yaxından tanış olmuş, rus və Qərbi Avropa musiqi klassiklərinin əsərlərini mənimsəmişdir. SSRİ xalq artisti adına layiq görülmüşdür, Dövlət mükafatı laureatı olmuşdur.

**Əbdül Müslüm Məhəmməd oğlu Maqomayev** (1885-1937), Qax rayonundan Qroznı şəhərinə gəlmiş ailədə doğulub. Bəstəkar, dirijor, musiqi-ictimai xadimi, Azərbaycan Əməkdar incəsənət xadimi. 1904-cü ildə Qori müəllimlər seminariyasını bitirib. Şimali Qafqazda müəllimlik edib. 1916-cı ildə musiqisini muğamlar təşkil edən "Şah İsmayıl" operasını yaratmışdır. Bir çox musiqi əsərlərinin müəllifidir. Azərbaycan Opera və Balet Teatrının direktoru, bədii rəhbəri və dirijoru vəzifələrində çalışıb. 1938-ci ildə Moskvada keçirilən

Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə böyük uğurlar əldə edib. Görkəmli müğənni, bəstəkar M. Maqomayevin babasıdır. Ə. M. Maqomayev Bakıda dəfn olunub.

**Tərlan Abdulla oğlu Əlyarbəyov** (1892-1954), Tiflis hərbi məktəbini 1914-cü ildə bitirmiş, Birinci dünya müharibəsi illərində (1914-18) Şamaxı polku tərkibində rota və batalyon komandiri olmuşdur. Böyük Vətən müharibəsi illərində (1941-45) 416-cı atıcı diviziyanın komandiri, 58-ci korpusun komandir müavini kimi ən məsul vəzifələrdə çalışmışdır.

**Mirzə Davud Bağır oğlu Hüseynov** (1894-1938), 1920-ci ildə Moskvada V. İ. Leninlə görüşmüş, ÜİK-nin üzvü olmuş, 1930-33-cü illərdə Tacikistan KP MK-nın birinci katibi vəzifəsində işləmişdir.

**Mustafa Ağabəy oğlu Topçubaşov** (1895-1981), SSRİ Tibb EA-nın akademiki, İttifaq dövrünün məşhur cərrahı, ictimai və dövlət xadimidir. 24 yaşında Kiyev Universitetinin tibb fakültəsini bitirmişdir. 1950-ci ildə Ümumittifaq Cərrahlar Cəmiyyətinin fəxri üzvü idi. Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

**Cəmşid Cəfərqulu oğlu Naxçıvanski** (1895-1938), Ölkəmizin dilbər guşəsi Naxçıvanda doğulmuş bu şəxsiyyət diviziya komandirliyinə kimi ucalmışdır. Tiflisdə, Ukraynanın Kirovoqrad şəhərində hərbi təhsil almış, Birinci dünya müharibəsində müsəlman atlı alayında eskadron komandiri olmuşdur. 1921-31-ci illərdə Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri vəzifəsində çalışmış, Moskvada M. V. Frunze ad. Hərbi Akademiyanı fərqlənmə diplomu ilə bitirmişdir (1933). Orada müəllim vəzifəsində saxlanmışdır. 1935-ci ildə ona briqada komandiri hərbi rütbəsi verilmişdir.

**Əziz Məmmədkərim oğlu Əliyev** (1897-1962), Sovetlər İttifaqında partiya və dövlət xadimi, alicənab insan, səhiyyə təşkilatçısı kimi tanınmışdır. 1942-1948-ci





illərdə Dağıstan Muxtar Vilayət Partiya Komitəsinin birinci katibi, Ali Baş Komandanın bu bölgə üzrə nümayəndəsi olmuşdur.

**İsmayıl Mikayılzadə** (1899-1971), Sovetlər İttifaqı dövründə məşhur neftçi olmuşdur. Əmək cəbhəsində qazandığı müstəsna xidmətlərinə görə 1936-cı ildə Kremldə ona Lenin ordeni verilən zaman o, doğma Azərbaycan dilində çıxış etmişdir. Baş katib İ. V. Stalin onun əlini sıxıb, bağrına basmışdır, marşal Voroşilov onun çıxışından razı qalaraq "doğrudur" demişdir.

**Qambay Məmməd oğlu Vəzirov** (1899-1937), Naxçıvanda anadan olmuşdur. Bacarıqlı hərbçi kimi tanınmış, diviziya komandiri vəzifəsinə kimi yüksəlmişdir. Moskvada hərbi akademiyanı bitirdikdən sonra (1925) Azərbaycan hərbi-siyasi məktəbinin rəisi, 1927-ci ildə 3-cü Qafqaz diviziyasının, 1928-ci ildə Azərbaycan atıcı diviziyasının qərargah rəisi, 1930-cu ildə Belarusiyada 111-ci atıcı polkun, 1932-ci ildə Azərbaycan atıcı diviziyasının komandiri təyin edilmişdir.

**Əli Ağamalı oğlu Əmiraslanov** (1900-1962), Sovetlər İttifaqında nəhəng alim-geoloq kimi tanınmışdır. Geologiya-mineralogiya elmləri doktoru, professor, SSRİ EA-nın müxbir üzvü olmuş bu şəxsiyyət Qubadlı rayonunun Balahəsənli kəndində doğulmuşdur. 1930-1938-ci illərdə Qazaxıstanda, Uralda, Zabaykalyedə, Orta Asiyada, Qafqazda əlvan metal yataqlarının öyrənilməsində onun böyük xidmətləri vardır. Moskvada yaşamış, yaratmışdır. "Sovetskaya geologiya" jurnalının baş redaktorunun müavini (1954-62) olmuşdur. Çoxsaylı elmi əsərlərin müəllifidir.

**Yaqub Allahqulu oğlu Quliyev** (1900-1942), Novoçerkassk Süvari məktəbini, 1938-ci ildə isə M.V.Frunze ad. Hərbi Akademiyanı bitirmişdir. 1942-ci ildə 97-ci süvari diviziyanın komandiri idi. Onun komandiri olduğu 4-cü süvari korpus Stalinqrad uğrunda gedən

4418
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin KİTABXANASI

döyüşlərdə faşistlərin əsas qüvvələrinin qarşısının alınmasında və darmadağın edilməsində şücaət göstərmişdir. General-mayor Y. A. Quliyev həmin döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

**Əjdər Mahmud oğlu Xaspoladov** (1901-1986, Göyçay), Nəriman Nərimanovun sərəncamı ilə 1919-cu ildə başqa gənclərlə birlikdə V. İ. Leninlə görüşmək üçün Moskvaya yola düşüb. Çətinliklə də olsa Kremlə keçiblər, M. İ. Kalininlə görüşüblər. Şərq zəhmətkeşlərinin Universitetində təhsil alıb. 1942-ci ildən başlayaraq Perekop atıcı diviziyasında hərbi tribunalın üzvü, 1926-cı ildən SSRİ Ali Məhkəməsi Hərbi kollegiyasının sərəncamı ilə 2-ci Türküstan atıcı diviziyasının hərbi kollegiyasının üzvü, Orta Asiya hərbi dairəsində hərbi tribunalın sədri vəzifəsində çalışmış, müharibə illərində düşmənə qarşı mərdliklə döyüşmüşdür...

Moskva "Kuntsevo" Fəxri xiyabanında dəfn edilmişdir.

**Yusif Heydər oğlu Məmmədəliyev**, 1905-ci ildə Ordubad rayonunda doğulmuşdur. SSRİ EA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor, Əməkdar elm xadimi, SSRİ Dövlət mükafatı laureatı, 1947-1951, 1958-1961-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. Azərbaycan neft kimyasının əsasını qoymuşdur. Bir çox tədqiqatları dünya miqyasında tanınmışdır. 200-dən artıq elmi əsərin, o cümlədən 6 monoqrafiyanın müəllifidir. SSRİ, ABŞ, İtaliya, Fransa, İngiltərə və başqa ölkələrdə çağırılan qurultay, konqres və simpoziumlarda respublikamızı dəfələrlə təmsil etmiş, SSRİ Ali Sovetinin 5-ci çağırış deputatı olmuşdur.

1961-ci ildə vəfat etmişdir. 1985-ci ildə Moskvada "Sovetskaya ensiklopediya" nəşriyyatında işıq üzü görmüş "Velikaya Oteçestvennaya voyna-1941-1945", ensiklopediya kitabının 432-ci səhifəsində onun haqqında məqalə var.





**Aliyə Fətulla qızı Rüstəmbəyova** (1907-1942), Məmləkətimizin çoxsaylı incəsənət, mədəniyyət xadimlərinin vətəni Şuşa şəhərində doğulmuş bu qız Böyük Vətən müharibəsi qəhrəmanıdır. 1-ci Leninqrad Tibb İnstitutunu 1935-ci ildə başa vurmuş, üç il sonra isə Moskvada Həkimləri Təkmilləşdirmə İnstitutunda fəaliyyət göstərmişdir. Müharibənin ilk günlərindən Moskva, bir qədər sonra Smolensk yaxınlığında Tibb-sanitar batalyonunda xidmət etmişdir. 1941-ci ildə əsir düşmüş, 1942-ci ildə əsirlikdən qaçmış, Smolensk meşələrində çarpışan "Deduşka" partizan dəstəsinə qoşulmuş, qızğın döyüşlərdə həlak olmuşdur.

**Leyla Ələsgər qızı Məmmədbəyova** (1909), 1933-cü ildə Moskva Təyyarəçilik məktəbini bitirmiş bu bakılı gənc ilk azərbaycanlı təyyarəçi qadındır. Tuşino təyyarə meydanında paraşütlə tullanan ilk azərbaycanlı, SSRİ-də 21-ci qadındır. 1941-1945-ci illər müharibəsində desantçı paraşütçülər hazırlamışdır.

**Həzi Əhəd oğlu Aslanov** (1910-1945), tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanıdır. 1924-30-cu illərdə Bakıda və Leninqradda hərbi məktəbdə təhsil almışdır. Onun komandiri olduğu 55-ci əlahiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi şücaət göstərmişdir. 1944-cü ildə H. Aslanovun rəhbərlik etdiyi 35-ci qvardiya tank briqadası Belorusiyanın, Baltikyanı respublikaların düşmənlərdən azad edilməsində ağır döyüşlər aparmışdır. Mitava şəhəri yaxınlığında gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

**Yusif Süleyman oğlu Musabəyov** (1910-1970), kimya elmləri doktoru, professor idi. 1966-cı ildə Parisdəki Beynəlxalq Elm Tarixi və Fəlsəfə Akademiyasının müxbir üzvü seçilmişdi. XIX əsrin görkəmli kimyaçısı Yustus Libixin, fransız kimyaçısı və ictimai xadimi,

Peterburq EA-nın müxbir üzvü (1876) Bertlo Pyes Exen Marselenonun həyat yollarına dair kitablar yazmışdır. Ümumiyyətlə onun 300-dən artıq məqaləsi işıq üzü görmüşdür. Yaroslavl şəhərində dəfn edilmişdir.

**Akim Əli oğlu Abbasov** (1911-1991), 1932-ci ildə Bakıdakı Zaqafqaziya Hərbi Təlim Məktəbini bitirmiş, 77-ci, 76-cı diviziyalarda məsul vəzifələrdə çalışmış, 1942-ci ildən Şimali Qafqaz cəbhəsində 34-cü briqadanın komandiri olmuşdur. M. V. Frunze ad. Hərbi Akademiyanı qurtarmış, 1958-ci ildə ona general-mayor hərbi rütbəsi verilmiş,uzun müddət 126-cı, 295-ci diviziyaların komandiri olmuşdur.

**Eyyub İsmayıl oğlu Tağıyev** (1912-1967), Bakıda doğulub, burada boya-başa çatıb. Görkəmli alim və neft sahəsində məşhur mütəxəssis olan bu insan texnika elmləri doktoru, professor, İttifaq dövrünün əməkdar elm və texnika xadimi, üç dəfə Dövlət mükafatı laureatı idi (1942, 1947, 1952). Ömrünün 35 ilini Azərbaycanın, SSRİ-nin və bir çox xarici ölkələrin neft sənayesinə həsr etmişdir. Sovetlər İttifaqının neft sənayesi nazirliyində rəhbər vəzifələrdə çalışmışdır.

Novodeviçye Fəxri xiyabanında dəfn edilmişdir.

**Sabit Atabala oğlu Orucov** (1912-1981), İttifaq dövrünün görkəmli dövlət xadimi, texnika elmləri doktoru, SSRİ qaz sənayesi naziri idi. Bakıda doğulmuş, uşaqlıq illəri burada keçmişdir.

Novodeviçye Fəxri xiyabanında dəfn edilmişdir (Kitabda onun haqqında ayrıca materialı oxuya bilərsiniz).

**Hüseyn Cümşüd oğlu Rəsulbəyov,** 1917-ci ildə Dərbənd şəhərində anadan olub. Artilleriya general-leytenantıdır. Xidmətlərinə görə ona SSRİ-nin fəxri radisti, Azərbaycanın Əməkdar mühəndisi adı verilib. 1941-ci ildə Moskvada F. E. Dzerjinski ad. Hərbi Artilleriya Akademiyasını bitirmiş, Böyük Vətən müharibəsi cəbhələrində, HHM qoşunları tərkibində diviziya





qərargahında mühəndis vəzifəsində çalışıb. Qələbə baharından sonra Bakı HHM dairəsi qoşunlarında məsul vəzifədə xidmət edib. 1975-ci ilə kimi həmin dairənin hərbi hissələrində komandan müavini və komandan vəzifələrində xidmət edib. Zenit artilleriyası sahəsində bir çox əsərlərin müəllifidir. Azərbaycan SSR Rabitə naziri olub. AKP qurultaylarının nümayəndəsi, Ali Sovetin deputatı seçilib.

Bakıda Fəxri xiyabanda dəfn edilib.

**Kərim Abbasəli oğlu Kərimov** (1917-2003), Bakıda doğulmuş, burada boya-başa çatmışdır. 1942-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirdikdən sonra SSRİ Artilleriya Akademiyasında təhsilini davam etdirmişdir. Müharibədən sonra Müdafiə Nazirliyinin aparatında 20 il xidmət etmiş, 1965-ci ildə mülki nazirliyə-yeni yaradılmış Ümumi Maşınqayırma Nazirliyinə ezam olunmuş və burada kosmik raket texnikası üzrə işlərin təşkil edilməsi ilə bilavasitə məşğul olan Üçüncü Baş idarəyə rəhbərlik etmişdir. 1966-cı ildə Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasının sədri təyin edilmiş, bu vəzifədə 1991-ci ilə kimi çalışmışdır. Onun kosmik raket texnikasının inkişaf etdirilməsindəki misilsiz xidmətləri yüksək qiymətləndirilərək ona Sosialist Əməyi Qəhrəmanı, Lenin və Dövlət mükafatları laureatı adları verilmişdir.

Yüksək vəzifədə işlədiyi dövrdə ayrı-ayrı vaxtlarda SSRİ EA-nın prezidenti, akademik M. V. Keldış, akademiklər V. P. Mişin, V. P. Qluşko, görkəmli konstruktor-akademiklər S. P. Korolyov, N. A. Pelugin, M. S. Ryazanskiy, M. K. Yangel, V. N. Çalomey, V. P. Makeyev, V. İ. Kuznetsov, V. P. Barmin və başqaları onun müavinləri olmuşlar.

**Mehdi Hənifə oğlu Hüseynzadə** (1918-1944), leytenant, Yuqoslaviya və Şimali İtaliyada müqavimət hərəkatının iştirakçısıdır. Tbilisi hərbi piyada məktəbini

bitirmiş, 1942-ci ilin iyulundan cəbhədə vzvod komandiri olmuş, avqust ayında yaralanmış və əsir düşmüşdür. 1944-cü ildə düşərgədən qaçmış, alman dilini bilən adam kimi Yuqoslaviyada partizan bölmələri tərkibində düşmən haqqında qiymətli kəşfiyyat məlumatları toplamış, 1944-cü ildə 700 hərbi əsirin, o cümlədən 147 Sovet əsirinin azad edilməsində cəsarətli tədbir həyata keçirmişdir. Yuqoslaviyada 31-ci diviziyanın qərargahı nəzdində kəşfiyyat-diversiya qrupu yaratmış və rəhbərlik etmişdir. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

**Həsən Məmmədbağır oğlu Abdullayev,** 1918-ci ildə Culfa rayonunda doğulmuşdur. Fizika-riyaziyyat elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı, SSRİ EA-nın müxbir üzvü olmuşdur. 13 monoqrafiya, 35-dən çox ixtira, onlarla dərslik, yüzlərlə elmi məqalə onun zəhmətinin bəhrəsidir. Azərbaycanda yarımkeçiricilər fizikası üzrə elmi məktəb yaratmışdır. H. Abdullayevin aldığı yarımkeçirici materiala ABŞ və Fransanın patentləri verilmişdir.

1970-84-cü illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. 1993-cü ildə vəfat etmişdir.

**Bəhram Miriş oğlu Mirtağıyev** (1919), Böyük Vətən müharibəsinin fəal iştirakçısı, baş leytenantdır. Döyüşə-döyüşə Berlinə çatmışdır. Bu şəhərin alınmasında şücaət göstərmiş, 1945-ci il mayın 2-də Reyxstaq divarına süngü ilə "Bakı- Berlin" sözlərini, özünün və yoldaşlarının familiyasını yazmışdır. Filimov (əslində Filimonov) N.P., Mirtaqiyev B.M., Kuzmin T. İ. sözləri yazılmış həmin daş plitə Moskvada Mərkəzi İnqilab Muzeyində saxlanılır.

**İsrafil Məhərrəm oğlu Məmmədov** (1919-1946), baş leytenant, ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanıdır (11.12.1941). Böyük Vətən müharibəsi dövründə SSRİ





rəhbərlərindən biri A. S. Şerbakov bildirmişdir: "Məmmədov döyüşdə şəxsən 70 faşist məhv etmişdir." Novqorod vilayətinin Pustınka kəndi yaxınlığında İ.Məmmədovun vzvodu düşmənin 300 əsgər və zabitini məhv etmişdi.

**Züleyxa Həbib qızı Seyidməmmədova** (1919, Bakı-1994), M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu (1938), Jukovski adına Hərbi-Hava Akademiyasının təyyarəçilik fakültəsini bitirmişdir. 1941-1945-ci illər müharibəsində qırıcı aviapolkun komandirinin müavini vəzifəsində alman faşistlərinə qarşı mərdliklə mübarizə aparmış, cəsur təyyarəçi kimi tanınmışdır. Müharibənin qızğın vaxtında, düşmənin Moskvaya yaxınlaşdığı günlərdə Ali Baş Komandan İ. V. Stalini aparan təyyarəni Stalinqradadək müşayiət edən 8 təyyarəçi qızdan biri də Züleyxa xanım olmuşdur.

**Əfrasiyab Paşa oğlu Vəkilov,** 1920-ci ildə Qazax mahalında anadan olub. Birinci dünya müharibəsinin ilk günlərindən döyüşən orduda xidmət edib. Fin kompaniyası qələbə ilə başa çatdıqdan sonra xidmətini Baltik donanmasında matros kimi davam etdirib. Leninqrad mühasirəsini yaşayıb. Döyüş xidmətləri orden və medallarla qeyd olunub. Leninqrad Dövlət Universitetinin (LDU) şərqşünaslıq fakültəsini bitirib (1952). 1952-55-ci illərdə aspiranturada təhsilini davam etdirib. Hələ 1950-ci illərdə Ermitajda elmi işçi olub. 1957-ci ildə LDU-da şərqşünaslıq fakültəsi dekanının müavini təyin olunması ilə əlaqədar bu vəzifəsindən gedib. 1955-ci ildən bu günə kimi LDU-nun türk filologiyası kafedrasının şərqşünaslıq fakültəsində müəllim işləyir. 1941-ci ildə mühasirədə olan Leninqradda keçirilmiş Nizami Gəncəvinin 800 illik yubileyi-nin xronikasını yaradıb. 50-dən artıq elmi işin və 6 kitabın müəllifidir.

**Heydər Əlirza oğlu Əliyev** (1923-2003), mayın 10-da Naxçıvanda doğulmuşdur. Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra (1939) Azərbaycan Sənaye İnstitutunda iki il təhsilini davam etdirmiş, müharibə təhsilini davam etdirməyə mane olmuşdur. 1941-44-cü illərdə Naxçıvan MR Xalq Komissarları Sovetində şöbə müdiri, 1944-cü ildən 1969-cu ilədək Azərbaycan dövlət təhlükəsizliyi orqanlarında xidmət edərək adi sıravidən sədr vəzifəsinədək ucalmışdır, general-mayor rütbəsinə layiq görülmüşdür. Bu illər ərzində xüsusi-ixtisas təhsili almış, 1957-ci ildə isə ADU-nun tarix fakültəsini bitirmişdir. 1969-1982-ci illərdə Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi olmuş, "...əqidəliliyi və nöqsanlara qarşı barışmazlığı, özünə və başqalarına yüksək tələbkarlığı, adamlara həssas, qayğıkeş münasibəti ilə fərqlənir... rəhbərə xas yüksək keyfiyyətləri, təşkilatçılıq qabiliyyəti, tükənməz enerji, işgüzarlığı, təşəbbüskarlığı ilə Heydər Əliyev Azərbaycan xalqının, respublikamızın bütün zəhmətkeşlərinin böyük nüfuzunu, məhəbbət və hörmətini qazanmışdır (ASE,IVcild, səh 178 Bakı-1980).

1982-87-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilmiş, xarici siyasət məsələlərində, iqtisadi islahatların həyata keçirilməsində, sosial problemlərin həllində və dövlət quruculuğunda böyük ad-san qazanmışdır, kütlələr tərəfindən tanınmışdır. İki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

1993 və 1998-ci illərdə ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının prezidenti seçilmişdir. "Dövlət və ictimai-siyasi fəaliyyətinin bütün mərhələlərində Heydər Əliyevin təşkilatçı-yenilikçi istedad və bacarığı parlaq surətdə təzahür etmişdir. Azərbaycan iqtisadiyyatının və mədəniyyətinin bütün sahələrində proqram dəyişikliklərinin mükəmməl sistemini yaratmış





və həyata keçirmişdir. Azərbaycan iqtisadiyyatı üçün tamamilə yeni olan bir sıra xalq təsərrüfatı sahələrinin yaradılması, irimiqyaslı tikinti və sənaye obyektlərinin istifadəyə verilməsi, fundamental və tətbiqi elmlərin inkişafı sahəsindəki nəhəng sıçrayışlar Heydər Əliyevin adı ilə bağlıdır..." (Üzeyir Hacıbəyov ensiklopediyası, Bakı-1996, səh. 76).

**Əzizməmməd Nuru oğlu Əlizadə** (1923-1978), Böyük Vətən müharibəsinin fəal iştirakçısı, mayordur. Buynaksk hərbi piyada məktəbini bitirmiş, 416-cı Azərbaycan diviziyasında vzvod, rota komandiri olmuşdur. Müharibə faşizm üzərində qələbə ilə başa çatdıqdan sonra Berlində İmperiya dəftərxanasının ilk komendantı məhz Ə. N. Əlizadə idi.

**Həmid Həbib oğlu Qasımbəyov**, 1923-cü ildə Naxçıvan şəhərində doğulmuşdur. Böyük Vətən müharibəsinin fəal iştirakçısıdır. Sakit okean Hərbi Donanması tərkibində yapon militaristlərinə qarşı vuruşmuşdur. 1957-ci ildə Leninqradda Hərbi Dənizçilik Akademiyasını bitirmiş, 1945-76-cı illərdə Sakit okean, Şimal və Baltik hərbi-dəniz donanmalarında gəmi komandiri, qərargah rəisi, gəmilər briqadasının komandiri, hərbi dəniz bazasının qərargah rəisi və komandiri vəzifəsində, 1977-ci ildən Qırmızı Bayraqlı Xəzər Donanmasının komandanı olmuşdur. 1976-cı ildə ona vitse-admiral rütbəsi verilmişdir. Varşava müqaviləsi təşkilatının ən böyük hərbi-dəniz bazasının komandiri idi.

**Cahangir Əliabbas oğlu Kərimov**, 1923-cü ildə Bakıda doğulmuşdur. SSRİ EA-nın müxbir üzvü, Azərbaycan EA-nın həqiqi üzvüdür. Hüquq elmləri doktoru, professor C. Kərimov Sankt-Peterburq və Moskvanın ali məktəbləri və elmi-tədqiqat institutlarında rəhbər vəzifələrdə çalışmışdır. O, Serbiya İncəsənət və EA-nın, Finlandiya Ədəbiyyat və EA-nın, Çernoqoriya EA-nın, Beynəlxalq İnformasiya prosesləri və texnologiya

Akademiyasının üzvüdür. 500-dən artıq elmi işin, o cümlədən 32 monoqrafiyanın müəllifidir. SSRİ Ali Sovetinin deputatı seçilmişdir.

**Asya Baxış qızı Sultanova**, 1923-cü ildə Bakıda doğulmuşdur. 1954-cü ildən Rusiya Bəstəkarlar İttifaqının üzvüdür. Azərbaycanın Əməkdar incəsənət xadimidir. Müharibədən sonra Moskvada P. İ. Çaykovski ad. konservatoriyanın bəstəkarlar fakültəsində təhsil almışdır. Onun əsərlərini R. Behbudov, M. Maqomayev, F. Əhmədova, Y. Qulyayev, Y. Baqatikov, Eda Rozner və başqaları ifa etmişlər. 1968-ci ildən Sənədli filmlər Mərkəzi studiyasının redaktoru olmuşdur. Moskvada yaşayır, fəaliyyətini davam etdirir, Azərbaycan ictimai cəmiyyətlərinin keçirdiyi tədbirlərdə fəal iştirak edir.

**Həbib Abdulla oğlu Həbibov**, 1924-cü ildə Lənkəranda doğulmuşdur. Tibb elmləri doktoru, professor, Rusiya Əməkdar elm xadimi, Rusiya Nazirlər Soveti mükafatı laureatı H.Həbibov ATİ-ni bitirib, ömrünün 40 ildən artıq hissəsini Moskvada yaşayıb, fəaliyyət göstərib. ABŞ, Fransa kimi ölkələrdə cərrahiyyə əməliyyatı aparıb.

1993-cü ildə vəfat edib, Moskvada Troyekurovski Fəxri xiyabanında dəfn olunmuşdur.

**Qədriyyə İsmayıl qızı Səlimova**, 1924-cü ildə Bakıda doğulmuşdur. Pedaqogika elmləri doktoru, professor, Rusiya Təhsil Akademiyasının müxbir üzvü, Beynəlxalq pedaqogika tarixi komitəsinin üzvü, dünyanın bütün qitələrinin aparıcı alimlərinin daxil olduğu nəhəng beynəlxalq kollektivə rəhbərlik edir. Böyük Vətən müharibəsi cəbhələrinə 1941-ci ildə könüllü getmiş, 46-cı Qafqaz ordusunun tərkibində radist olmuş, marşal Tolbuxinin rəhbərlik etdiyi 3-cü Ukrayna cəbhəsi ilə Vyanaya (Avstriya) kimi çatmışdır.





**Tofiq Yaqub oğlu Ağahüseynov**, 1925-ci ildə Şəkidə doğulmuşdur. Bakıda artilleriya məktəbini bitirmiş, 1942-ci ildə Arxangelskə HHM qüvvələrinə xidmətə göndərilmişdir. 1941-1945-ci illər müharibəsində vzvod komandiri, divizion qərargah rəisinin köməkçisi olmuşdur. 1954-cü ildə F. E. Dzerjinski ad. Ali Artilleriya Akademiyasını bitirmiş, 1980-ci ilədək polk, diviziya, korpus komandiri, Zaqafqaziya Hərbi Dairəsi komandirinin birinci müavini, bu dairənin HHM komandiri vəzifəsində çalışmışdır. 1982-ci ildə Varşava müqaviləsi dövlətlərinin birləşmiş hərbi qüvvələrinin baş komandanının nümayəndəsi təyin olunmuş, 1987-ci ildə artilleriya general-polkovniki rütbəsində istefaya çıxmışdır.

Ordu generalı A.F.Şeqlov, aviasiya marşalı A.U.Konstantinov, general-polkovniklər F.A.Oliferov və S.K.Çubarov onun xidmətlərinə yüksək qiymət verərək bu barədə söz demişlər.

**Abdul Ənbiyə oğlu Hüseynov**, 1925-ci ildə Bakı yaxınlığında, Əmircan qəsəbəsində doğulmuşdur.Şərqşünas-alim, yazıçı, tarix elmləri namizədidir. 1956-cı ildə Türkmənistan Dövlət Universitetinin hüquq fakültəsini, 1971-ci ildə Ümumittifaq Mərkəzi Həmkarlar İttifaqı Ali Məktəbinin aspiranturasını bitirib. 400-dən yuxarı elmi və publisistik məqalənin, o cümlədən 5 monoqrafiyanın, "100 znamenitıx azerbaydjantsev", "Salax ad – Din", "Xodjalinskaya traqediya" və başqa kitabların müəllifidir. Onun əsərləri ingilis, ispan, alman, fransız və başqa dillərdə nəşr edilmiş, ərəb ölkələrində, Bolqarıstan, Almaniya, Monqolustan, Türkiyə kimi ölkələrdə buraxılmışdır. Bir çox ölkələrdə mühazirələr oxumuşdur. Əmircan qəsəbəsinin fəxri vətəndaşı, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Moskvada yaşayır, fəaliyyət göstərir.

**Aydın Salar oğlu İmaməliyev**, 1926-cı ildə Bakıda doğulub. Tibb elmləri doktoru, professor, Rusiya Federasiyasının Əməkdar ixtiraçısı, Əməkdar elm xadimi, Rusiyanın və Moskva şəhərinin baş ortopedi və travmotoloqudur.

1947-ci ildə ATİ-ni bitirib, 1961-77-ci illərdə N.N.Piroqov ad. Mərkəzi travmatologiya və ortopediya institutunda özünün təşkil etdiyi orqan və toxumaların köçürülməsi şöbəsinin müdiri işləmişdir...

SSRİ Tibb EA-nın N. İ. Piroqov ad. mükafatını almışdır. SSRİ – Venesuela Dostluq Cəmiyyətinin vitse-prezidenti olub.

**Valeh Əyyub oğlu Bərşadlı** (1927-1999), 1927-ci ildə Bakıda doğulub. Tank qoşunları general-leytenantıdır. 1944-cü ildən Sovet ordusunda xidmətə başlayıb. 1946-cı ildə Bakı zenit artilleriyası məktəbini, 1948-ci ildə Kiyev hərbi məktəbini, 1956-cı ildə Zirehli tank qoşunları hərbi akademiyasını (komandirlik fakültəsini) bitirib. SSRİ Silahlı Qüvvələri baş qərargahının hərbi akademiyasında təhsil alıb. 1977-87-ci illərdə Bakı Ali Ümumqoşun Komandirləri məktəbinin rəisi işləyib. Taqım komandirliyindən ordu komandanının birinci müavini, Almaniyadakı Sovet qoşun hərbi birləşmələrinin ən böyük ordularından birinin Hərbi Şurasının üzvlüyünə qədər ağır və məsuliyyətli yol keçib. 1987-ci ildə Sovet Ordusundan tərxis olunub.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra onun hərbi sahədə olan zəngin iş təcrübəsindən ordu quruculuğu sahəsində istifadə edilib. Müstəqil ölkəmizin ilk Müdafiə naziri, sonra isə həmin nazirliyin Baş qərargahının rəisi, 1992-ci ildən ömrünün sonunadək Cəmşid Naxçıvanski ad. Bakı hərbi litseyinin rəisi vəzifəsində çalışıb. Bakıda dəfn edilib.

**Əhməd Əhməd oğlu İsgəndərov**, 1927-ci ildə Bakı yaxınlığında, Mərdəkan qəsəbəsində doğulub. Görkəmli tarixçi-şərqşünas, tarix elmləri doktoru, professor, Rusiya EA-nın (keçmişdə SSRİ EA-nın) müxbir üzvü, Rusiyanın Əməkdar elm xadimi, "Voprosı istorii" jurnalının baş redaktorudur. 1950-ci ildə Ümumittifaq Xarici Dillər institutunu, 1955-ci ildə MDU-nun fəlsəfə fakültəsini bitirmişdir. Moskvada bir çox məsul vəzifələrdə çalışmış, 1970-ci ildən SSRİ EA Ümumi Tarix İnstitutunun direktor müavini idi. 1987-ci ildən "Voprosı istorii" jurnalının baş redaktorudur.





**Fərman Qurban oğlu Salmanov**, 1928-ci ildə Şamxor(indiki Şəmkir) rayonunun Morul kəndində anadan olmuşdur. Alim-geoloq, ictimai xadim, geologiya-minerologiya elmləri doktoru, Rusiya EA-nın müxbir üzvü, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı, Surqut şəhərinin fəxri vətəndaşıdır. Azərbaycan Sənaye İnstitutunu bitirmişdir. 1954-cü ildən Novosibirskdə, 1959-cu ildən Tümen vilayətində neft sahəsində işləmiş, 1978-ci ildən Tümen Baş Geologiya idarəsinin rəisi, sonralar SSRİ Geologiya nazirinin birinci müavini idi. Bir çox elmi və publisistik kitabların müəllifidir. Tümen vilayətinin Orta Obyanı ərazisində 20-dən çox neft yatağını kəşf etmiş, Qərbi Sibirdə Ust-Balık, Surqut, Salımsk, Pravdinsk, Verxne-Salımsk, Mamontovsk, Samotlor, Urenqoy, Bovanenkovsk və digər neft, qaz yataqları onun rəhbərliyi və iştirakilə kəşf olunmuşdur.

**Tahir Teymur oğlu Salahov**, 1928-ci ildə Bakıda doğulmuşdur. Azərbaycan boyakarı və qrafiki, SSRİ xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatıdır. "Bakı. Şirvanşahlar sarayı", "Neftçi portreti", "Xəzər sahilində", "Bəstəkar Qara Qarayevin portreti", "Pəncərə. Moskva şəhəri" və onlarla başqa rəsm əsərlərin müəllifidir. 1945-50-ci illərdə Ə. Əzimzadə ad. Azərbaycan Rəs-

samlıq Məktəbində, 1951-57-ci illərdə V. İ. Surikov ad. Moskva Dövlət Rəssamlıq İnstitutunda oxumuşdur.

Sosialist Əməyi Qəhrəmanı Tahir Salahovun sərgiləri bir çox ölkələrdə, o cümlədən Yaponiya, İspaniyada nümayiş olunmuşdur. O, bir çox beynəlxalq ictimai təşkilatların üzvü, fəxri prezidentidir.Xarici ölkələrin akademiyalarının həqiqi üzvüdür.Bir sıra xarici ölkələrin orden, medallarına və fəxri adlarına layiq görülmüşdür.

**Yusif Xaspolad oğlu İsmayılov**, 1928-ci ildə Bakıda doğulmuşdur. Alim-mühəndis, texnika elmləri doktoru, polkovnik-mühəndis, baş konstruktorun birinci müavini idi. 1951-ci ildə Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsini bitirmiş, 1961-ci ildə Moskvada Elmi-Tədqiqat institutunda işlədiyi vaxt məhsuldar axtarışlarına, böyük nailiyyətlərinə görə "Qırmızı Ulduz" ordeninə, sonralar qazandığı uğurlarına görə "Əmək Bayrağı Ordeni"nə layiq görülmüşdür. 1976-cı ildə maşınqayırma sahəsində qazandığı misilsiz nailiyyətlərinə görə Lenin mükafatı ilə təltif edilmişdir. Sovetlər ittifaqının süqutundan sonra məlum olmuşdur ki, Y. İsmayılov "Kosmik tədqiqatları biləvasitə təmin etdiyinə görə Y. A. Qaqarin medalı" ilə qeyd edilmişdir.

Y. X. İsmayılov 1984-cü ildə vəfat edib, Moskvada Vaqankovsk Fəxri xiyabanında dəfn olunub."

**Rauf Məhəmməd oğlu Munçayev**, 1928-ci ildə Zaqatala şəhərində doğulub. Tarixçi-alim, tarix elmləri doktoru, professor, Rusiya EA-nın müxbir üzvü, RF-nin və Dağıstanın Əməkdar elm xadimi, Almaniya Arxeologiya İnstitutunun müxbir üzvüdür. S.Stalski ad. Dağıstan Dövlət Pedoqoji İnstitutunu bitirib (1949). 1968-ci ildən Rusiya EA-nın Arxeologiya İnstitutunun direktor müavini, 1991-ci ildən direktoru vəzifəsində çalışır. O, Paris, Vaşinqton, Harvard, Bakı, Tbilisi, Düşənbə, Aşqabad, Daşkənd, Səmərqənd, Qazan...





şəhərlərində keçirilən simpozium və konfransların iştirakçısıdır. 250 elmi işin və 50-dən çox məqalə və "zametkalar"ın müəllifidir. 50-yə yaxın elmi işi ABŞ, İngiltərə, Fransa, Yaponiya mətbuatında nəşr edilmişdir. Orden, medal və RF Dövlət mükafatına layiq görülmüşdür.

**Çingiz Həsən oğlu Hüseynov,** 1929-cu ildə Bakıda doğulub. Görkəmli yazıçı, tanınmış ədəbiyyatçı, filologiya elmləri doktoru, professor, Azərbaycanın Əməkdar incəsənət xadimidir. 1952-ci ildə Moskva Dövlət Universitetinin filologiya fakültəsini bitirib, 1956-cı ildə isə SSRİ EA-nın Şərqşünaslıq institutunun aspiranturasını başa vurub. 50 ildir Moskvada yaşayan və yaradıcılıqla məşğul olan Çingiz Hüseynovun kitabları 60-dan çox ölkədə nəşr edilmişdir. "Doktor N", "Məhəmməd, Məmməd, Məmiş", "Semeynıye taynı" və başqa əsərləri Qafqaz və Rusiya reallıqları ilə sıx bağlıdır. Onun ədəbi əsərlərinin bir çoxu M. Ə. Sabirin, C.Məmmədquluzadənin, Səməd Vurğunun, Mehdi Hüseynin yaradıcılığına həsr olunmuşdur. 30-dan yuxarı roman və povestlərin müəllifi Ç. Hüseynov Rusiya xalqlarının mədəniyyətinə dair leksiyaları ABŞ-da, Fransada, Türkiyədə və başqa ölkələrdə oxumuşdur.

Moskva-Azərbaycan mədəni-ictimai cəmiyyətlərinin keçirdiyi tədbirlərdə fəallıq göstərir. "Azərros", "Konqres azerbaydjantsev" və başqa qəzetlərdə müntəzəm çıxış edir.

**Fikrət İsmayıl oğlu Zərgərli** (1929-1984), Bakı şəhərində anadan olub. Tibb elmləri doktoru, ölkəmizdə kardioxirurgiyanın banilərindən biri; ürək anevrizmi (qan damarlarının genişlənməsi) ilə bağlı akademik B.V.Petrovskinin rəhbərliyi altında həyata keçirilmiş dünyada ilk cərrahiyyə əməliyyatlarından birində iştirak etmişdir. N. Nərimanov ad. Dövlət Tibb İnstitutuna daxil olmuş, 1949-50-ci tədris ilində Moskvaya dəyi-

şilmiş və İ. M. Seçenov ad. Tibb institutunu bitirmişdir. Burada ixtisası üzrə bir çox məsul vəzifələrdə fəaliyyət göstərdikdən sonra 1967-ci ildən SSRİ TEA-nın A. L. Myasnikov ad. kardioloji ETİ-nin ürək-cərrahiyyə şöbəsinin rəhbəri (müdiri) vəzifəsində çalışmışdır. 1968-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1976-cı ildə Azərbaycan Səhiyyə nazirliyinin təklifi ilə doğma Vətənə gələrək 1978-ci ildən həmin nazirliyin baş cərrahı vəzifəsində işləmişdir.

O, 150-dən çox elmi əsərlərin müəllifidir.

**Ələkbər Əmir oğlu Məmmədov**, 1930-cu ildə Bakıda doğulmuşdur. İdmançı-futbolçudur. SSRİ Əməkdar idman ustası, dörd dəfə SSRİ çempionudur. 1952-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu, 1965-ci ildə isə ADU-nun jurnalistika fakültəsini bitirmişdir. O, 1948-53 və 1960-62-ci illərdə "Neftçi", 1954-59-cu illərdə Moskvanın "Dinamo" futbol komandalarında çıxış etmiş, dəfələrlə SSRİ yığma komandasında oynamışdır. "Neftçi" və başqa komandaların məşqçisi olmuşdur. "Na tryox kontinentax" kitabının müəllifidir. Ordenə layiq görülmüşdür.

**Qasım Məmməd oğlu Kərimov**, 1930-cu ildə Gəncə şəhərində anadan olub. Tarix elmləri doktorudur. RF Prezidenti yanında Rusiya Dövlət xidməti akademiyasının professorudur. 1953-cü ildə ADU-nun şərqşünaslıq fakültəsini (ərəb-fars və jurnalistika bölmələrini) bitirib. Xarici ölkə akademiyalarında çalışıb. Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasının professoru olub. 1994-cü ildən RF Prezidenti yanında Rusiya Dövlət xidməti akademiyasının professorudur. Eyni zamanda 1997-ci ildən Moskva Otradnı məscidi yanında "Hilal" xeyriyyə fondunun, Müsəlman mədəniyyəti universitetinin rəhbəridir. 400-dən artıq elmi əsərin müəllifidir. ABŞ, İran, İngiltərə, Türkiyə,Pakistanda... elmi əsərləri nəşr olunmuşdur. Doğma dilimizdən





başqa ərəb, fars, türk ingilis və rus dillərində sərbəst danışır.

**Murad Məhəmməd oğlu Kajlayev,** 1931-ci ildə Bakıda doğulub. Bəstəkar, dirijor, pedaqoq, SSRİ xalq artisti. M. Qlinka ad. Dövlət musiqi məktəbində istedadlı uşaqlar qrupunda skripka üzrə oxuyub, amma fortepiano sinfini bitirib. Azərbaycan Dövlət konservatoriyasında təhsilini davam etdirib.Təcrübə dövrünü SSRİ xalq artisti maestro Niyazinin yanında keçirib. Tələbəlik illərində SSRİ Bəstəkarlar ittifaqına qəbul olunmuşdur. O, "Pamyati 28 qeroyam-panfilovtsam", "Dağıstan", "İmam Şamil", " Fərhad və Şirin" simfonik əsərlərin müəllifidir. Rusiya, AFR, ABŞ və İtaliyada diskə yazılmış əsərləri buraxılmışdır. Onun haqqında Kerk Miçem (bəstəkar, ABŞ), Svyatoslav Fyodorov (akademik, RF), Nabuo Teraxara (bəstəkar, Yaponiya) dəyərli fikir söyləmişdirlər.

**Tamilla Zahid qızı Mahmudova**, 1931-ci ildə Bakıda anadan olub. Pianoçu, Azərbaycanın xalq artisti, Rusiyanın Əməkdar artisti, Moskva Dövlət Pedaqoji Universiteti musiqi fakültəsinin professorudur. 1954-cü ildə Moskva Konservatoriyasını və aspiranturanı bitirib. Həmin ildən Moskonsertin solistidir. İngiltərə, Belçika, Macarıstan, Hindistan, Polşada və başqa ölkələrdə qastrolda olmuşdur.

Onun haqqında SSRİ-nin mədəniyyət xadimləri L.Jivov, T.Qarayeva, M.İqnatyeva və başqaları dəyərli fikir söyləmişlər.

**Dilarə İbrahim qızı İsmayılzadə**, 1931-ci ildə Bakıda doğulub. RF-nin adlı-sanlı tarixçisi, tarix elmləri doktorudur. Rusiyada görkəmli tarixçilər haqqında buraxılmış "İstoriki Rossii. Kto yest kto" ("Letopis" nəşriyyatı, 1998) kitabında onun həyat yoluna dair məlumat vardır. ADU-nun tarix fakültəsini bitirib (1954). Azərbaycan EA-da və SSRİ EA-nın Tarix institutunda məsul vəzi-

fələrdə çalışıb. REA-nın Rusiya tarixi institutunun aparıcı elmi işçisi, XIX-XX əsr Rusiya-SSRİ tarixinə dair bir çox kitabların müəllifidir. "Naseleniye qorodov Zakavkazskoqo kraya v XIX-naçale XX veka" (Moskva-"Nauka" – 1991) kitabını yazarkən minlərlə arxiv sənədlərinə müraciət etmiş, həqiqəti üzə çıxarmışdır. Zaqavqaziyanın bütün şəhərləri ilə bağlı araşdırmalar aparmış, şəhərlərin hamısında azərbaycanlıların sayca üstünlük təşkil etdiyini sübuta yetirmişdir.

**Vəli Hüseyn oğlu Məmmədov** (1931-1991), Bakıda anadan olub. SSRİ xalq deputatı idi. Partiya işində məsul vəzifələrdə işləyib, ictimai xadim və ədəbiyyatşünas alim kimi tanınıb. Azərbaycan EA-nın Nizami ad. Dil və ədəbiyyat institutunda çalışıb, 1961-ci ildən partiya işinə keçib. Nəhəng ölkənin xalq deputatı kimi torpaqlarımızın düşməndən azad edilməsi uğrunda çox iş görmüş, 20 noyabr 1991-ci ildə Qarabağ səmasında "Mİ-8" hərbi vertolyotunda uçuş zamanı faciəli surətdə, müəmmalı şəraitdə həlak olmuşdur.

**Yuliy Məmmədbağır oğlu Əliyev**, 1932-ci ildə Bakıda anadan olub. Elmlər doktoru, professor, Rusiya Təhsil Akademiyasının aparıcı elmi işçisidir. 1951-55-ci illərdə A. Zeynallı ad. musiqi məktəbində oxuyub. Musiqi sahəsində bir çox kitabların müəllifidir. Onunla bir yerdə işləyən maestro Niyazinin təqdimatı ilə SSRİ EA-nın Bədii Tərbiyə İnstitutuna daxil olmuş, 1965-ci ildə oranı bitirmişdir. Müəllifi olduğu 150-dən çox elmi işin arasında musiqiyə aid monoqrafiyalar, müəllimlər üçün kitablar vardır. Məsələn, 2002-ci ildə "Nastolnaya kniqa şkolnoqo uçitelya-muzıkanta" kitabı işıq üzü görmüşdür.

**Fəhəm Paşa oğlu Kəsəmənli**, 1932-ci ildə Gəncədə anadan olub. ADU-nun fizika-riyaziyyat fakültəsini bitirib.Universitetdə ixtisası üzrə müəllimlik edib. Fizika-riyaziyyat elmləri doktoru, professordur. 1957-ci ildə





Azərbaycan EA-nın aspiranturasına daxil olub, 1959-cu ildə namizədlik müdafiə etmək üçün Leninqrad fizika-riyaziyyat İnstitutuna gedib. 1962-ci ildə elmlər namizədi, 1972-ci ildə elmlər doktoru dissertasiyasını müdafiə edib. 1969-cu ildən Kirovoqrad vilayəti Sverdlovsk şərərində Təmiz Metallar zavodunda laboratoriya müdiri işləyib. 1975-ci ildən bu günə kimi Leninqrad Politexnik İnstitutunda fizika-mexanika fakültəsinin eksperimental fizika kafedrasının professorudur.

2 müştərək monoqrafiyanın, 5 metodik vəsaitin, 2 ixtiranın, 80-dən çox orijinal elmi və 140 elmi-metodiki işin müəllifidir. "SSRİ ixtiraçısı" döş nişanına və medala layiq görülüb.

**Aza Həsən qızı Rəhmanova**, 1932-ci ildə Bakıda anadan olub. Elmlər doktorudur. 1955-ci ildə 1-ci Leninqrad Tibb İnstitutunu bitirib. Sonra qısa müddətə Bakıya qayıdıb. Həkimləri Təkmilləşdirmə institutunda namizədlik dissertasiyasını, 1974-cü ildə Leninqradda doktorluq dissertasiyasını müdafiə edib. 1988-ci ildən bu günə kimi Leninqrad Tibb Akademiyasında məsul vəzifədə çalışır. 1994-cü ildən Beynəlxalq ekologiya akademiyasının və Nyu-York EA-nın akademikidir. 1998-ci ildə ona RF-nin Əməkdar elm xadimi fəxri adı verilib. 300-dən artıq elmi işin müəllifidir.

**Kimal Osman oğlu Ələkbərov** 1933-cü ildə Salyan şəhərində anadan olub. Zoobaytarlıq ixtisası üzrə ali təhsil aldıqdan sonra Rostov vilayətinin Novoçerkassk rayonunda M. Qorki ad. kolxozda zootexnik işləyib. 1963-cü ildən RF Kənd təsərrüfatı nazirliyində çalışır, 1969-cu ildən "Kolos" nəşriyyatında məsul vəzifədə, daha sonra "Jivotnovodstvo" jurnalında böyük redaktor, son illərdə "Svinovodstvo" jurnalında baş redaktordur. Məhəbbət, sülh, beynəlmiləlçilik mövzu-sunda şerlər yazır.

**Tofiq Kazım oğlu İsmayılov**, 1933-cü ildə Bakıda anadan olmuşdur. Texnika elmləri doktoru, SSRİ Baş kosmos və kosmik tədqiqatlar EİB-nın rəhbəri idi. 1967-ci ildən 1985-ci ilədək Azərbaycan EA-nın sistemində çalışıb. Fizika İnstitutunda yarımkeçirici çeviricilər sahəsində baş mühəndis, Elmlər Akademiyası Rəyasət Heyəti yanında elmi işlər və onların tətbiqi şöbəsinin rəisi, "Xəzər" elmi mərkəzinin direktoru, İttifaq dövründə yeganə sayılan Tətbiqi Ehtiyatların Kosmik Tədqiqi İnstitutunun direktoru olub. 1982-ci ildən ömrünün sonunadək Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyinin baş direktoru-baş konstruktoru vəzifəsində işləyib və onun yaradıcısı olub. 1991-ci ildən Azərbaycanın Dövlət katibi idi. SSRİ xalq deputatı kimi torpaqlarımızın düşməndən azad edilməsi uğrunda çox iş görmüş, 20 noyabr 1991-ci ildə Qarabağ səmasında "Mİ-8" hərbi vertolyotunda uçuş zamanı faciəli surətdə, müəmmalı şəraitdə həlak olmuşdur.

**Azad Ziyad oğlu Abışev**, 1935-ci ildə Puşkin (indi Biləsuvar) rayonunun Qriboyedovka kəndində anadan olub. 1961-ci ildə Azərbaycan Tibb İnstitutunun əczaçılıq fakültəsini bitirib. Kimya elmləri doktoru, professordur. 1967-ci ildə LDU-da namizədlik, 1984-cü ildə doktorluq dissertasiyasını müdafiə edib. 1979-cu ildə ona baş elmi işçi alimlik dərəcəsi, 1991-ci ildə professor adı verilib. 1992-ci ildə biomodulyasiya və ximikoterapiya üzrə Avropa cəmiyyətinə üzv seçilib. Nyu-York EA-nın həqiqi üzvüdür (1994). Hazırda Sankt-Peterburq şəhərində öz ixtisası üzrə məsul vəzifədə çalışır. Xarici ölkələrdəki həmkarları ilə əməkdaşlıq edir. Beynəlxalq forumlarda tez-tez məruzələr oxuyur. 210-dan artıq elmi əsərin müəllifidir.

**Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov**, 1935-ci ildə Bakıda doğulub. Nasir, kinodramaturq, yazıçı və ssenaristdir. Azərbaycan Əməkdar incəsənət





xadimi (1975), Azərbaycan Dövlət mükafatı laureatı, Respublika Milli Məclisinin deputatıdır. Azərbaycan Politexnik institutunda oxuduğu illərdə çox tirajlı "Politexnik" qəzetinin nəşrində iştirak edib. Moskvada Ali ssenari kursunda, sonralar Ali rejissorluq kurslarında təhsil alıb. Uzun illərdir Moskvada fəaliyyət göstərir. Yazıçı, dramaturq, kinossenarist və rejissor kimi geniş fəaliyyəti dünya miqyasında tanınır. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərində kütləvi tirajla buraxılıb.

Doğma Azərbaycanla daim əlaqə saxlayır.

**Rafiq Osman oğlu Qurbanov**, 1937-ci ildə Bakıda anadan olub. Fəlsəfə elmi üzrə mütəxəssis, fəlsəfə elmləri doktoru, professordur. Şair Osman Sarıvəllinin oğludur. ADU-nu bitirib (1960). Azərbaycan EA-da çalışıb, SSRİ EA Fəlsəfə İnstitutunun təbiətşünaslıq-fəlsəfə məsələləri bölməsində aspirant olub. 1972-99-cu illərdə SSRİ EA-nın (sonralar REA) Fəlsəfə İnstitutunda və MDU-da tədrislə məşğul olub. 1994-96-cı illərdə Türkiyədə Uludağ universitetində elmi fəlsəfə, fəlsəfə tarixi, fəlsəfə ədəbiyyatı və başqa fənlərdən dərs deyib. 200-dən çox elmi işin müəllifidir, şer yazır, tərcümə ilə məşğuldur. Əsərləri Türkiyə, Rusiya, İngiltərə və başqa ölkələrdə nəşr olunub.

Moskvada Azərbaycan ictimai təşkilatlarının fəaliyyətində, tədbirlərində böyük rolu var. Bir çox ölkələrdə mühazirələr oxuyub.

**Cahangir Mustafa oğlu Əfəndizadə**, 1938-ci ildə Kislovodskda anadan olub. Bakıda orta təhsil alıb. Elmlər namizədi, Rusiya Dekabristlər muzeyinin yaradıcısı və direktorudur. ADU-nun tarix fakültəsini bitirib (1963). Aspiranturanı Azərbaycan Tarix muzeyində başa vurub. 1993-cü ildən Rusiya Tibb muzeyinin direktor müavinidir. Moskvada abidələrin mühafizəsi üzrə və başqa nüfuzlu ictimai təşkilatların üzvüdür.

**Eldar Qulam oğlu Quliyev**, 1939-cu ildə Bakıda doğulub. Ümumrusiya Azərbaycanlıları Konqresi Prezidentinin müşaviri, Fövqəladə və Səlahiyyətli səfirdir. ADU-da ərəb dili bölməsini bitirib (1963). Həmin ildən Misirdə tərcüməçi, sonra Azərbaycan XİN-nin əməkdaşı, 1969-cu ildən SSRİ-nin Asuanda vitse-konsulu, konsulu olub. Sovet İttifaqının XİN-nin Akademiyasını bitirdikdən sonra İstanbulda konsul kimi fəaliyyət göstərib, SSRİ XİN-nin mərkəzi aparatında, Azərbaycan Respublikasının BMT-də daimi nümayəndəsi kimi məsul vəzifələrdə çalışıb (2001-ci ilə qədər). Hazırda ÜAK Prezidentinin müşaviridir.

**Rahib Yusif oğlu Abbasov**, 1939-cu ildə İrəvan şəhərində anadan olub. Tibb elmləri doktoru, professordur. 1962-ci ildə Bakıda Tibb institutunu bitirib. Hərbi Akademiyada təhsilini davam etdirib. 1974-cü ildə namizədlik dissertasiyasını müdafiə edib. Hərbi tibb akademiyasının klinik ordinaturasına daxil olub. 1994-cü ilə qədər Akademiyada baş elmi işçi, hərbi-səhra terapiyası kafedrasının baş müəllimi vəzifəsində çalışıb. 1982-ci ildə ona tibb xidməti polkovniki rütbəsi, 1996-cı ildə Əməkdar həkim fəxri adı verilib. Sənaye və Dəniz tibb elmi-tədqiqat institutunun direktor müavini, klinikanın direktorudur. 108-dən artıq elmi işin, 7 kitabın müəllifidir.

**Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov**, 1939-cu ildə Bakıda anadan olub. Nasir, dramaturq, ssenaristdir. SSRİ xalq deputatı olub. Azərbaycanın Əməkdar incəsənət xadimi, Ümumittifaq komsomolu mükafatı və Azərbaycan Dövlət mükafatı laureatıdır. Azərbaycan Dövlət Neft və kimya institutunu bitirib. Azərbaycan EA-nın Kibernetika institutunda işləyib. 1963-cü ildə SSRİ EA-nın Kibernetika institutunun aspiranturasına daxil olub. SSRİ kinomatoqrafçılar İttifaqı yanındakı ikiillik Ali Ssenari kursunda oxuyub. Həmin





vaxt "Bir cənub şəhərində" adlı ssenarisini hazırlayıb. Çoxsaylı kitabların müəllifidir. Əsərləri Sovet xalqları dillərinə və bir sıra xarici ölkələrin dillərinə tərcümə edilib. "Azərbaycanfilm" və başqa respublikaların kinostudiyaları onun ssenariləri əsasında iyirmiyə yaxın bədii və televiziya filmi çəkiblər.

**Sadıq İmran oğlu Bağırov**, 1940-cı ildə Bakıda anadan olub. Uşaqlıq illərindən rəssamlıqla məşğul olub. Hələ o vaxtlar Hindistanda keçirilən beynəlxalq sərginin iştirakçısı olub. Saratov şəhərində ordu sıralarında ikən 1962-ci ildə Petrovsk şəhərində ilk fərdi sərgisi nümayiş etdirilib. 1968-ci ildə Saratov Rəssamlıq məktəbini, 1973-cü ildə Xarkov Rəssamlıq institutunu bitirib və Bakıya qayıdıb. Pionerlər evində fəaliyyət göstərdiyi zaman Razin (indi Bakıxanov) qəsəbəsində 4 saylı rəssamlıq texnikumunda müəllim işləyib. 1978-ci ildə uşağının xəstəliyi ilə bağlı Kaluqaya köçüb, həmin il Kaluqa Rəssamlar İttifaqına dəvət alıb, burada emalatxana ilə təmin olunub. Ümumrusiya İncəsənət sərgisində (Krasnoyarsk ş.) "Mənim Azərbaycanım" rəsmləri ilə iştirak edib. Əsərləri yüksək qiymətləndirilib (1983). Vladimir şəhərində VII region sərgisində "Köhnə Riqa" rəsm silsiləsini təqdim edib (1990). Onun əsərləri Rusiya, Azərbaycan, Ukrayna, ABŞ, Fransa, İtaliya, Polşa və başqa ölkələrin kolleksiyalarında saxlanılır.

**Əfrand Firudin oğlu Daşdəmirov**, 1942-ci ildə Bakıda doğulub. Fəlsəfə elmləri doktoru, professor, Azərbaycan EA-nın akademiki, Moskva pedaqogika və sosial elmləri Akademiyasının akademikidir. 1964-cü ildə ADU-nun tarix fakültəsini bitirib. 1991-ci ildən Azərbaycan EA-nın İctimai-siyasi tədqiqatlar İnstitutunun baş elmi işçisi, eyni zamanda Rusiya Federasiyası Prezidenti yanında Dövlət xidməti akademiyasının professorudur. Onun maraq dairəsinə milli münasibət-

lər probleminin sosial-fəlsəfə, nəzəri-metodologiyasının hazırlanması, etnik münasibətlərin mənəvi həyatı, şəxsiyyətin vətənpərvərlik və beynəlmiləlçilik məsələləri daxildir. 200-dən artıq elmi işin, 6 monoqrafiyanın müəllifidir.

**Tofiq Davud oğlu Məlikov**, 1942-ci ildə Şamxorda (indiki Şəmkir) anadan olub. Filologiya elmləri doktoru, professordur. 1965-ci ildə ADU-nun şərqşünaslıq fakültəsini bitirib. 1966-1991-ci illərdə SSRİ EA-nın Şərqşünaslıq institutunda elmi işçi kimi fəaliyyət göstərib. 1994-cü ilə kimi İstanbul universitetində rus dili və ədəbiyyatı bölməsinə rəhbərlik edib, eyni zamanda "Boqaziçi" universitetində Azərbaycan dili və ədəbiyyatını tədris edib. İki il Moskvada REA-nın Dünya ədəbiyyatı institutunun əməkdaşı olub. 1995-ci ildə Moskva Dövlət Linqvist universitetində Şərq dilləri kafedrasının professoru vəzifəsində çalışıb. 100-dən çox elmi əsərin, 4 monoqrafiyanın müəllifidir. Rusiya türkoloqlar sədrinin müavini, "Türkologiya" jurnalı redaksiya heyətinin üzvüdür.

**Müslüm Məhəmməd oğlu Maqomayev**, 1942-ci ildə Bakıda anadan olmuşdur. Müğənni (bariton), bəstəkar, SSRİ xalq artistidir. Bəstəkar Ə. M. Maqomayevin nəvəsidir. 1963-cü ildə Azərbaycan Opera və Balet Teatrının solisti olub. 1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Görkəmli bəstəkarların, o cümlədən A. Paxmutovanın, T. Xrennikovun, P. Bülbüloğlunun mahnılarının kütlələr arasında tanınmasında qəlbləri oxşayan və yumşaq tembrli gur səsi olan M. Maqomayevin böyük xidmətləri var. O, Ü.Hacıbəyovun "Koroğlu", M.Maqomayevin "Şah İsmayıl", S.Raxmaninovun "Aleko", Q. Qarayevin və C. Hacıyevin "Vətən" operalarında oxumuş və böyük şöhrət qazanmışdır. Azərbaycan dövlət estrada-simfonik orkestrinin təşkilatçısı, rəhbəri və solisti kimi





çıxışlar edib. Almaniya, İran, Kanada, Rusiya, Fransa, Polşa, Türkiyə və b. ölkələrdə qastrollarda olmuşdur.

Haqqında çoxlu məqalələr, publisistik yazılar, əsərlər yazılmış və Rusiya, Azərbaycan mətbuat orqanlarında dərc edilmişdir. Doğma Azərbaycanda keçirilən dövlət səviyyəli və b. tədbirlərdə iştirak edir.

**Valeh Cəfər oğlu Quliyev**, 1943-cü ildə doğulub. 1969-cu ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini fərqlənmə ilə bitirib. 1980-ci ildə M. V. Lomonosov adına MDU-də fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini müdafiə etmiş, 1987-ci ildə ona professor alimlik dərəcəsi verilmişdir. Həmin ildən Moskva Dövlət Açıq Universitetində kafedra müdiri, "Ali riyaziyyat" kafedrasının müdiri, 1998-ci ildən "Ali riyaziyyat" kafedrasının müdiri və "Tətbiqi riyaziyyat" fakültəsinin dekanıdır. 1994-cü ildən Beynəlxalq Mineral Ehtiyatları Akademiyasının üzvü (akademiki), 1996-cı ildən Çuvaşıstan Mühəndis-Texnologiya Akademiyasının həqiqi üzvü(akademiki), SSRİ Nazirlər Soveti mükafatı laureatıdır.

**Hacıbala Abutalıbov,** 1944-cü ildə Türkmənistanın Krasnovodsk(indiki Türkmənbaşı) şəhərində anadan olub. Elmlər doktoru, professordur. 1965-ci ildə ADU-nun fizika fakültəsini bitirib. 1969-cu ildə Leninqradda A. İoffe ad. Fizika-Texnika institutunun aspiranturasına daxil olub, 1976-cı ildə elmlər namizədliyini, 1987-ci ildə elmlər doktorluğunu müdafiə edib. 1992-ci ilədək Leninqradda fəaliyyət göstərib, 1995-ci ilədək Azərbaycan EA-nın Fizika institutunda laboratoriya müdiri işləyib. 1995-ci ildən Bakı şəhəri Suraxanı rayon İcra Hakimiyyətinin başçısı, 2000-ci il yanvarın 17-dən baş nazirin müavini təyin olunub.

Artıq üç ildir ki, Hacıbala müəllim paytaxtımızın, Bakı şəhərinin meridir. Onun rəhbərliyi altında aparılmış irimiqyaslı abadlıq, bərpa, təmir işlərinin nəticəsidir ki,

bu gün doğma Bakını dünyanın ən gözəl, ən nəhəng şəhərlərinə bənzədirlər. Durğun, düşkün vəziyyətə salınmış Bakının abadlaşmasına, bərpasına başlamaq Hacıbala müəllimdən böyük hünər, dəyanət, fədakarlıq tələb edirdi. O isə hamının tanıdığı kimi qəhrəman adamdır, layiqincə adı dillərdən, qəzet səhifələrindən, televiziya ekranlarından düşmür.

**Tapdıq Əlipaşa oğlu Əliyev**, 1945-ci ildə Qazax rayonunun Şıxlı kəndində anadan olub. Texnika elmləri doktoru, professor, Su təsərrüfatı elmləri Akademiyasının müxbir üzvü, "Qosekomeliovodun" elmi işlər üzrə direktor müavini idi. Azərbaycan Politexnik institutunun inşaat fakültəsini bitirib. Qaraqum, Volqa-Don kanallarının, Tengiz layihələrinin müdafiə bəndinin lahiyələrinin hazırlanmasında iştirak edib. Moskvada 1978-ci ildə elmlər namizədliyini, 1992-ci ildə doktorluğunu müdafiə edib. 100-dən artıq elmi işin, o cümlədən 6 monoqrafiyanın müəllifidir.

2001-ci ildə vəfat edib.

**Azər Qasım oğlu Şamilov**, 1947-ci ildə Bakıda anadan olub. Rusiyada onkologiya sahəsində aparıcı mütəxəssis, tibb elmləri doktoru, Rusiya TEA-nın N.N.Bloxin adına Onkoloji elmi mərkəzinin baş həkimidir. 1974-cü ildə İ. M. Seçenov ad. Moskva 1-ci Tibb institutunu bitirib. Sverdlovsk şəhəri 19-cu klinik xəstəxanasında cərrah işləyib. 1979-cu ildən Moskvada 1-ci Tibb institutunda akademik V. İ. Struçkovun rəhbərliyi altında fəaliyyət göstərib və namizədlik dissertasiyasını müdafiə edib. 1983-cü ildən bu günə kimi N. N. Bloxin ad. Onkoloji mərkəzdə çalışır.

**Yaşar Musa oğlu Hüseynov**, 1948-ci ildə Qəbələ rayonunun Həzrə kəndində anadan olub. Tibb elmləri namizədidir.1974-cü ildə ATİ-ni bitirib, qısa bir müddətdən sonra Moskvaya gedib, şəhər 58 saylı poliklinikada cərrah kimi fəaliyyətə başlayıb. Moskva 1-ci Tibb





ins-titutunun aspiranturasında təhsilini davam etdirib. 1982-ci ildə namizədlik dissertasiyasını müdafiə edib. N. İ. Piroqov ad. 2-ci Tibb institutunda assistent olub. 1990-cı ildən Moskva Vilayətində müalicə preparatları hazırlayan istehsalat firmasına rəhbərlik edir. Bu gün firma 135 adda məhsul istehsal edir.

**Faiq İbrahim oğlu Çələbiyev**, 1948-ci ildə Şəki şəhərində anadan olub. Bakıda uşaq musiqi məktəbini bitirib. A. Zeynallı ad. musiqi məktəbində təhsilini davam etdirib. Tar ustalığı üzrə görkəmli sənətkarımız Bəhram Mansurovun şagirdi olub. Konservatoriyanı müvəffəqiyyətlə başa vurub. 1985-ci ildən Sankt-Peterburq şəhərində yaşayır, fəaliyyət göstərir. Burada məşhur musiqişünaslar, professorlar A. İ. Klimovetskinin, T. S. Berşadskayanın, A. P. Milkin yanında peşəsini öyrənməyi davam etdirib. Rusiya İncəsənət tarixi institutunu bitirib. Deyərdim, şücaət göstərib, Sankt-Peterburqda muğam üzrə elmlər namizədi alimlik dərəcəsini müdafiə edib. Rusiya, Azərbaycan mətbuatı ilə sıx əlaqə saxlayır.

**Yusif Əbülfət oğlu Əmiraslanov**, 1949-cu ildə Kəlbəcər qəsəbəsində anadan olub. Tibb elmləri doktoru, professor, RF Hökumət mükafatı laureatıdır. Orta məktəbi fərqlənmə ilə bitirib. ATİ-ni qırmızı diplomla başa vurub. SSRİ TEA-nın aspiranturasında təhsilini davam etdirib. 1978-ci ildə namizədlik, 1986-cı ildə doktorluq dissertasiyasını müdafiə edib. Nyu-York EA-nın həqiqi üzvüdür. 70 ölkənin 150 şəhərinə dəvət olunub, simpoziumlarda, konfranslarda məruzələr oxuyub. RTEA-nın A. V. Vişnevski adına İnstitutunun baş elmi işçisi, professorudur.

**Elbrus Talıb oğlu Bayramov**, 1949-cu ildə İsmayıllıda anadan olub. Tibb elmləri namizədidir. 1972-ci ildə ATİ-nin müalicə-profilaktika fakültəsini bitirib. 1974-cü ildən kliniki ordinaturada onkoloji xəstəliklərin

müalicəsi və profilaktikası üzrə təcrübə keçməyə başlayıb. 1976-cı ildə Moskva Onkologiya mərkəzinin aspiranturasına daxil olub. RF paytaxtında Oktyabr rayonunun baş onkoloqu, onkologiya şöbəsinin müdiri olub. 1979-cu ildən bu günə kimi Moskva inzibati dairələrindən birində baş onkoloq vəzifəsində çalışır. Almaniya, Avstriya, Hollandiya, Türkiyə, Fransa, Çexoslovakiya və başqa ölkələrdə elmi məruzələr oxuyub. 20-dən artıq elmi işin müəllifidir.

**Vahid Yusif oğlu Ələkbərov**, 1950-ci ildə Bakıda anadan olub. Rusiyada neft və qaz sənayesi sahəsində tanınmış təşkilatçı, iqtisad elmləri doktorudur. 1974-cü ildə M. Əzizbəyov ad. Neft və Kimya institutunu bitirib. Təhsil aldığı illərdə "Xəzərdənizneft"də qazmaçı işləyib. Sonralar həmin istehsalat birliyində usta, mühəndis-texnoloq, növbə rəisi, baş mühəndis, neft mədəni rəisinin müavini, 1979-cu ildən "Koqalımneft" də və "Başneftdə" baş direktorun müavini, 1982-1990-cı illərdə "Koqalımneft" NQÇİ-nin rəisi, o zaman yenicə təşkil olunmuş "Koqalımneft" istehsalat birliyinin baş direktoru və 1990-1991-ci illərdə SSRİ Neft və Qaz sənayesi nazirinin birinci müavini olub. 1991-ci ilin axırlarından "LUKOYL" neft kompaniyasının prezidentidir.

**Mirzəbala Mustafa oğlu Musayev**, 1950-ci ildə İmişli rayonunun Çaxırlı kəndində anadan olub. Tibb elmləri namizədidir. 1979-cu ildə ATİ-nin müalicə-profilaktika fakültəsini bitirib. 1980-ci ildə internaturanı başa vurduqdan sonra Kalinin vilayətinin Ostaşkov şəhərinə gedib. Şəhər mərkəzi xəstəxanasında, 1984-cü ildən Zelenoqrad 3-cü xəstəxanasında cərrah işləyib. Moskva 1-ci Tibb institutunun aspiranturasında təhsilini davam etdirib, elmlər namizədliyini müdafiə edib. 1992-ci ildə Texas (San-Antonio ş., ABŞ) Tibb mərkəzində endoskopik cərrahiyyə 3 aylıq kursunu keçib. Bir çox elmi məqalələrin və ixtiraların müəllifidir. Moskva vilayətində ÜAK bölmələrindən birinin sədridir. Hazırda RTEA-nın elmi mərkəzində cərrah-məsləhətçidir.





**Əhməd İmaş oğlu Əbilov**, 1951-ci ildə Yardımlıda doğulub. Kənd təsərrüfatı elmləri doktorudur. İlk dəfə o, zubrla inəyin birləşməsindən hibrid, yeni heyvan növü almışdır. 1972-ci ildə Azərbaycan Kənd təsərrüfatı institutunu fərqlənmə ilə bitirib. Salyan rayonunda baytar işləyib. Ümumittifaq Heyvandarlıq institutunda aspiranturada təhsilini davam etdirib, akademik V.K.Milovanovun məktəbinin şagirdi olub.1990-cı ilə qədər elmi işçi, baş və aparıcı elmi işçi kimi fəaliyyət göstərib. ÜHİ-da doktoranturada təhsilini artırıb. 1997-ci ildə ÜETİ-da immunologiya laboratoriyasının müdiri, 2001-ci ildən isə RKTEA-nın nəzdində olan həmin institutun direktor müavini vəzifəsində fəaliyyətini davam etdirir. ABŞ, Almaniya, Yaponiya, İtaliya, Kanadada... elmi məruzələr oxuyub. 98 elmi işin, 2-patentin, 7 metodik zəmanətin müəllifidir. Moskva Azərbaycan ictimai təşkilatlarının keçirdiyi tədbirlərdə fəal iştirak edir.

**Sərdar Süleyman oğlu Abdullayev**, 1951-ci ildə Kəlbəcər rayonunda doğulub. İqtisad elmləri doktoru, professor, akademik, RF-nin əməkdar inşaatçısı, Rusiyanın fəxri inşaatçısıdır. 1968-ci ildə daxil olduğu Azərbaycan Politexnik institutunu bitirdikdən sonra Kalinin vilayətinin Belski şəhərində baş texnik, mühəndis-texnik, "Kalininmeliorasiya"nın müəssisələrində rəis vəzifəsində çalışıb. 1977-80-ci illərdə Belsk RPK-da tədqiqatçı, 1982-ci ildən "Kalininstroy" i/b-də, sonralar "Kalininselstroymexanizatsiya"da rəhbər vəzifələrdə işləyib. 1991-ci ildən "Kalininqrajdanstroy" i/b-nin rəisi kimi yüksək vəzifələrdə fəaliyyətini davam etdirib. 1993-cü ildə "Tverqrajdanstroy"un rəisi kimi çox məsuliyyətli və vacib vəzifəyə irəli çəkilib.

Böyük xidmətləri bir çox təltiflərə və RF-nin "Dostluq" ordeninə layiq görülüb. İxtisası üzrə bir çox məqalələrin müəllifidir. Azərbaycan cəmiyyətlərinin keçirdiyi tədbirlərdə fəal iştirak edir.

**Məhərrəm Abış oğlu Əliyev**, 1951-ci ildə anadan olub. Polis general-leytenantıdır.1985-ci ildə Moskvada Ümumittifaq hüquq institutunu bitirib. 1973-cü ildən DİO-da xidmət edir. 1978-82-ci illərdə Rusiya paytaxtının ayrı-ayrı milis bölməsində cinayət axtarışı müvəkkili vəzifəsində çalışıb, təcrübəli əməliyyatçı, bacarıqlı zabit kimi hörmət qazanıb. 1982-92-ci illərdə Bakıda müxtəlif polis şöbələrində CA üzrə əməliyyat və baş əməliyyat müvəkkili, CAB-nın rəis müavini, rəisi vəzifələrində xidmətini davam etdirib. Sonralar 36-cı və 37-ci bölmələrin rəis müavini, Səbail rayon polis idarəsinin rəisi olub. 1994-cü ildən Bakı şəhər Baş Polis İdarəsinin rəisi kimi məsuliyyətli və şərəfli vəzifəyə irəli çəkilib. Rəhbərliyin, vətəndaşların və tabeçiliyində olan əməkdaşların hörmət və rəğbətinj qazanıb.

**Asif Tarıverdi oğlu Əmirov**, 1951-ci ildə Qafanda anadan olub. Filologiya elmləri namizədidir. Azərbaycan Xarici Dillər institutunun ingilis dili fakültəsini bitirib (1974). Tərcüməçi olub, institutda müəllimlik edib. Azərbaycan Xarici Dillər institutunda aspiranturada təhsilini artırıb, Moskvada Moris Torez ad. xarici dillər institutunda aspiranturanı başa vurub(1980), namizədlik dissertasiyasını müdafiə edib. 1981-ci ildən Rusiya paytaxtında müxtəlif ali məktəblərdə ingilis dilini tədris edir. 1990-cı ildə MDU-nun hüquq fakültəsinə daxil olub, sonra iki il orada aspiranturada oxuyub. ABŞ, İngiltərə, İtaliya və b.ölkələrdə elmi məruzələr oxuyub. RF-dən BMT-nin beynəlxalq hüquq üzrə komissiyasının üzvüdür. 10-dan artıq elmi işin müəllifidir. Moskva "Azərbaycan" cəmiyyəti sədrinin müavinidir.





**Sabir Qaçay oğlu Həbibov**, 1951-ci ildə Kəlbəcərdə anadan olub. Tibb elmləri doktoru, Beynəlxalq elmlər akademiyasının professoru, Ümumdünya cərrahları 18-ci konqresinin nümayəndəsi (Honkonq ş.), Rusiya endocərrahlar assosiasiyasının və endoskopik cərrahlar cəmiyyətinin üzvüdür. 1973-cü ildə ATİ-ni bitirib, internaturada oxuyub, ona cərrah ixtisası verilib. 1978-ci ildən SSRİ TEA-nın Ümumittifaq onkoloji mərkəzində aspiranturada təhsilini artırıb. 1980-ci ildə namizədlik dissertasiyasını müdafiə edib. 1981-ci ildən bu günə kimi Moskva şəhər 79 saylı xəstəxanada endoskopik cərrahiyyə şöbəsinin müdiridir. 2000-ci ildə doktorluq dissertasiyasını müdafiə edib. 20-dən artıq elmi işin müəllifidir.

**Rəfail Məhəmməd oğlu Mirzəyev**, 1952-ci ildə Qəbələ rayonunun Vəndam kəndində anadan olub. 1977-ci ildə ATİ-ni bitirib. Bir il terapiya üzrə internaturanı keçib. 1981-ci ilə kimi şəhər təcili yardım stansiyasında həkim işləyib. 1981-ci ildən Moskvada yaşayır, 1988-ci ilədək MSÇ-də terapevt həkmi kimi fəaliyyətini davam etdirib. İki il Həkimləri Təkmilləşmə İnstitutunda refleksoterapiya kurslarında təhsilini artırıb. 2000-ci ildə MDU-nun hüquq fakültəsini başa vurub. 1993-cü ildən iş adamı kimi fəaliyyətdədir. Müdafiə fonduna, müharibədə yaralananlara, tələbələrə maddi yardım edib.

**Nəsib Nəbioğlu** (Nəsib Nəbi oğlu Verdiyev), 1954-cü ildə Kəlbəcər rayonunda anadan olub. İstedadlı, vətənpərvər, oxucular tərəfindən böyük rəğbətlə qarşılanan şair həmyerlimiz Rusiya və Moskva Yazıçılar İttifaqlarının üzvüdür. Baykonurda hərbi xidmət keçib. 1980-ci ildə Azərbaycan Pedaqoji institutunu bitirib. Həmin ildə Moskvada SSRİ Yazıçılar İttifaqı yanında A. M. Qorki ad. Ədəbiyyat institutuna daxil olub. Beş ildən sonra oranı uğurla başa vurub.

Vətənə bağlı şair "Bomba düşməyən kənd" şerində deyir:

*Bu kəndə düşməyən odlu bombalar,*
*Analar, bacılar qəlbinə düşdü.*

Və ya:

*Atalar, əmilər şəkilə döndü,*
*Asıldı evlərin divarlarından.*

Və ya:

*O bomba düşməyən kəndlərin hələ,*
*Neçəsi beləcə alışıb yanır.*

(N. Nəbioğlu, "Sizə sözüm var" (şerlər və poemalar). Bakı – 1998, səh. 3).

Nəsib müəllimin yaradıcılığı ilə bağlı çoxlu yazılar çap olunub. Azərbaycan və Rusiyanın görkəmli yazıçıları, şairləri – Sergey Mixalkov, Aleksandr Baskakov, İqor Peçenyev, Nikolay Qoroxov, Viktor Velski, Valentin Suxovski, Xalıq Koroğlu, Məmməd Araz, Çingiz Hüseynov, Qasım Qasımzadə, Nəriman Həsənzadə, Ağa Laçınlı və başqaları onun yaradıcılığına yüksək qiymət vermişlər.

Nəsib Nəbioğlunun "Ürəyim yurd yeridir", "Dua edən bulaq" (rus dilində) adlı kitabları, qəzet, jurnal və almanaxlarda çoxlu miqdarda şerləri, məqalələri çap olunub. "Sizə sözüm var" kitabında vətənə məhəbbət, el-oba sevgisi, işğalçılara böyük nifrət hissi açıq görünür. Kitabda təəssübkeşlik, azərbaycançılıq kimi gözəl xüsusiyyətlər öz əksini tapmışdır. Şair soydaşımız Moskvada Azərbaycan cəmiyyətlərinin keçirdiyi tədbirlərdə, cəmiyyətlərin işində fəal iştirak edir.

**Tahir Soltan oğlu Hacıyev**, 1955-ci ildə Göyçay rayonunun İnçə kəndində anadan olub. Bakıda fizika-





riyaziyyat təmayüllü xüsusi məktəbi bitirib. Ali məktəbə bir neçə dəfə qəbul imtahanları versə də konkursdan keçməyib. Kənd təsərrüfatı institutuna təklif ediblər, razılaşmayıb. Komsomolçu kimi partiyanın, Sovet hökumətinin çağırışına səs verib, 1976-cı ildə Moskvaya, Olimpiya kompleksinin tikintisinə yola düşüb. Orada zərbəçi əməyinə, zəhmətkeşliyinə görə böyük hörmət sahibi olub. İstehsalatdan ayrılmadan V. V. Talalixin ad.Yeyinti sənayesi texnikumunu bitirib. Hazırda Moskva Dövlət sosial minisipal və dövlət idarəçiliyi institutunda təhsilini artırır. 1995-ci ildən sahibkarlıqla məşğuldur. Müntəzəm olaraq doğma Azərbaycanla əlaqə saxlayır, ehtiyacı olanlara, tələbələrə, aztəminatlılara, əlillərə, yüzlərlə əlacsız qalan həmvətənlərimizə maddi yardım edir. Moskva-Azərbaycan mədəni-ictimai cəmiyyətlərinin keçirdiyi tədbirlərdə fəal iştirak edir.

**Nəbi Qəşəm oğlu Bayramov**, 1955-ci ildə Tərtər rayonunun Seydimli kəndində anadan olub. Tümen vilayətinin Noyabrsk şəhərində baş sahə müvəkkili, milis mayorudur. Alın təri ilə zəhmət çəkib qazandığı hörmətin müqabilində şəhər rəhbərliyi yanında sözü keçir. Vətəndaşlar, iş yoldaşları ona böyük hörmət və rəğbət bəsləyirlər. 1982-ci ildə Azərbaycan Neft və kimya institutunu bitirdikdən sonra qısa müddət Bakıda işləmiş, sonra Tümen vilayətinə getmiş, növbə rəisi, mühəndis vəzifələrində çalışdıqdan sonra Noyabrsk ŞDİŞ-də milis nəfəri kimi xidmətə qəbul olunmuşdur. Yeddi il ləyaqətlə, vicdanla, nizam-intizamla, bacarıqla asayişin keşiyində durmuş, 1992-ci ildə sahə müvəkkili vəzifəsinə irəli çəkilmişdir. Böyük xidmətləri nəzərə alınaraq ona 1998-ci ildə vaxtından əvvəl milis mayoru rütbəsi verilib. Tümendə çıxan qəzetlərdə, kitablarda onun həyat və fəaliyyətinə dair çoxlu oçerklər, məqalələr çap olunub. O, çoxsaylı mükafatlara, təltiflərə layiq görülüb.

Nüfuzundan istifadə edib haqsızlığa məruz qalmış neçə-neçə soydaşlarımıza dayaq olub. Onun oğlu Faiq Tümen hüquq institutunu bitirib, milis zabitidir, atası ilə çiyin-çiyinə sahə müvəkkili kimi cinayətkarlığa qarşı mübarizə aparır.

**İsgəndər (Aleksandr) Həbib oğlu Həbibov**, 1955-ci ildə Moskvada anadan olub. Kimya elmlər doktoru, professor, elm və texnika sahəsində Lenin komsomolu mükafatı laureatıdır. Professor H. A. Həbibovun oğludur. MDU-nu bitirib. SSRİ EA-nın müxbir üzvü, professor İ. V. Berezinin rəhbərliyi altında kimya enzimologiyası ixtisaslaşmış kafedrasında təhsilini davam etdirib. Həmin EA-nın laboratoriyasında çalışıb. 1982-ci ildə namizədlik, 1992-ci ildə doktorluq dissertasiyasını müdafiə edib, 1997-ci ildən professordur. Görkəmli alimlərin, o cümlədən SSRİ TEA-nın həqiqi üzvü, ABŞ EA-nın akademiki A. Y. Braunşteynin rəhbərliyi altında təcrübə keçib, püxtələşib. 1993-cü ildən laboratoriya müdiridir.

**Rəfail Gülməmməd oğlu Babayev**, 1956-cı ildə Göyçay şəhərində anadan olub. Milis polkovniki, RF DİN-nin Moskvadakı ali məktəblərindən birində baş elmi işçidir. Sərbəst güləş üzrə SSRİ idman ustasıdır. 1974-cü ildə Bakıda idman təmayüllü orta məktəbi bitirib. Hərbi xidməti başa vurub, doğma rayonunda məşqçi işləyib. 1977-ci ildə Moskvaya gəlib. DİO-ya daxil olub. "Dinamo" cəmiyyətində idmanı da davam etdirib. 1979-cu ildə Moskva vilayət Pedaqoji institutunun bədən tərbiyəsi fakultəsinə daxil olub. 1983-cü ildən azyaşlılar üzrə inspektor, CA əməliyyat müvəkkili, baş əməliyyat müvəkkili, 1991-ci ildə 160-cı milis bölməsinin əməliyyat üzrə rəis müavini vəzifəsində çalışıb. Bir ildən sonra paytaxtın Cənub dairəsində CA şöbəsinin rəisi vəzifəsinə irəli çəkilir. Xidmətdən ayrılmadan daha bir ali təhsil alır – RF DİN-nin Hüquq institutunu başa vurur, daha sonra adyunkturanı müvəffəqiyyətlə qurtarır. Hazırda Rusiya DİN-nin Elmi tədqiqat institutunda elmi işçidir və namizədlik mövzusunu başa vurur. Rəfail müəllim eyni zamanda xeyirxah insandır. Neçə-neçə çıxılmaz vəziyyətə düşmüş (xəstələnən, işsiz qalan, heçnəsiz qalan) soydaşlarımıza kömək əlini uzatmışdır.





**Köçəri Baxış oğlu Həsənov**, 1957-ci ildə Xanlar rayonunda anadan olub. Sankt-Peterburq şəhərində OOO "Biznes-Link" və AOZT "Xoldinq-Ekskluziv" firmalarının baş direktoru, "Sozdatel Peterburqa" ("Peterburqun Qurucusu") ordeni laureatıdır. O, ordu sıralarında xidmət edib, 1984-cü ildə Leninqradda V.İ.Ulyanov-Lenin adına Elektrotexnika institutunu bitirib. Köçəri müəllim elmə yüksək qiymət verir. Təhsilini Moskvada G. Plexanov ad. Xalq təsərrüfatı institutunda davam etdirib. 1992-ci ildə oranı, 2002-ci ildə isə RF Dövlət xidməti akademiyasını müvəffəqiyyətlə başa vurub.

K. B. Həsənov mərifəti, idarəçiliyi bacarmağı və tabeçiliyində olanlara qarşı tələbkarlığı ilə böyük hörmət qazanıb. Xeyirxahlığı onu daim ucaldır. Müharibə əlillərinə, Müdafiə fondumuza, aztəminatlılara, kitab nəşrinə daim maddi yardım edir. Neçə-neçə əlacsız qalmış soydaşımızın işə düzəlməsində onun böyük əməyi var.

**Əyyar Hüseyn oğlu Süleymanov**, 1959-cu ildə İmişli rayonunun Muradlı kəndində anadan olub. Rusiya Federasiyası Əməkdar neft və qaz sənayesi işçisidir. 1982-ci ildə Azərbaycan Neft və kimya institutunu bitirib. "Zapolyarneft" NQÇİ-də əmək fəaliyyətinə başlayıb. Buruq ustası, mühəndis, baş mühəndis, neft-qaz çıxarma üzrə sex rəisi vəzifələrində çalışıb. 1985-ci ildən mühəndis-texnika xidmətinin rəisi, 1997-2000-ci illərdə baş mühəndis olub. 2000-ci ildən

"Sibneft"-"Noyabrsknefteqaz" aksioner cəmiyyətinin müəssisələrindən birinin rəis müavini, 2001-ci ildən rəisidir. Zəhmətkeşliyinə, nizam-intizamına, idarəçiliyi düzgün apardığına görə dəfələrlə müxtəlif mükafatlara layiq görülüb. Həmyerlilərimizin işlə təmin olunmasında, haqsızlıqlardan müdafiə edilməsində, ehtiyacı olanlara, kimsəsizlərə maddi yardım ayrılmasında Əyyar müəllimin xidmətləri var.

**Söyün Qasım oğlu Sadıqov,** 1960-cı ildə Gürcüstanın Qarayazı kəndində anadan olub. 1990-cı ildə Moskva Dövlət idarəçilik institutunu bitirib. İqtisad elmləri namizədi, biznesmen, SSRİ idman ustasıdır. Sambo üzrə 1978-ci ildə SSRİ çempionu,1979 və 1980-ci illərdə Avropa prizçisi olub. 1980-1981-ci illərdə DTK orqanlarında xidmət edib. 1981-2000-ci illərdə o, sahə ustası, iş icraçısı, tikinti idarəsinin rəisi, tikinti trestinin müdiri işləyib. "Mosrekonstruksiya" tikinti kompaniyasının baş direktorudur. Eyni zamanda 1994-cü ildən Moskva mənzil-tikinti bankının ("Mosjilstroybank") prezidentidir. Bir çox elmi işlərin və "Ekonomika stroitelstva v rınoçnıy period" monoqrafiyasının müəllifidir. "Moskvanın fəxri arxitektoru" fəxri adına layiq görülüb. "Rusiya azərbaycanlıları" ("Azerros") Federal milli-mədəni muxtariyyətinin prezidenti, "Azərros" qəzetinin təsisçisidir. Onun rəhbərliyi və təşkilatçılığı ilə Moskvada milli-mədəni muxtariyyətın müxtəlif yubiley, ictimai və başqa tədbirləri keçirilir.

**Şahin Mutvalı oğlu Şıxlinski**, 1966-cı ildə Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olub. Görkəmli Şıxlinskilər nəslinin ləyaqətli davamçısıdır. Adlı-sanlı xeyriyyəçi, biznesmendir. Rusiyanın Sverdlovsk (indi Yekaterinburq) şəhəri ilə 1986-cı ildən taleyini bağlayıb. Şəhər təmir-tikinti idarəsində fəhləlikdən başlayıb. Fəal, savadlı və nizam-intizamlı işçi olduğuna görə bir ildən sonra, 1987-ci ildə komsomol komitəsinin katibi, 1990-cı ildə isə həmkarlar təşkilatının sədri seçilmişdir. 1990-1995-ci illərdə Ural dövlət hüquq akademiyasının məhkəmə-prokurorluq fakültəsində təhsil alıb. 1992-ci ildə Yekaterinburq şəhər Kirov rayon prokurorluğunda müstəntiq işləyib. 1993-1998-ci illərdə "Prestij-Servis" şirkətinə rəhbərlik edib. "Kontinental" şirkətlər qrupunun prezidentidir. Prezidenti olduğu "Prestij" futbol komandası 1999-cu ildə Sverdlovsk vilayət çempionatında fəxri ikinci yer tutub. Yekaterinburqda Azərbaycan milli-mədəni cəmiyyətinin Koordinasiya Şurasının üzvüdür. 2000-ci ilin iyun ayında Moskvada təsis olunmuş Ümumrusiya Azərbaycanlıları Konqresinin Rəyasət Heyətinin üzvü, 2001-ci ildə Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının birinci qurultayının nümayəndəsi seçilib. Şahin müəllim hər hansı çətinliyə düşmüş soydaşlarımıza, müharibə əlillərinə, aztəminatlılara, müəlliflərə həmişə maddi yardım edir.

**Azad Ramazan oğlu Seyidov**, 1966-cı ildə Quba rayonunun Kürkün kəndində anadan olub. 15 yaşında Kazan şəhərinə gəlib, zəhmətə qatlaşıb, yararlı əməklə məşğul olmağa başlayıb. Axşamlar oxuyub orta təhsil haqqında sənəd alıb. 1996-cı ildə Başqırdıstan Dövlət universitetinə daxil olur, iqtisad fakültəsini bitirir. Azad müəllim bu gün də təhsilini davam etdirir. Tümen Dövlət Universitetinin hüquq fakültəsində oxuyur. Surquta 1994-cü ildə gəlib. 1996-cı ildən "Todar" kommersiya şirkətinin direktorudur. 1999-cu ildən "SAN və K" firmasının direktorudur. 2002-ci ilin iyul ayından Rusiya Dövlət Dumasının deputatı Barlıbayev Xamil Əbubəkiroviçin köməkçisidir. 2002-ci ilin yanvar ayından Surqutda "Birlik" Azərbaycan milli-mədəni mərkəzinin sədridir. Onun təsisçiliyi və təşkilatçılığı ilə 2002-ci il iyul ayının 31-də "Birlik" qəzetinin ilk nömrəsi oxucuların mühakiməsinə verildi. Az sonra burda

Azərbaycan məktəbi açıldı. Bütün milli bayramların Surqutda keçirilməsi adi hala çevrildi. Azad müəllim başladı bir-bir Tümen şəhərlərini gəzib azərbaycanlıların güzəranı, cəmiyyətlərin işinin gedişi ilə maraqlanmağa. "Surqutskaya tribuna" (21.01.2003) qəzetində bu günə kimi Fərman Salmanovun şərəfinə muzey açılmamasına həsr olunmuş məqalənin təşəbbüskarı da Azad Seyidovdur (Məqalənin müəllifi Aleksandr Konyevdir). Moskvada keçirilən Azərbaycan tədbirlərində fəal iştirak edən Azad müəllim kasıb-kusuba, əlillərə, aztəminatlılara, müəlliflərə həmişə maddi yardım edir.





## SSRİ QAZ SƏNAYESİ NAZİRİ

Əziz oxucu, mən bu başlığı təsadüfi seçməmişəm. 1980-ci ilin sentyabr günlərində Sverdlovsk (indi Yekaterinburq) şəhərində ezamiyyətdə idim. Fürsətdən istifadə edib abunə kitab mağazasına baş çəkdim. Nüfuzlu kitabların sonuncu cildləri var idi. Onları aldım. Təyyarədə uçarkən sonuncu, 30-cu cildi vərəqləyib baxırdım, "Əlavələr" adlı bölmədə "görəsən həmyerlilərimizdən kim var?" deyə düşündüm.Oxuyuram: "Orucov Sabit Atayeviç... 1972-ci ildən SSRİ Qaz Sənayesi naziri..." (BSE, üçüncü nəşr, 30-cu cild. Moskva – 1978, səh. 603). Qürur hissi keçirdim, həmişəlik onun təbliğatçısı oldum.

Təəssüflə, kədərlə bildirirəm ki, iyirmi iki il öncə Sabit müəllim əbədiyyətə qovuşmuşdur. Onun qəbri çox uzaqda – Moskva şəhərində, "Novodeviçye" fəxri xiyabanındadır. Hər dəfə səfərə gedəndə nurlu məzarını ziyarət etmiş, qəbirüstü abidəsinin şəklini çəkib "Səfərnamə-Puteşestviye" kitabımda oxuculara təqdim etmişəm. İlk növbədə isə onun qəbri üzərinə Azərbaycan torpağı səpmişəm.

Sağ olsaydı, mayın 31-də Sabit müəllimin 91 yaşı tamam olacaqdı.

"Kredo" qəzetinin baş redaktoru, dostum-qardaşım, şair-publisist Əli Rza Xələfliyə, qəzetin kollektivinə öz səhifələrində yer verdiklərinə görə dərin minnətdarlığımı bildirirəm. Oxucuları böyük insanın qısa həyat yolu və onun xatirəsinə həsr olunmuş, 2002-ci ildə Rusiya paytaxtında yüksək poliqrafiya üsulu ilə tərtib

edilmiş, çoxsaylı şəkillərlə təchiz olunmuş "Sabit Orucov" kitabı ilə tanış edirəm.

Onun atası Atababa kişi 1871-ci ildə Novxanı kəndində doğulub. Sadə peşə adamı olub. 102 il ömür sürüb. Anası Məsmə xanım xeyirxah insan kimi tanınıb, cavan ikən-39 yaşında dünyasını dəyişib.

Sabit Orucov 31 may 1912-ci ildə Bakıda doğulub. On altı yaşında orta məktəbi, 1936-cı ildə Azərbaycan SSR Sənaye İnstitutunu (sonralar M. Əzizbəyov adına Az. NKİ, indi Azərbaycan DNA) bitirib. Neft mədənlərində mühəndislik edib, rəhbər vəzifələrdə çalışıb.

Fərasəti, bacarığı və gərgin əməyi sayəsində nüfuz sahibi olmuş həmyerlimiz sonralar yüksək zirvələrə yüksəlmiş, uzun illər boyu onun səsi Kremlin Qurultaylar Sarayından gəlmişdir. Belə də olmalıydı. Ona cavan vaxtlarından böyük etimad göstərilmişdir. Hələ otuz yeddi yaşında Sovetlər İttifaqı kimi qüdrətli dövlətin Neft sənayesi nazirinin müavini vəzifəsinə irəli çəkilir. Sonrakı illərdə Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri və Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, SSRİ Nazirlər Soveti nəzdində Azərbaycan SSR Nazirlər Sovetinin daimi nümayəndəsi, SSRİ Kimya, Neft və Yanacaq Sənayesi Dövlət Komitəsinin sədr müavini, SSRİ Dövlət Plan Komitəsi nəzdində Dövlət Neftçıxarma Sənayesi Komitəsi sədrinin 1-ci müavini və SSRİ Neftçıxarma və neft sənayesi nazirinin 1-ci müavini vəzifələrində çalışaraq zəngin təcrübə topladıqdan sonra SSRİ Qaz Sənayesi naziri kimi məsul, şərəfli və ağır vəzifəyə təyin olunur. O, Leonid Brejnev, Aleksey Kosıgin, Yuri Batalin, Süleyman Vəzirov, Nikolay Baybakov və onlarca digər partiya və dövlət rəhbərləri ilə daim təmasda olmuş və qaz sənayesi kimi vacib sahəyə son nəfəsinədək rəhbərlik etmişdir. Sadə adamlara, əlləri qabarlı fəhləyə yaxın olan bu adam SSRİ Ali





Sovetinin bir neçə çağırış deputatı, Sov. İKP MK üzvlüyünə namizəd olmuşdur. Onun xüsusi xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilərək ona Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR əməkdar elm və texnika xadimi fəxri adları verilmişdir. Lenin mükafatı və SSRİ Dövlət mükafatı laureatı Sabit Orucov 4 Qırmızı Əmək Bayrağı ordeni, Oktyabr İnqilabı ordeninə layiq görülmüşdür. Bir an belə elmdən kənarda qala bilməyən bu alim texnika elmləri doktoru, professor, Azərbaycan SSR EA-nın müxbir üzvü kimi yüksək elmi dərəcələri alın təri ilə qazanmışdır.

S. A. Orucov çoxlu elmi əsərlərin müəllifidir. Hələ 1976-cı ildə onun "Qazovaya promışlennost po puti proqressa" adlı sanballı əsəri mütəxəssislərin, qaz sənayesi elm ocaqlarının mühakiməsinə verilmişdir.

Bütün vəzifələrdə çalışdığı zaman yerlərə getməyi, problemləri araşdırmağı, öyrənib lazımi qərar qəbul etməyi, mütəxəssisləri dinləyib onların fikirlərini nəzərə almağı xoşlayan Sabit Orucov yüz minlərlə soydaşımızın fəaliyyət göstərdiyi Tümen vilayətinin şəhərlərində, o cümlədən vaxtilə bu sətirlərin müəllifinin yaşadığı və işlədiyi Nijnevartovsk şəhərində də olmuşdur. Onun bu xidmətləri də diqqətdən kənarda qalmamış, Tümen Vilayətinin Urenqoy şəhərində küçələrdən birinə görkəmli dövlət xadiminin adı verilmişdir.




S. A. Orucov haqqında çoxlu xatirələr yazılmışdır. Elə 2002-ci ildə onun 90 illik yubileyinə həsr olunmuş, arxiv materialları əsasında işlənmiş "Sabit Orucov" kitabında neft və qaz sənayesi veteranlarının, dostlarının,

əzizlərinin və yaxınlarının-da çoxsaylı xatirələri verilmişdir.

"Qazprom" ASC-nin İdarə Heyətinin sədri A. B. Miller qeyd edir ki, "Sabit Orucovun adı ilə vətənin neft-qaz kompleksinin inkişafı tarixinin ən parlaq səhifələri bağlıdır" (səh. 3).

"Mənim taleyimə böyük xoşbəxtlik qismət olmuşdur. Sahənin çoxsaylı başqa işçiləri ilə yanaşı, mən də o illərdə Sabit Atayeviçin rəhbərliyi altında işləmişəm. Bura xüsusi biliklər almaq üçün məktəb idi. İşə dövlətcəsinə yanaşmağı, ən ağır islahat problemlərinin praktiki həlli üçün böyük təcrübə toplamağı öyrənirdik...". "Əfsanəvi nazir haqqında söz" başlıqlı xatirələr vaxtilə S. Orucovun birinci müavini olmuş Qrant Cavanşiroviç Morqulova məxsusdur. Xatirələrin sonunda deyilir: "Sabit Atayeviç Orucov Azərbaycan xalqının əfsanəvi övladıdır. O, Rusiyanın neftini və qazını məşhurlaşdırmışdır. Bu sahədə onun şəxsi rəşadətini, igidliyini qiymətləndirmək çətindir, onun xidmətləri misilsizdir..." (səh.8).

Kitabda S.Orucovun müxtəlif illərdə İ.Stalin, N.Xruşşov, L. Kaqanoviç, G. Malenkov, M. C. Bağırov... kimi ziddiyyətli partiya və dövlət xadimləri ilə görüşləri, onlara münasibəti də əks olunmuşdur.

Topluda ən alovlu xatirələr bu gün ömrünün 92-ci baharını yaşayan, "Azərbaycan", "Bakı" sözləri dilindən düşməyən həmyerlimiz, S. Orucovun ürək dostu Nikolay Baybakova məxsusdur (səh. 11-23).

1916-cı ildə Bakıda doğulmuş, S. Orucovla uzun illər çiyin-çiyinə işləmiş, 1988-ci ildən təqaüddə olan Paşa Astraturoviç Aruşanov nazir eloğlumuzu dahi insan adlandırır (səh. 221).

Hazırda "LUKOYL"da məsul vəzifədə çalışan 74 yaşlı Aleksandr Andronikoviç Cavadyan onu belə xatırlayır: "Qaz sahəsinin istedadlı təşkilatçısı, bacarıqlı rəhbəri





Sabit Atayeviç zirək, son dərəcə ağıllı, kinsiz (acığı tez soyuyan), səxavətli insan idi. O, adamların ehtiyacı ilə maraqlanmağa da vaxt tapır, onların kədərini və sevincini ürəyinə yaxın qəbul edirdi" (səh. 250).

Valentin Runovun və Aleksandr Sedıxın müəllifləri olduğu bu kitabı vərəqlədikcə siz orada çox maraqlı faktlar tapacaqsınız.

***"Kredo" qəzeti, 07.06.2003.***

## SSRİ (RAN) EA-NIN MÜXBİR ÜZVÜ

Onun haqqında hələ iyirmi üç il öncə bunları oxumuşdum: "Sovet tarixçi-şərqşünası, tarix elmləri doktoru (1969), professor (1970), SSRİ EA-nın müxbir üzvü (1979). RSFSR əməkdar elm xadimi..." (ASE, IV cild, Bakı-1980, səh. 543).

19 noyabr 1998-ci ildə səfərim zamanı Moskvada Əhməd müəllimin 1987-ci ildən baş redaktoru olduğu "Voprosı istorii" jurnalının redaksiyasına telefon elədim. Qəbul otağından cavab verən Rita Aleksandrovna ilə danışdıq. Təyin olunmuş vaxt artıq redaksiyadaydım. Bir qədər gözlədim. Əhməd Əhməd oğlu Akademiyanın iclasından qayıtdı.

O, hələ iclasdaykən redaksiyanın məsul işçilərindən biri-İvan Vasilyeviç Sozinlə söhbətləşdik. İvan müəllim Əhməd İsgəndərovu xarakterizə edərək dedi: "Rəhbər kimi tutduğu vəzifənin öhdəsindən layiqincə gəlir, prinsipialdır, ən qəliz, son dərəcə gərgin məsələlərin həllinə belə cəsarətlə sərəncam verir. 1997-ci ildə onun 70 illik yubileyi münasibəti ilə Prezident Heydər Əliyev təbrik məktubu göndərmişdir"...

Ə. Ə. İsgəndərovla görüşdük, söhbətimiz qısa oldu. Kitab yazmaq məqsədilə gəldiyimi açıqladım. O özü haqqında qısa tərcümeyi-hal materialı təqdim etdi.

"Voprosı istorii"nin 1998-ci il 3-12 saylarında 1952-1956-cı illərdə "Pravda" qəzetinin baş redaktoru, eyni zamanda 1955-1956-cı illərdə və 1957-ci ildə Sov. İKP MK-nın katibi, 1956-1957-ci illərdə Sovet İttifaqının Xarici İşlər Naziri işləmiş Dmitri Trofimoviç Şepilovun





(1905-1995) xatirələri çap edilib. O illərdə Xruşşovun "antipartiya qrupuna qoşulmuş olan Şepilov" adlandırdığı adamın xatirələri olan jurnallar mənə hədiyyə edildi. Əhməd müəllim 3-cü sayda xatirələrlə bağlı iki səhifəlik söz deyir, demək olar xatirələri təqdim edir.

Əhməd müəllimlə 1999-cu ildə görüşüb "Ot Baku do Moskvı" kitabımı təqdim etmişdim. 2002-ci ilin soyuq dekabr günlərində, iş kabinetində ona "Moskva: oni rodom iz Azerbaydjana" kitabını hədiyyə elədim. Əhməd Əhməd oğlu 2001-ci ildə Moskvada işıq üzü görmüş 656 səhifəlik supercildli "Zakat imperii" adlı müəllifi olduğu kitabını "Ramin Məmmədova ən xoş arzularımla" sözlərini yazaraq mənə bağışladı. "Oxuyacaqsınızmı? – deyə soruşaraq gülümsədi. Bildirdim ki, təkcə oxumaqla kifayətlənmərəm, həm də təbliğ edəcəyəm.




Üz qabığının 4-cü səhifəsində verilmiş şəkilaltı sözdə deyilir: "Əhməd Əhmədoviç İsgəndərov-tarixçi-şərqşünas, Rusiya EA-nın müxbir üzvü, "Voprosı istorii" jurnalının baş redaktoru, Yaponiyanın tarixi və mədəniyyəti, Rusiya tarixi, Şərq ölkələrində milli-azadlıq hərəkatı, metodologiya, tarix, tarixşünaslıq üzrə əsərlərin müəllifidir".

Kitabı oxuduqca, yüzlərlə maraqlı faktların ustalıqla araşdırıldığını gördükcə qürur hissi keçirir, sevinirəm ki, doğma millətimizin övladı belə yüksək zirvələri fəth edib, nəhəng bir imperiyanın tarixi ilə bağlı nüfuzlu kitab yazıb. Əhməd müəllim vaxtının böyük hissəsini müxtəlif tarixi sənədlərin, materialların sistemləşdirilməsinə, öyrənilməsinə həsr etdiyini, eyni zamanda

mövzu üzrə geniş elmi-publisistik və memuar ədəbiyyatını öyrəndiyini açıqladı.

Kitabın annotasiyasında qeyd edilir ki, "Çoxlu sənədlər bazası, qərəzsiz yanaşma, parlaq və gözəl bədii ifadələrin nəql olunması kitabı təkcə mütəxəssislər üçün yox, geniş oxucu kütləsi üçün də maraqlı edir".

Topluda 450-dən artıq adam adı çəkilir. Kitabda Romanovlar sülaləsinin çarlıq dövrünün axırıncı illəri geniş nağıl edilir. Rusiya imperiyasının iflasının səbəbləri təhlil olunur və oxucuya konkret epizodlarla izah edilir. Dövlət Duması və Ali hakimiyyət, Birinci dünya müharibəsi, Fevral inqilabının tarixi əhəmiyyəti, II Nikolayın hakimiyyətdən üz döndərməsinin səbəbləri, bu hadisənin nəticələri, ali ordu komandanlığının hərəkət tərzi və çoxlu başqa məsələlər tədqiqatın əsas məzmununu təşkil edir.

Toplunun sonunda təqdim edilmiş imperator II Nikolayın nəsil şəcərəsi, ad göstəricisi, bölmələrin, başlıqların mündəricatı, çoxsaylı şəkillər oxucunun köməyinə gəlir.

Əhməd müəllimin bu kitabı böyük tarixi abidədir.

***"Dünyaya pəncərə" qəzeti, 07-14.06.2003.***





# II BÖLMƏ

## RUSİYADA AZƏRBAYCAN İCTİMAİ TƏŞKİLATLARININ MƏTBUAT ORQANLARI VƏ BAŞQA NƏŞRLƏR

Son illər MDB ölkələrində Azərbaycan diasporu geniş fəaliyyət göstərir. Diasporun apardığı işin təbliğ olunması üçün özünün mətbu orqanı olmalıdır. Sözü geniş kütlələrə ancaq qəzet, jurnal və mətbuatın başqa növləri vasitəsilə çatdırmaq olar. Əlbəttə, bizim soydaşlarımız bu həqiqəti yaxşı bilirlər. Elə ona görə də Azərbaycan həqiqətlərini qürbətdə ictimaiyyətə çatdırmaq üçün onları birləşdirən ictimai cəmiyyətlərlə yanaşı öz mətbu orqanlarına malikdirlər. Onlar qəzet və jurnallardan yeri gəldikcə səmərəli istifadə edirlər.

Artıq oxuculara məlum olduğu kimi, Azərbaycan övladları – alimlər, generallar, milis işçiləri, hərbçilər, sadə adamlar, ziyalılar, həlak olmuş milis işçiləri haqqında məlumat toplamaq və Qarabağ həqiqətlərini yaymaq məqsədilə Rusiya şəhərlərini qarış-qarış gəzməli oluram. Eyni zamanda soydaşlarımızın yaratdığı və rəhbərlik etdiyi cəmiyyətlərin nəşr etdirdiyi qəzet və jurnallarını toplayıram. Həmin qəzet və jurnallar Azər-

baycan və rus dillərində ən müxtəlif yazılar dərc edirlər. Haqqında söhbət gedən qəzetlərin hamısının satışı sərbəstdir. Ümumiyyətlə, hazırda Rusiyanın heç bir qəzetinin satış qiyməti göstərilməyib. Mən buna gəzdiyim vilayətlərdə nəzər yetirmişəm. O cümlədən qonşu ölkənin Azərbaycan qəzetləri bu qaydaya sadiqdirlər. Bizim cəmiyyətlər qəzet satışı ilə məşğul olmurlar. Onlar qəzetləri kitabxanalara, redaksiyalara, digər millətlərin ictimai təşkilatlarına və oxuculara yayırlar.

Sözsüz ki, mənim əldə etdiyim nəşrlər Rusiyada çıxan Azərbaycan qəzet və jurnallarının tam siyahısı deyil. Mən bu istiqamətdə axtarışlarımı davam etdirirəm. Ümidvaram ki, hələ çoxlu milli qəzet və jurnallarımızı aşkar edib oxuculara təqdim edəcəyəm.

**"Konqres azerbaydjantsev"** – Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) təsis etdiyi bu qəzetin ilk sayı 2002-ci ilin iyun ayında işıq üzü görmüşdür. Bu, ictimai-siyasi və mədəni-tarixi nəşrdir. Ünvanı Moskvadır. Tirajı göstərilməyib. Qəzet ÜAK-ın birinci ildönümü ərəfəsində çıxmışdır. Yüksək poliqrafik zövqlə tərtib edilmiş bu nömrənin birinci səhifəsi Səməd Vurğunun "Azərbaycan" şeri ilə açılır. Sonuncu səhifə bütövlüklə dahi şairimiz M.Ə.Sabirə həsr olunmuşdur. Rubrikanı akademik Əfrand Daşdəmirov, yazıçı Çingiz Hüseynov, Alla Axundova kimi görkəmli elm və ədəbiyyat nümayəndələri aparırlar. Sonda Moskvada Azərbaycan məktəbinin direktoru Aidə Quliyeva öz qeydlərini belə adlandırıb. " "Sabir dərsləri Azərbaycan komponentli məktəbdə". Qəzetdə RF EA-nın müxbir üzvü, "Voprosı istorii" jurnalının baş redaktoru Əhməd İsgəndərovun 2001-ci ildə işıq üzü görmüş "Zakat imperii" kitabı və sabiq SSRİ Qaz sənayesi naziri Sabit Orucovun həyat yoluna həsr olunmuş "Sabit Orucov" adlı kitab (Moskva-2002) xatirələr toplusu haqqında





məlumatlar verilmişdir. Səfir Ramiz Rizayevin yazısı "Tarixi dialoq: Azərbaycan-Rusiya" adlanır. Şair-publisist Əliş Əvəz "Diaspor və İ slam dini" yazısı ilə çıxış edir. Azərbaycan dilində başqa yazılar da getmişdir. Bütöv bir səhifə "Bir ilin xronikası" rubrikası altında ÜAK iştirakçılarının fotoşəkillərinə həsr edilmişdir. Bu şəkillərdə oxucular Kərim Kərimov, Nikolay Baybakov, Maqsud İbrahimbəyov, Tahir Salahov, Alla Axundova, Hidayət Orucov, Fərman Salmanov, Aleksiy II, Ramiz Rizayev... kimi görkəmli şəxsiyyətləri görürlər. Qəzetin saylarında ən müxtəlif materiallara rast gəlmək mümkündür. İkinci nömrədə bir neçə səhifə prezident Heydər Əliyevin 80 illik yubileyinə həsr edilmişdir. Azərbaycan Demokratik Respublikasının 85 illiyi münasibətilə yazılar, ADR-in rəhbərlərinin həyatına dair materiallar çoxdur. Qəzetin növbəti saylarını vərəqlədikcə daha maraqlı materiallara rast gəlmək mümkündür. Qəzetin ümumi qayəsi Azərbaycançılıq və Vətənkeşlikdir.

**"Azerros"** – Moskvada fəaliyyət göstərən "Rusiya azərbaycanlılarının federal milli – mədəni muxtariyyəti"nin orqanıdır. Təsisçi ictimai təşkilatın özüdür. Tirajı 25000-dir. Baş redaktor Söyün Sadıqov, şef - redaktor Oleq Məmmədovdur. 2003-cü il iyulun 23-də Moskvada "Prezident-otel"də qəzetin üç yaşı qeyd edildi. Qəzetin ən yaxın dostlarından biri və əməkdaşı, professor Rafiq Osman oğlu Qurbanov mənə də dəvətnamə təqdim etmişdi. Mən yubiley tədbirlərində iştirak etdim. Yubiley nömrəsində (№ 7 (35), iyul 2003) ən müxtəlif, oxunaqlı materiallara rast gəlmək mümkündür. Qəzetin icmalçısı, tarix elmləri namizədi Rəcəb Məmmədovun ikinci səhifənin böyük hissəsini tutan qeydləri "2003-cü ilin soyuq yayı" adlanır. "Tozda caz" yazısında Emma Qusyeva İran filmində azərbaycan-

lının baş rol ifa etdiyini vurğulayır. Yaxud bir qədər əvvələ qayıdaq. "Azərros"un dekabr 2002-ci il 12 (28)-ci sayı-nın elə birinci səhifəsində RF Federal Sərhəd Xidmətinin direktoru Konstantin Totskinin şəkli və "Dostluq dənizi" adlı yazısı, Rusiya Jurnalistlər İttifaqının sədri Vsevolod Boqdanov da birinci səhifədə çıxış edir. Bir sözlə, qəzetdə ən məşhur və az tanınmış adamlarla tanış ola bilərsiniz. "Azərros"da Çingiz Hüseynov və Abdul Hüseynov kimi görkəmli yazıçıların daimi kolonkaları var ki, ən müxtəlif mövzularla müntəzəm oxucularla görüşə gəlirlər. Dörd səhifəlik əlavə bütövlüklə azərbaycanca çıxır və qəzetin tərkibində oxuculara təqdim olunur.

**"Vmeste"** – "Çoxmillətli Peterburq". Qəzetin şüarı belədir. Təsisçi Heydər İmanov, baş redaktor A. S. Koşuyevadır. Sankt-Peterburq şəhərindəki soydaşlarımızın qəzetidir. 3000 tirajla çıxır. Əlimdə tutduğum 2000-ci il mart sayında birinci səhifədə Peterburq sahibkarları Məzahir İmanovun və Sahib Şirinovun şəkilləri verilmişdir. Qeyd olunur ki, onların fikrincə, qəzet maraqlı, müxtəlif materiallı olmalı və ən geniş oxucu kütləsi üçün nəzərdə tutulmalıdır. Sonuncu səhifə "Sağlamlığımızı qoruyun", "Şərq yumoru" adlı məqalələrlə oxucu diqqətini daha da cəlb edir. "Puşkin və Quran", "Yaradıcılığın sirri", "Xeyirxahlıq keçmişdə, indi və gələcəkdə xeyirxahlıq olaraq qalır", "Gücümüz dostluqdadır" kimi materiallar qəzetin mövqeyini daha aydın göstərir.

**"Ulu torpaq"** – 2002-ci ilin iyul ayında on ikinci dəfə oxucularla görüşə gələn nömrə redaktor **Hacıyev Tofiq Əkbər** oğlunun "Əziz oxucu!" müraciəti ilə başlayır. Həmin səhifədəki başlıqları xatırlatsam oxucuya çox şey bəlli olacaq: "Sankt-Peterburqda Nizami Gəncəvinin heykəli açıldı", "Məşkur Qasımov: "Məqsədimiz





azərbaycanlıların hüquqlarının pozulmasına yol verməməkdir", "Moskvada Azərbaycan banklarının filialları artır", "Qaçqınlar Bərdədən çıxarılacaq: 1300 qaçqın ailəsi yeni qəsəbələrə köçürüləcək". Qəzetdə verilmiş "Namazın şərtləri" yazısının müəllifi Şeyx Baloğlan, Əşrəf Salmanlı, "Dil və biz" yazısının müəllifi Sevda xanımdır. Lətifələri, şerləri də öz səhifələrinə çıxaran qəzetin təsisçisi Kamandar Məmmədov, şüarı "Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan!", tirajı 999-dur.

**"Dostluq – Drujba"** – Nijni-Novqorod şəhərində fəaliyyət göstərən "Dostluq" Azərbaycan Mədəniyyət Mərkəzinin orqanıdır. Bismillahi rəhmani-rəhim (Rəhman və rəhim olan Allahın adı ilə)" şüarı ilə çıxan qəzetin təsisçisi AKTS —"Dostluq", redaktoru **Şahin İsmayılov**, tirajı 1000 nüsxədir. Qəzetin səhifələrində təbriklər, skanvordlar, atalar sözləri ilə yanaşı "İki ildən sonra günəş sönəcək", "Taxıl qıtlığı yarana bilər?", "Rüşvət qoparma hallarının sayına görə Azərbaycan birincidir" yazılarına, "Hacı Vidadinin 50 illik yubileyinə həsr olunur" (№ 16, 18 yanvar 2000) şerinə rast gəlmək olar.

**"Dostluq – Drujba"** adlı ictimai-siyasi qəzet Tümen şəhərində çıxır, 2000 tirajla. Təsisçi Tümen Vilayət ictimai "Dostluq-Drujba" təşkilatı, redaktoru Rövşən Şahtaxtinskidir. Qəzetin beşinci sayı ilə tanış oluram. Birinci səhifədə Bahar bayramını qeyd etdikləri təntənəli iclasdan fotoşəkil və "Novruz Bayram" yazısı oxuculara təqdim olunur. Yazıda milli adət-ənənələrimizdən geniş söhbət açılır. Qəzetin səhifələrində bir çox mövzulara aid məqalələr, şerlər, poemalar dərc edilib. Sahəsi böyük (1435,2 min kv. km) Tümen vilayətinin ayrı-ayrı şəhərlərində yaşayan soydaşlarımızla "Dostluq" cəmiy-

yətinin əlaqələri qəzetin səhifələrində öz əksini tapmışdır.

**"Azerbaydjan-XXI vek"** – Moskvada çıxır, baş redaktor Andrey İvanov, təsisçi "Frenk-fond" xeyriyyəçi təşkilatı, tirajı 10000 nüsxədir. Rusiyanın ictimai-siyasi qəzetidir. Qəzet öz səhifələrində ən müxtəlif problemlərə toxunur. Ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə, Qarabağ müharibəsinə, Azərbaycan generallarına, görkəmli şəxsiyyətlərinə dair materiallarla, elmin yeni yüksəlişinə, bazar iqtisadiyyatına həsr edilmiş yazılarla oxucularla ünsiyyətdə olur.

**"Asudə vaxt"** – "Rusiyada yaşayan azərbaycanlılar üçün qəzet" təqdimatı ilə çıxan həmin qəzetin təsisçisi **Seyidov Məcnun Telman oğlu**, baş redaktoru **Cahangir Nəbioğlu**, redaktoru **Reyhanə Aslan**, məsul katibi **Əliş Əvəzdir**. Qəzetin tirajı 5000 nüsxədir, ünvanı Moskva şəhəridir. 2002-ci ilin aprel (№ 2 (007) sayı ilə tanışlıqdan bəlli olur ki, qəzet mədəniyyət, idman, din, reklam, elanlar, informasiyalar, ulduz falı kimi yazıları ilə oxucuların diqqətini cəlb edir. Qəzetin saylarında çoxlu alim, ziyalı, iş adamları, yaradıcılıqla məşğul olan soydaşlarımızla tanış olmaq mümkündür.

**"Azərbaycan diasporu"** – "Güc birlikdədir" şüarı altında çıxır və baş redaktor **Rafiq Aranlı**, redaktorlar **Aydın Mehdiyev, Əliş Əvəzdir**. Moskvada 10000 tirajla çıxan qəzetin 2002-ci ilin dekabr-2003-cü ilin yanvarında buraxılmış dördüncü sayının ikinci səhifəsində belə bir tarixi sənəd çap olunmuşdur. "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli qərarı. Üçüncü səhifədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Dünya azərbaycanlılarına təbriki təqdim olunur. Beynəlxalq





münasibətlərə, respublikamızda və MDB ölkələrində baş vermiş müxtəlif hadisələrə dair yazıları "Azərbaycan diasporu" öz səhifələri vasitəsilə oxucu kütlələrinə çatdırır.

**"Qolos Azerbaydjana"**- Ulyanovsk şəhərində "Nizami" Azərbaycan ictimai təşkilatının orqanıdır. **Gülağa Hüseynov** baş redaktordur. Qəzet 999 nüsxə çıxır. Adətən qəzetin birinci səhifəsində Azərbaycan və Rusiyaya aid rəsmi məlumatlar dərc edilir. "Nizami" cəmiyyətinin prezidenti, ÜAK-ın vitse-prezidenti, Dünya azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvü Şakir Göyüşov qəzetdə tez-tez çıxış edir, respublikamıza, möhtərəm Prezidentimiz Heydər Əliyevə təbriklər göndərir. Novruz bayramı haqqında, milli ənənələrimizə dair, milli mətbəximizlə bağlı məqalələr qəzetin səhifələrinə çıxarılır.

**"Azərbaycan-media"** – Ümumrusiya Azərbaycanlıları Konqresi İvanovo bölməsinin orqanıdır və bölmə qəzetin təsisçisidir. Baş redaktor **Elşad Qasımovdur,** tirajı 900 nüsxədir, ünvan İvanovo şəhəridir. Diasporamızın şəhər, vilayət rəhbərliyi ilə görüşləri, əlaqələrimizin möhkəmlənməsi, başqa milli qurumlarla əlaqələrə dair yazılarla oxucularla görüşə çıxır.

**"Strana oqney"** – Azərbaycan mədəni mərkəzi "Bakinets" adlı Novqorod vilayət ictimai təşkilatının orqanıdır. Təsisçi ictimai təşkilat özüdür, baş redaktor V.R.İsakovdur, tirajı 999 nüsxədir. Ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafına dair materialları səhifələrində dərc edir. 2001-ci ilin aprelində işıq üzü görmüş üçüncü sayın birinci səhifəsində "Novqorodluları Pasxa münasibətilə təbrik" verilib. Növbəti səhifələrdə Novqorod vilayət filarmoniyasının baş administratoru Nəcəfzadə İqor Hüseynoviçin müsahibəsi, ikinci sə-

hifədə Qarabağ həqiqətlərinə dair material, dördüncü səhifədə Alla Axundovanın şerləri verilmiş, beşinci səhifə bütövlüklə həmyerlimiz, Nobel mükafatı laureatı Lev Davidoviç Landauya həsr edilmişdir.

**"Millətin qəzeti"** – "Millət, millətin qəzetini oxu" şüarı altında Moskvada çıxan bu qəzetin baş redaktoru Elçin Arifoğlu, baş direktoru Cəmil Alışov, məsul katibi Sücaəddin Qəmbəroğlu, təsisçisi Hüseyn Bağırovdur. Tirajı 2000 nüsxədir. Qəzet daha çox respublikamızda gedən proseslərə diqqət yetirir, 2001-ci ilin dekabr ayında işıq üzü görmüş doqquzuncu sayında "Mütəllibovçular mitinq keçirtdi", "Doqquz ildən sonra tapılan meyit", "Bakıda kilsəyə hücum", "Üfüqdən o yana" adlı yazılarla oxucuların görüşünə gəlmişdir. Qəzetdə başqa materiallar da az deyil.

**"Vətən"** – Bu mətbu orqanın təsisçisi Saratovda fəaliyyət göstərən eyniadlı ictimai cəmiyyətdir. Baş redaktorun adı göstərilməyib, 999 nüsxədir. Tanış olduğum dördüncü nömrədə ən müxtəlif mövzulara toxunulur. Azərbaycan – Rusiya münasibətlərinə, dostluğa, sülhə daha geniş yer verilmişdir. "Vətən" öz səhifələrində oxucuları Nizami Gəncəvi yaradıcılığı ilə də tanış edir.

**"Azəri"** – İnformasiya və reklam qəzetidir. Təsisçisi 000 "YURİUS"-dur, baş redaktoru A. Ş. Qurbanovdur, 900 nüsxədir. Moskva qəzetidir. Qısa məlumatlarla oxucu görüşünə gəlir. 1999-cu ilin may ayında işıq üzü görmüş "Azəri" (№ 5 (5)) "Prezidentin səhhəti normaldır", "Prezidentin təbriki", "Şeyxülislamın 50 yaşı tamam oldu" yazıları ilə başlayır, "Rusiyadan Azərbaycana təcili pul ödənişləri", "Azərbaycanlıların nəzərinə" yazıları ilə tamamlanır.





**"Çrezvıçaynoye proisşestviye"** – Moskvada çıxır. Ümumrusiya əməyin, sağlamlığın, ətraf mühitin mühafizəsi ilə məşğul olan bu qəzetin təsisçisi və baş redaktoru Əkrəm Əliyevdir. Ümumi 35000, Moskvada 3000 tirajla çıxır. Qəzetdə Azərbaycan – Rusiya münasibətlərinə dair, bu ölkələrin dövlət, mədəniyyət, hərbi xadimlərinə, idmana, Böyük Vətən müharibəsinə aid materiallar çap edilir. 1999-cu il saylarından başlayaraq həmyerlimiz Nikolay Konstantinoviç Baybakovun "Ot Stalina do Yeltsina" kitabından (Moskva-1998) hissələri öz səhifələrində oxucu mühakiməsinə təqdim edir.

**"Birlik"** – "Vətən, biz səninləyik" və "Düşün! Vətən və millət üçün nə etmisən" şüarları altında Surqut şəhərində çıxan bu qəzetin baş redaktoru Esmira Şükürovadır, tirajı 999 nüsxədir. "Birlik" Tümen vilayəti Xantı-Mansiysk Muxtar Mahalında fəaliyyət göstərən Azərbaycan ictimai təşkilatlarının orqanıdır. Qəzetin 2002-ci il 7 oktyabr tarixli üçüncü sayında xalq şairi Bəxtiyar Vahabzadənin Surqut şəhəri "Birlik" Azərbaycan Milli-mədəni Mərkəzinin sədri Azad Seyidova məktubu, Bəhram Vətənoğlunun "Azərbaycan" şeri, yenə Bəxtiyar Vahabzadənin "Mənəviyyat fədaisi" yazısı, Qulu Xəlillinin "Yalquzaq" publisistik qeydləri, baş redaktor Esmira Şükürovanın "Fəryad doğuran söhbətin izi ilə" qeydləri... çap olunmuşdur. 2003-cü ilin avqustunda işıq üzü görmüş "Birliy"in dördüncü sayına da nəzər yetirək. Bu nömrə "Cənab İlham Əliyev! Sizi Azərbaycan Respublikasının Baş Naziri seçilməniz münasibətilə səmimi qəlbdən təbrik edirəm!".. sözləri ilə oxucu görüşünə gəlib. Burda Yekaterinburqdan xeyriyyəçi Şahin Şıxlinskinin, filologiya elmləri doktoru, professor, akademik, görkəmli yazıçı Çingiz Hüseynovun müsahibələri, Pıt-Yax şəhərindən şair Knyaz Qur-

banovun şerləri verilmişdir. Sonuncu səhifədə digər materiallarla yanaşı "Polis" qəzetinin baş redaktoru, polis polkovniki Şahməmməd Şahməmmədovun şeri maraqla oxunur.

**"Turan"** – baş redaktoru Qələndər Muxtarlı, redaktoru Sevil Məmmədova, tirajı 4000 nüsxə, təsisçisi göstəril-məyən bu qəzetdə bildirilir ki, "Turan" informasiya agentliyi. "Olaylar" informasiya agentliyi və "Yeni Müsavat" qəzetinin materiallarından istifadə olunub. "Turan" ictimai-siyasi və komersiya qəzetidir. "Tanrı türkü qorusun!" şüarı ilə Moskva şəhərində çıxır. Mövzulardan bir neçəsinin adını çəkirəm ki, oxucuda ümumi təəssürat yaransın. Birinci səhifə "İsgəndər Həmidov Qobustandan çıxarıldı", "ADP növbəti aksiyaya ciddi hazırlaşır", "Turki i armyane Qenosid" məqalələri ilə açılır. Növbəti səhifələrdə "Azərbaycan polisinin keçmiş və indiki taleyi", "İngiltərə Tehran rejimini Amerikanın əsas düşməni sayır", "Türkiyənin baş naziri xalqa müraciət etmişdir", "Ermənistanda prezident olmaq istəyənlərin sayı 9 oldu", "Kəlbəcər unudulmayacaq", "Azərbaycan Milli Müqavimət hərəkatı tarixindən", "Azərbaycan komandası qələbə qazandı" oxucu diqqətini cəlb edir. Sonuncu səhifədə "Nazpəri Dostəliyeva və İlqar Muradov Skandinaviyaya gedəcək", "İlhamə Müşərrəf Akaya "yox" cavabı verdi" yazıları ilə yanaşı müxtəlif təbriklər, elanlar da verilmişdir.

**"Odlar yurdu"** – "Sizi deyib gəlmişəm" şüarı ilə başlayan bu qəzetin bütün səhifələrində dahilərin kəlamları oxuculara təqdim olunur. Üçüncü səhifədə Sədinin "Çoxları dünyaya göstərdi həvəs, tikdiyi binada qalmadı bir kəs" sözləri sitat gətirilmişdir. Qəzetin üçüncü "xüsusi buraxılış" sayı ilə tanış oluram. Baş redaktor Esmira Şükürova, tirajı 999 nüsxədir. Təsis-





çisi göstərilməyib. Tümen şəhərində çıxır, rusca və azərbaycanca yazılar çap olunur. "Yeni il və Rojdestvo Xristovo" münasibətilə birinci səhifədə "Uvajayemıye Rossiyane" adlı təbrik təqdim edilib. Qəzetdə ən müxtəlif materiallar verilir. "Corc Buş xarici yardımlar haqqında qanunu imzaladı," "Həmvətənlərimizin Dünya azərbaycanlılarının 1-ci qurultayından təəssüratları", "Surqutda Azərbaycan cəmiyyəti yeni mərhələyə qədəm qoydu" (Esmira), "Vətən istəyi, torpaq yanğısı qəlbimdə közərən şamdır" (Şakir Nəsirov), "El qızı" (Yaqut Sevgili), "Uje desyat let ne rojdayetsya karabaxets" (Bağban Ağayev) adlı yazılar qəzetin səhifələrinə çıxarılmışdır. Bu say Yaqut Sevgilinin "Yaşa, Nurəddin", Qərənfilin "Gələm" şerləri və "Təbrik edirik!" rubrikası ilə yekunlaşır. Dörd səhifədə skanvord verilmişdir. Səhifələrdən səmərəli istifadə olunur. Skanvordun birinci səhifəsində yuxarıda "Daşqın və Xeyransa, toyunuz mübarək olsun!" cümləsi ilə başlayan təbrik, səhifənin sonunda isə dahi Nizaminin "Kimsənin dalınca demərəm yalan, utanım üz-üzə gəldiyim zaman" kəlamı dərc edilmişdir.

**"Konqres azerbaydjantsev"** – Bu, Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) məlumat bülletenidir. Toplu olduqca maraqlıdır, ən müxtəlif materiallarla oxucu görüşünə gəlir. Təsisçisi göstərilməsə də, məlumdur ki, ÜAK təsis edir. Redaktoru, tirajı göstərilməyib. Altmış səhifəlik 2002-ci il 2 saylı jurnalın əvvəlində mündəricat göstərilib. İlk yazı ÜAK-Rəyasət Heyətinin Həmrəylik günü və qarşıdan gələn 2003 Yeni il münasibətilə təbrikdir. 26 noyabr 2002-ci il tarixdə Moskvada, Yeni Arbatda "Dostluq" evində ÜAK-la Rusiya xalqları Assambleyası arasında əməkdaşlıq haqqında razılaşma imzalanması barədə məlumat verilir. Məmməd Əliyevin, Nikolay Baybakovun və

R.Abdulatipovun mərasimdəki çıxışları çap edilmişdir. Milli məsələyə, Azərbaycanın musiqi irsinə, Rüstəm İbrahimbəyovun teatrının qastrollarına, Azərbaycan diasporunun regionlardakı fəaliyyətinə, Rusiyanın xarici vətəndaşlara dair yeni qanununa, ötən ilin nəticələrinə dair materiallar bülletenin səhifələrində öz əksini tapmışdır. Kərim Kərimov, Müslüm Maqomayev, Əhməd İsgəndərov, Tofiq Məlikov kimi görkəmli soydaşlarımızın yubileyləri ilə əlaqədar ÜAK rəhbərliyinin təbrikləri də bülletendə dərc olunmuşdur. Axırıncı səhifələrdə Azərbaycan Respublikasının tarixinə dair əsas illər göstərilmişdir, üz qabığının 3-cü səhifəsində Qız qalasının, M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının, Şuşa məscidinin rəngli şəkilləri verilmişdir.

**"Media-forum"** – Moskva şəhərində nəşr olunan beynəlxalq jurnaldır. Rusiyanın 56 regionunda, yaxın və uzaq xaricdə yayılan bu jurnalın baş redaktoru Valeh Rzayev, direktoru Məmməd Bağırov, məsul katibi Nərminə Rzayevadır. Təsisçi V. S. Rzayevdir, tirajı göstərilməyib. Jurnalın səhifələrində ən rəngarəng materiallara rast gəlmək mümkündür. Üçüncü səhifədə baş redaktor müntəzəm çıxış edir. 1999-cu ilin aprel sayında "Budut li v Azerbaydjane voyennıye bazı", "İstoki armyanskoqo terrorizma", "Napoleon ne bıl azerbaydjantsem", "Azerbaydjanskiy biznes: vzqlyad Ameriki" və başqa məqalələr vardır. 2001-ci ilin avqust nömrəsi ilə tanış olduqca daha maraqlı yazılara rast gəlmək mümkündür. "Skromnoye oboyaniye Kremlya", "Mixail Zabelin uyezjat ne sobirayetsya", "Reqistratsiya qrajdan:-atribut totalitarnoqo rejima", "Tair Djafarli vozvraşayet zreniye", "Razdumiya ob azerbaydjanstve", "Tyurki i Rossiya", "Muxammed", "Çto takoye ekstremizm" və digər yazılarla oxucu görüşünə gəlmişdir.





**"Birlik"** (Yedineniye) – Beynəlxalq jurnaldır, Voronej şəhərində çıxır. Rusiyanın ondan artıq regionunda nümayəndələri var. Tirajı 999 nüsxə olan jurnalın media-direktoru İlham Kazımov, RF və MDB ölkələrində regional əlaqələndiricisi Ələkbər Qurbanov, məsul katibi Taleh Abbasov, baş redaktor Konstantin Kosaryovdir, təsisçi və naşir "Birlik" nəşriyyatıdır. 2003-cü ilin yanvarında işıq üzü görmüş ikinci nömrənin üz qabığında bizim Hökumət evinin, Kremlin və prezidentlərimizin rəngli şəkilləri, ikinci səhifədə prezidentlərimizin şəkilləri və "Ukrepleniye mejdu Rossiyey i Azerbaydjanom" yazısı vardır. Voronej, Ulyanovsk, Çelyabinsk, Həştərxan, Tula, Tambov və başqa şəhərlərdəki Azərbaycan mədəni-ictimai cəmiyyətləri ilə əlaqədar yazılar verilmişdir. 2003-cü ilin mayında üçüncü sayı oxuculara təqdim olunmuşdur. Jurnalın şüarı "Birlik harda, dirilik orda – Qde yedineniye, tam i spaseniye" – dir. Bu nömrə də prezidentlərimizin portretləri ilə başlayır. Üz qabığının ikinci səhifəsində Qələbə bayramı münasibətilə ÜAK-ın Voronejdəki "Birlik – Yedineniye" təşkilatının təbrikləri və "Azərbaycan Böyük Vətən müharibəsi illərində" yazısı, üçüncü səhifədə möhtərəm Prezidentimiz Heydər Əliyevin 80 illik yubileyi münasibətilə təbriklər və onun Rusiyanın nüfuzlu ordeni ilə təltif edilməsi haqqında məlumat vardır. Növbəti səhifələrdə əlaqələrimizi möhkəmlətmək məqsədilə Voronej icra hakimiyyətinin məsul işçilərinin çıxışları verilmişdir. İcra başçısı A.Kovalyov öz qeydlərində bildirir ki, bu gün Voronej vilayətində 20 mindən artıq azərbaycanlı yaşayır. Regionlardan ziyalılarımızın çıxışları qurtardıqdan sonra Nizami Gəncəvi və Aleksandr Puşkin haqqında yazılar, axırıncı səhifədə Azərbaycanda qeyd olunan bayramların siyahısı, milli mətbəximiz, üz qabığının sonuncu səhifəsində

milli geyimlərimizdə rəqslə məşğul olan gənclərin şəkilləri təqdim olunmuşdur.

"**İnter – Azərbaycan**" – Moskva şəhərində 2001-ci ildən fəaliyyət göstərən Azərbaycan teleradiokompaniyasıdır. Doğma ölkəmizin hüdudlarından kənarda öz dilimizdə dinləyiciləri sevindirən hələlik yeganə teleradiokompaniyadır. Bu təşkilatın prezidenti Saleh Xudiyev eyni zamanda Rusiyada Azərbaycan Jurnalistləri Assosiasiyasının prezidentidir. Bu assosiasiya özündə 10 qəzet, 3 jurnal, 1 televiziya və 1 radio birləşdirir. Rusiya kütləvi informasiya vasitələrində fəaliyyət göstərən aparıcı jurnalistlər də bu təşkilata daxildirlər. Saleh Xudiyev Beynəlxalq Tele-radio Akademiyasının akademikidir.

"**Etno – sfera**" – Moskvada nəşr olunan bu jurnalın şüarı "Xalqlar və mədəniyyət Rusiyanın və dünyanın güzgüsündə"dir. Redaksiya heyətinin sədri Yuri Qoryaçov, baş redaktor Yelena Kavelinadır. Jurnalın 2000-ci il 5 (22)-ci sayı Moskva azərbaycanlı ziyalılarının çıxış-larına həsr edilib. Rusiya paytaxtında Azərbaycan məktəbinin direktoru Aidə Quliyeva haqqında "Ocaq" cəmiyyətinin prezidenti Tofiq Məlikovun, Azərbaycan – Rusiya yeni münasibətlərinə dair akademik Əfrand Daşdəmirovun, "Azərbaycan" yazısı Əbdül Hüseynovun qələminə məxsusdur. 26-27-ci səhifələrdə qaçqınların şəkilləri və bu barədə qeydlər vardır. Görkəmli rəssam, Rusiya Rəssamlar Akademiyasının vitse-prezidenti Tahir Salahovun yaradıcılığından nümunələr və Rusiya azərbaycanlıları FMMM-nin prezidenti Söyün Sadıqovun çıxışı 12-13-cü səhifələrdə verilmişdir. "Bakı-Moskva: biz bir yerdəyik" yazısında Bakıda Rusiya və Moskva mədəniyyəti günlərinin keçirilməsindən və onların rəhbərlərini Prezident Heydər Əliyevin qəbul etməsindən söhbət açılır. Üz qabığının





3-cü səhifəsi "Rusiya xalqları əsrlərlə birgə yaşamışlar" cümləsi ilə başlayır. Jurnal Moskva hökuməti təhsil Komitəsi və İctimai və regionlararası əlaqələr Komitəsinin dəstəyi ilə nəşr olunur.

"**Ne povtoryat oşibok proşloqo**" (analiz istoriçeskoqo opıta) ("Keçmişin səhvlərini təkrar etməməli" (tarixi təcrübənin təhlili) – Bu kitabın müəllifi Rəfiyev Bəxtiyar Cəlal oğludur. 58 səhifəlik toplu Udmurtiyanın Qlazov şəhərində 2003-cü ildə Əhmədov Əli Əhməd oğlunun maliyyə köməkliyi ilə işıq üzü görmüşdür. Topluda 1920-1930-cu illərin, Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra birinci onilliyin hadisələri qələmə alınmışdır. Müəllif arxiv sənədləri, dövri, bolşevik və antisovet mətbuatı əsasında göstərir ki, hökumət orqanları öz səhv hərəkətləri ilə özünə qarşı müxalifət yarada və möhkəmlədə bilər.

"**Oqonyok**" – Rusiyanın ümummilli həftəlik illüstrasiyalı jurnalıdır, 21 dekabr 1899-cu ildən çıxır, baş redaktoru Q. N. Quşin, tirajı 100000-dir. 1996-cı ilin may ayında jurnalın 96 səhifəlik nömrəsi respublikamıza həsr edilmişdir. Bu barədə möhtərəm Pezidentimiz Heydər Əiyev demişdir: "Bu, sadəcə olaraq jurnalın bir nömrəsi deyil, Azərbaycan haqqında kitabdır, həm də çox yaxşı kitabdır" ("Xalq qəzeti", 4 iyul 1996-cı il). Jurnalın üz qabığının 1-ci səhifəsi "Respublikanın hər yeddinci sakini-qaçqındır" cümləsi ilə başlayır, oradaca azərbaycanlı qızın milli geyimdə rəngli şəkli, sonrakı səhifələrdə məmləkətimizin dövlət, mədəniyyət, incəsənət xadimlərinin, qaçqınların şəkilləri vardır. Milli məktəbimiz, geyimlərimiz, xalçalarımız, musiqimiz, adət-ənənələrimiz nümayiş etdirilir. Bir sözlə, "Respublika"qəzetinin 5 iyun 1996-cı ildə yazdığı kimi, "Oqonyok" Azərbaycan həqiqətlərini dünyaya çatdırır".

**"Litsa-kumirı Rossii"** – Bu, Moskvada nəşr olunan bir jurnalın adıdır. Müasir dövrün yüzlərlə siyasət, biznes, səhiyyə, incəsənət, musiqi, hərb, din... sahələrində çalışan qabaqcıl xadimlərinin şəkilləri ilə təchiz olunmuş 2002-ci ilin dekabr-2003-cü ilin yanvarına aid sayda (208 səhifəlik) soydaşlarımız və bizə yaxın adamlar da vardır. Jurnala Ön sözü Rusiyada və MDB dövlətlərində populyar olan "Versiya" qəzetinin baş redaktoru, adlı-sanlı qələm sahibi, həmyerlimiz, jurnalın şef-redaktoru Rüstəm Arifcanov yazmışdır. Topluda hörmətli soydaşlarımız, LUKOYL neft kompaniyasının prezidenti Vahid Ələkbərovun, "Krokurs İnterneşnl" kompaniyasının prezidenti Araz Ağalarovun, violonçelist, dirijor, ictimai xadim Mstislav Rostropoviçin və Kemerovo vilayətinin qubernatoru Aman Tuleyevin, Rusiya Müfti İttifaqının sədri, Rusiyanın Avropa hissəsi Müsəlmanları Ruhani İdarəsinin sədri Ravil Qaynutdinin və Rusiya müsəlmanları Mərkəzi ruhani idarəsinin Ali müftisi Talqat Tadjuddinin şəkilləri verilmişdir.

Tanışlıq üçün bildirmək istəyirəm ki, həmin jurnalda RF-nin prezidenti Vladimir Putin, müdafiə naziri Sergey İvanov, patriarxı II Aleksiy... kimi dövlət rəhbərlərinin, din xadimlərinin də jurnalda şəkilləri təqdim olunmuşdur.

***Qeyd:*** *Adı çəkilən bütün qəzet, jurnal və kitablar müəllifin şəxsi arxivində saxlanılır.*





## RUS ZİYALISI AZƏRBAYCAN HAQQINDA KİTAB YAZIB

Əminəm ki, xalqlarımızın rifahı naminə açıq siyasi və səmərəli, qarşılıqlı surətdə faydalı əməkdaşlıq əsasında Azərbaycan ilə Rusiya arasında dinamik inkişaf edən dostluq münasibətlərinin xoş ənənələri bundan sonra da regionda sülhə və tərəqqiyə xidmət edəcəkdir ("Azərbaycan" qəzeti № 132 (3445), 12 iyun 2003-cü il).

Bu cümlələr möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının Rusiya Federasiyasının prezidenti cənab Vladimir Putinə qonşu ölkənin dövlət müstəqilliyi günü münasibətilə göndərdiyi təbrik məktubundan götürülmüşdür.




Rusiyada soydaşlarımıza, məmləkətimizə dair son illərdə az kitab buraxılmayıb. Mən 2002-ci ilin dekabrında "Azər-ros" qəzetinin baş redaktoru və eyniadlı cəmiyyətin prezidenti Söyün Sadıqovla görüşdüm. O, mənə elə təzəcə işıq üzü görmüş "Novıy put Azerbaydjana" adlı kitabı hədiyyə etdi. Qeyd etmək yerinə düşər ki, Söyün müəllim kitabın nəşrinə yaxından kömək etmişdir. Müəllif, beynəlxalq şöhrətli tarixçi Stanislav İvanoviç Çernyavskiy 352 səhifəlik kitabda dörd yüzə yaxın mənbəyə istinad etmişdir. Toplunun qalın üz

qabığının birinci səhifəsində üçrəngli bayrağımız yarı buludlu, yarı mavi səmanın fonunda təqdim olunmuşdur. 2000 tirajla çıxmış kitabın nüsxələrinin Rusiyanın bütün bölgələrində fəaliyyət göstərən Azərbaycan ictimai təşkilatlarına göndərildiyinin şahidi oldum. Təşkilatçısı yenə S. Sadıqov idi.

Ön sözdə ölkəmiz, yeni müstəqil dövlətlər arasında öz dəsti-xətti ilə tanınmış respublikamız, "Odlar yurdu", Şərqin şairlər, musiqiçilər və filosoflar diyarı, millətimizin qonaqpərvər xalq olduğu göstərilir.

Müəllif 1988-2002-ci illərdə ölkəmizdə baş vermiş müxtəlif hadisələri obyektiv işıqlandırmağa cəhd etmiş, Rusiyada ölkəmizə marağın artdığını vurğulamışdır. Qarabağ məsələsinə toxunmazdan öncə bu problemin dərinliklərinə nəzər salan tarixçi 11-ci səhifədə qeyd edir ki, Rusiya imperatoru I Nikolay 21 mart 1828-ci il tarixli fərmanı ilə Azərbaycanın Naxçıvan və İrəvan xanlıqlarını ləğv etmiş, əvəzində "Ermənistan vilayəti" yaratmışdır.

Kitab çoxsaylı şəkillərlə təchiz olunmuşdur. Möhtərəm prezidentimizin geniş fəaliyyətindən söhbət açan Stanislav İvanoviç BAM-ın ,Sibirin və Şimalın yeni rayonlarının tükənməz enerjiyə malik, parlaq zəkalı Heydər Əliyevin bilavasitə rəhbərliyi altında tikildiyini oxucu diqqətinə təqdim edir. Müstəqillik dövründə prezidentimizin çoxsaylı görüşləri, dövlət rəhbərləri ilə apardığı danışıqlar, məqsədyönlü iş metodu, Azərbaycanı müstəqillik yolu ilə inkişaf etdirməsi və s. geniş işıqlandırılmışdır.

Kitab sadə üslubda yazılmışdır. Ona görə də oxucunu yormur. Birnəfəsə oxumaq mümkündür.





# III BÖLMƏ

## AZƏRBAYCAN – RUSİYA MÜNASİBƏTLƏRİNƏ DAİR

**R**usiya ilə Azərbaycan arasında, rus və Azərbaycan xalqları arasında münasibətlərin tarixi bir çox əlamətdar hadisələrlə səciyyələnir. Təxminən iki yüz il ərzində bu dövlətin tərkibində olarkən Azərbaycan xalqı ilə rus dövlətinin arasında xoş münasibətlər yaranmış və bu münasibətlər sıx dostluğa çevrilmişdir.

1993-cü ildən başlayaraq ölkələrimiz arasında əlaqələrin günü-gündən möhkəmlənməsinə Prezident Heydər Əliyev daha ciddi və müntəzəm diqqət yetirmişdir. Ölkəmizin ziyalılarının, bütün xalqımızın təkidi, tələbi və xahişi ilə yenidən hakimiyyətə qayıtdığı ilk günlərdə o demişdir: "Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha da yaxşı, daha da geniş, səmərəli olmalıdır..." (Heydər Əliyev, "Müstəqilliyimiz əbədidir", I kitab, Bakı- Azərnəşr"-1997, səh. 11).

İsti münasibətlərimiz bir çox sahələrdə nəzərə çarpacaq dərəcədə hiss olunur. İlk növbədə ölkə Prezidentinin Rusiyaya səfəri, onun bu ölkənin rəhbərliyi ilə

daim əlaqə saxlaması, qonşu ölkəyə diqqət və hörmətlə yanaşması, ölkəmizdə yaşayan rusdilli xalqların nümayəndələrinə olan qayğısı bu münasibətləri günügündən möhkəmlədir.

Pasxa bayramı münasibətilə respublikamızın pravoslav xristianlarına Prezidentimiz təbrikində demişdi:

"Əziz həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi-respublikamızın bütün pravoslav xristianlarını ürəkdən təbrik edir, ən səmimi arzularımı yetirirəm.

İnsanların mənən yeniləşməsində və saflaşmasında, cəmiyyətdə əxlaqi dəyərlərin, dostluq və humanizm prinsiplərinin bərqərar olunmasında dinin mühüm rolu vardır" (Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir", 9-cu kitab, Bakı-Azərnəşr-2000, səh. 227).

Heydər Əliyevin müdrikliyini, uzaqgörənliyini, siyasətin mahir ustası olduğunu yaxşı bilən Rusiya rəhbərliyi, bu ölkənin kütləvi informasiya vasitələri elə onun hakimiyyətə qayıtdığı ilk gündən bu şəxsiyyətin simasında məmləkətimizə böyük diqqət yetirməyə başladı. Uğurlu nəticələr özünü göstərməyə başladı. Dəfələrlə Moskvada Azərbaycan mədəniyyəti günləri, Bakıda Rusiya mədəniyyəti günləri keçirildi. Mstislav Rostropoviç, Nikolay Baybakov, Gennadi Xazanov, Anatoli Karpov, Mixail Puqovkin, Yuliya Borisova, Vasili Lanovoy, Serqey Stepaşin və digər bu kimi hörmətli şəxsiyyətlərin ölkəmizə qonaq gəlmələri, Sankt-Peterburqda dahi Nizami Gəncəvinin, Bakıda Aleksandr Puşkinin heykəllərinin ucaldılması, 1996-cı ilin may ayında "Oqonyok" jurnalının bütöv bir sayının məmləkətimizə həsr edilməsi, 1997-ci il 29 noyabr tarixli "Bakinskiy raboçiy" qəzetinin "Russkiye Azerbaydjana-qrajdane Azerbaydjana" rubrikası altında çıxması və bütün səhifələrin ölkəmizin rus vətəndaşlarına həsr edilməsi





faktları əlaqələrimizin yaxşı səmtə doğru istiqamətlənməsindən xəbər verir.

Ürəkaçan odur ki, son illərdə bu münasibətlər daimi inkişafdadır.

1999-cu ilin isti yay günlərində Moskva şəhərindəydim. Növbəti məzuniyyətimi keçirirdim. Ziyalı-alim soydaşlarımızın sorağındaydım. "Nezavisimaya qazeta" nın 9 iyul sayında Milli Məclisin deputatı Akif Muradverdiyevin "Azərbaycan XXI əsrin astanasında – Heydər Əliyev öz ölkəsinin şəksiz lideri olaraq qalır" adlı yazısına rast gəldim. Qəzetin tam bir səhifəsini tutan bu material Rusiya paytaxtında əldən-ələ keçirdi. Yazıda müəllif irticaçı "Sadval" cəmiyyətini pisləyir, ermənilərin işğalçılıq siyasətini Rusiya ictimaiyyətinə açıqlayır. Heydər Əliyevin 1969-cu ildən bəri respublikamızda apardığı nəhəng işləri, iqtisadiyyatın, sənayenin inkişafında, kadrların yerləşdirilməsində, neqativ halların aradan qaldırılmasında, yeni mərhələdə isə MDB ölkələri, ilk növbədə Rusiya ilə dostluq əlaqələrinin möhkəmlənməsində, Qarabağ müharibəsinin dayandırılmasında və başqa sahələrdə qazandığı müstəsna xidmətləri, vətəndaş müharibəsinin qarşısının alınmasında göstərdiyi qətiyyətli hərəkətləri, "Əsrin müqaviləsi"nin imzalanması, ABŞ, Fransa, Böyük Britaniya, Türkiyə, Çin, Rusiya, İtaliya, Almaniya...kimi ölkələrə uğurlu səfərləri, onun qurucu fəaliyyətini oxuculara çatdırır.

Bir neçə aydan sonra, 26 aprel 2000-ci ildə "İzvestiya" qəzeti "Azərbaycan Prezidenti Heydər Əliyev Nobel sülh mükafatına namizəd göstərilmişdir" adlı geniş yazını oxucu mühakiməsinə təqdim etdi. Həmin materialda Heydər Əliyevin kəlamları, deyimləri verilmiş bölmənin giriş sözü bu cümlə ilə başlanır: "Zəmanəmizin görkəmli siyasətçilərindən biri, böyük

dövlət xadimi olan Heydər Əliyev həm də fəlsəfənin, ədəbiyyat və incəsənətin gözəl bilicisidir."

Heydər Əliyevin apardığı səmərəli azərbaycançılıq siyasətinin bəhrəsi kimi Rusiyanın əyalətlərində və paytaxtında bir-birinin ardınca Azərbaycan mədəni-ictimai cəmiyyətləri yaranmağa və qəzetlərimiz çıxmağa başladı, milli məktəblərimizin qapıları qürbətdə yaşayan övladlarımızın üzünə açıldı.

Moskvada "Media-forum" jurnalı (baş redaktor Valeh Rizayev), "Azərros" (Söyün Sadıqov), "Azərbaycan diasporu", (Rafiq Aranlı), "Millətin qəzeti" (Elçin Arifoğlu), "Asudə vaxt" (Cahangir Nəbioğlu) qəzetləri, Sankt-Peterburqda "Ulu torpaq" (Faiq Hacıyev), "Vmeste"(A. S. Kosuyeva), Ulyanovskda "Qolos Azerbaydjana" (Gülağa Hüseynov), Novqorodda "Strana oqney" (V. R. İsakov), Tümendə "Odlar yurdu", Saratovda "Vətən", Surqutda "Birlik", İvanovoda "Azerbaydjan-media" (Elşad Qasımov) qəzetləri, Voronejdə "Birlik" jurnalı (Konstantin Kosaryev) və onlarla başqa regionlarda mətbuat orqanlarımız fəaliyyətə başlayaraq dostluq əlaqələrimizi möhkəmlətməyə, azərbaycançılıq siyasətimizi təbliğ etməyə başladılar.

Möhtərəm Prezidentimiz Ümumrusiya-Azərbaycan Konqresinin (2000-ci il) təsis qurultayında böyük nitq söylədi. Belə bir nüfuzlu təşkilatın yaranmasına nail oldu. 2001-ci ilin payızında paytaxtımızda, Bakı şəhərində Dünya azərbaycanlılarının I qurultayında daha maraqlı nitq söylədi. Yer kürəsinin bütün guşələrindən, Rusiyanın bütün bölgələrindən nümayəndələr iştirak edən tarixi qurultayda Heydər Əliyev dedi: "Əmin ola bilərsiniz ki, müstəqil bir dövlət kimi Azərbaycan on ildir ayaq üstə möhkəm durubdur. Ötən dövrdə biz Azərbaycanın müstəqilliyini inkişaf etdirmişik və bu gün bəyan edirəm ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və daimidir".





2002-ci ildə Moskvada yaradıcılıq ezamiyyətində olduğum zaman dekabrın 26-da keçirilən Kərim Kərimovun 85 illik yubileyinə dəvət olunmuşdum. Gözəl və yüksək səviyyədə təşkil olunmuş yubiley mərasimində Sosialist Əməyi Qəhrəmanı, 1966-1991-ci illərdə kosmonavtika sahəsində SSRİ Dövlət Komissiyasının sədri Kərim Kərimovun özünə müəllifi olduğum "Moskva: oni rodom iz Azerbaydjana" (Bakı-2002) kitabını təqdim etdim. Çoxsaylı alim, ziyalı həmvətənlərimizlə, o cümlədən Rusiya EA-nın müxbir üzvləri Fərman Salmanovla, Əhməd İsgəndərovla, görkəmli dövlət xadimi Nikolay Baybakovla, Ümumrusiya Azərbaycan konqresinin prezidenti Məmməd Əliyevlə, ÜAK-nın məsul işçiləri Zeynal Nağdəliyevlə (hazırda Lənkəran RİH-nin başçısı), Manaf Ağayevlə, Eldar Quliyevlə... görüşüb söhbətləşdim. Bizə, yubiley mərasiminin işçilərinə yubilyarın "Doroqa v kosmos" (Bakı-1995) adlı xatirələr kitabı, "Konqress azerbaydjantsev" qəzeti (2002-ci il N1), "Konqress azerbaydjantsev" adlı 60 səhifəlik məlumat bülleteni (№ 2) hədiyyə edildi. Bu, yüksək poliqrafiya üsulu ilə tərtib olunmuş nəşrlərdə oxunaqlı, dəyərli materiallar təqdim edilmiş, möhtərəm prezidentimizin, qürbətdə yaşayan qabaqcıl ziyalılarımızın şəkilləri, onların yazıları, müsahibələri, xatirələri verilmişdir.

Son illərdə Rusiyada görkəmli soydaşlarımıza, məmləkətimizə dair az kitab buraxılmayıb. 1998-ci ildə görkəmli boyakar və qrafik, SSRİ-nin, RF-nin, Azərbaycanın xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının fəxri müxbir üzvü, 1997-ci ildən Rusiya RA-nın vitse-prezidenti, Sosialist Əməyi Qəhrəmanı, onlarla ölkənin RA-nın fəxri üzvü Tahir Salahovun 70 illik yubileyinə həsr olunmuş buklet, 2001-ci ildə bəstəkar, dirijor, pedaqoq, SSRİ xalq artisti, M. Qlinka adına RF Dövlət Mükafatı laureatı Murad Kajlayevin (1931-ci ildə

Bakıda doğulub) anadan olmasının 70 illik, yaradıcılıq fəaliyyətinin 50 illiyi münasibətilə buklet buraxılmışdır. "Etno-sfera" N5 (22), 2000-ci il sayında Moskvada fəaliyyət göstərən Azərbaycan məktəbinin direktoru Aidə Quliyevaya dair yazı, Tahir Salahovun yaradıcılığından nümunələr oxuculara təqdim olunmuşdur.

Son illərdəki səfərlərimdən birində yenə gəzə-gəzə doğma şəhərim Nijnevartovska çatmışam. Kitab mağazalarından birində Vladimir Salmin adlı müəllifin "Qorod na zare" adlı kitabı əlimə keçib. Səhifə 49-58-də "Neistovıy Farman" (Qəzəbli, sərt Fərman) adlı yazı var. Məqalənin giriş sözü belə başlayır: "Cığıraçan – bununla hər şey deyilmiş kimidir. Əgər Salmanov olmasaydı, bir çox şəhərlər, Nijnevartovsk da ümumiyyətlə olmazdı, bütün Sibir bu gün başqa cür görünərdi". Məqalədə həmyerlimizin qiymətli, maraqlı keyfiyyətlərindən söhbət açan V. Salmin yazır: "Sözsüz ki, Salmanov qeyri-adi qabiliyyətə malik şəxsiyyətdir. Bu həmin Fərman Salmanovdur ki, özbaşına, gizli yolla geoloqlar dəstəsini Novosibirskdən Surquta gətirib, inamı olub ki, orada neft var. Surqutda işlərinin dayandırılmasına dair ən qəti və təhlükəli əmrlərə baxmayaraq o, vəzifəsi və yaxşı adı ilə risk edərək axtarışları davam etdirdi. Ona əmr elədilər, onu söydülər. Özbaşınalığına görə vəzifədən çıxarılması ərəfəsində teleqram göndərdi: "Neft fontan vurdu. Bu sizə aydındırmı? Salmanov"...

F. Salmanov kimi insanlar Azərbaycan-Rusiya münasibətləri tarixində silinməz səhifələr yazmışdır ki, onları heç bir bədxah düşmən silə bilməz.





## YAZMAQ YAŞATMAQDIR

***Xəbər verdiyimiz kimi, publisist həmyerlimiz, polis kapitanı Ramin Məmmədov Azərbaycanın məşhur adamları, rayonumuzun ziyalıları barədə bir neçə kitab çap etdirmişdir. Onun bu il çapdan çıxmış "Bakıdan Moskvaya və uzaqlara" (rus dilində) adlı kitabı bu silsilədən olan gözəl topludur, müəllifin gərgin əməyinin, uzun axtarışlarının məhsuludur. Ə. Əzizov publisist Ramin Məmmədovla görüşüb, ona bir neçə sualla müraciət etmişdir. Aşağıda həmin müsahibəni dərc edirik.***

***– Ramin müəllim, yazılarınızın hamısı maraqlıdır. Kitablarınızın ana xətti – keçmiş sovet məkanında yaşayıb işləyən həmyerlilərimizi, görkəmli adamlarımızı tanıtmaqla yanaşı xalqlar dostluğunu təbliğ etməkdir. Nədənsə bu gün buna bəziləri dodaq büzür, bu işi lüzumsuz sayırlar, hər şeyə bədnam qonşularımızın əməlləri ilə qiymət verirlər. Sizin fikrinizcə belə opponentləriniz ümumi işə xeyir verir, yoxsa ziyan?***

– Əvvəla, qeyd etmək istərdim ki, xarici ölkələrlə xüsusilə qonşu respublikalarla elm, ədəbiyyat, incəsənət sahəsində əlaqələrin möhkəmlənməsi, ziyalıların bir-birini tanıması, onlarla maraqlanması vacib və aktuallığını itirməyən bir məsələdir. Bunun xeyri heç vaxt azalmayacaq.

İlk növbədə apardığım işə məndə olan həvəsin, vurğunluğun tarixinə qayıtmaq istərdim. Hələ 1985-87-ci illərdə "Tyumenskaya pravda", "Leninskoye znamya"

(indi "Mestnoye vremya") "Mübariz keşikdə" qəzetlərində dərc olunan yazılarıma nəzər yetirsəniz, bu yazılarda dostluğun təkcə sözdə yox, əməldə möhkəmlənməsinin, qarşılıqlı əlaqələrin formal xarakter daşımamasının vacibliyini dəfələrlə vurğulamışam. Belə yazılarımın bir qismi "Vətən həsrətilə keçdiyim yollar" (Bakı, "Şur" – 1994) toplusunda oxuculara təqdim olunub.

Yəni mən bu problemə 1988-ci ilin fevralında quraşdırılmış məlum hadisələrdən sonra yox, xeyli əvvəl başlamışam. Xalqlar arasında dostluq və mehriban münasibət olsa, bunun cəmiyyətə ancaq xeyri dəyər. Bu fikrin əleyhdarları ümumi işə xeyir verə bilməzlər.

– ***Portret oçerklərinizin qəhrəmanlarının bir çoxu məşhur siyasətçilər, dövlət xadimləridir. Onların da siyasətdə hərəsinin öz mövqeyi var. Bu sizə əsas hədəfi seçməkdə çətinlik yaratmırmı?***

– Siyasətə tamamilə qarışmıram. Mənim siyasətlə işim yoxdur. Hazırda mən qarşıma konkret məqsəd qoymuşam. Mənim amalım və məqsədim müstəqil olaraq sənədlər toplamaq, kitablar yazmaq, nəşr etdirməkdir. Azərbaycanımızın görkəmli şəxsiyyətlərindən – elm, ədəbiyyat, incəsənət fədailərindən, sərkərdələrimizdən, unudulmuş qəhrəmanlardan, ayrı-ayrı vaxtlarda uzaq və yaxın diyarlarda şücaət göstərərək xalqımızın adını göylərə qaldırmış övladlarımızdan, Qarabağa aid Rusiyanın görkəmli adamlarının dili ilə deyilmiş həqiqətlərdən bəhs edən bu kitabları Rusiya Federasiyasının və başqa MDB ölkələrinin ərazisində yaymağa çalışıram. Yazmaq yaşatmaqdır, qəhrəmanların ömrünü uzatmaq, onları hamıya tanıtmaqdır. Hesab edirəm ki, bu yolla mən möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının apardığı dünya miqyaslı, məqsədyönlü tədbirlərə müəyyən töhfə verə bilərəm. Axı prezidentimiz çıxışlarının birində qeyd etmişdir ki,





rifahımızın, mədəniyyətimizin, iqtisadiyyatımızın yüksəlməsi, qələbəmizin tezləşməsi naminə hər kəs bacardığı işin qulpundan yapışmalıdır. Mən də bu məsələlərin inkişafına bacardığım qədər kömək göstərməyə neçə illər öncə başlamışam.

– ***Azərbaycanın görkəmli şəxsiyyətləri çoxdur, onlar haqqında məlumat toplamaq da asan deyil. Bu çoxlu sorğular, telefon zəngləri, ezamiyyətlər, görüşlər, xeyli vaxt itkisi və s. gərgin zəhmət tələb edir. Öz işiniz də narahat peşədir. Axtarışlarınız vəzifə borcunu yerinə yetirməyə mane olmur ki?***

– Şəxsiyyətlər haqqında məlumatlar məndə olduqca çoxdur. Məsələn, Azərbaycanda elə bir general, qəhrəman, akademik, elm fədaisi, siyasi xadim tapılmaz ki, arxivimdə onun həyat yoluna dair məlumat olmasın. Eyni zamanda keçmiş SSRİ-nin görkəmli xadimləri, siyasi, hərbi rəhbərləri ilə bağlı minlərlə sənədlər, məlumatlar varımdır. Dünya ölkələrinin görkəmli adamları ilə bağlı məlumat da az deyil.

Üçüncü ildir ki, mən Rusiyanın şəhərlərinə öz məzuniyyətim hesabına yaradıcılıq ezamiyyətinə gedirəm. Moskvada, Leninqradda (indi Sankt-Peterburq), Sverdlovskda (indi Yekaterinburq), Tulada, Novosibirskdə, Tümendə, Surqutda, Xantı-Mansiyskdə, Volqoqradda və ayrı-ayrı şəhərlərdə azərbaycanlı alimləri, ziyalıları, rəhmətə getmişlərin ailələrini axtarıram, tapıram. Rusiya ilə taleyi bağlı olan görkəmli adamlar haqqında materialları da onlara əlavə edib yazıram. Bu isə vəzifə borcumu yerinə yetirməyə mane olmur.

– ***Portret-oçerklərinizin bir neçə əsas qəhrəmanları barədə oxuculara məlumat verməyiniz yaxşı olar.***

– 1999-cu ildə "Bakıdan Moskvayadək" ("Ot Baku do Moskvı". Bakı, Şirvannəşr, 1999), indi isə "Bakıdan Moskvaya və uzaqlara" ("Ot Baku do Moskvı i daleye". Bakı, Şirvannəşr, 2000) kitablarım işıq üzü görüb. Bu

kitablarda H. Ə. Əliyev, N. Nərimanov, A. Bakıxanov, M. Hüseynov (bu adam 1930-33-cü illərdə Tacikistan KP MK-nın 1-ci katibi olub), Ə. Şıxlinski, S. Mehmandarov, İ. B. Qutqaşınlı, S. Orucov, F. Salmanov, H. Aslanov kimi yüzlərlə başqa dahilərə həsr olunmuş 200-dən artıq portret-oçerklər öz əksini tapmışdır. Qarabağ həqiqətlərinə, uzunömürlülərə aid çoxsaylı yazılar verilmişdir.

– ***Ənənəvi sual. Yeni yaradıcılıq planlarınız barədə nə deyə bilərsiniz?***

– Səfərim zamanı təkcə Moskvada "Voprosı istorii" jurnalının baş redaktoru Ə. Ə. İsgəndərovla, məşhur rəssam Tahir Salahovla, tarix elmləri doktoru Dilarə İsmayılzadə (Ümnisə Musabəyovanın qızıdır), "Çrezvıçaynoye proisşestviye" qəzetinin baş redaktoru Əkrəm Əliyevlə, "Pravda" qəzetinin baş redaktor müavini İqor Lenski ilə, "Zaşita i karantin rasteniy" jurnalının baş redaktoru Vladislav Savzdarqla və başqaları ilə görüşüb müsahibələr götürmüş, kitablarıma əlavə etmişəm. Sankt-Peterburqda iyirmiyə yaxın azərbaycanlı alimlə görüşmüş, onlar haqqında portret-oçerklər hazırlamışam. Yaxın günlərdə məzuniyyət götürüb yeni yaradıcılıq ezamiyyətinə yola düşürəm.

– ***Müsahibə üçün sağ olun, Sizə yeni yaradıcılıq uğurları arzulayıram.***

***"Qəbələ" qəzeti, 19.10.2002.***





# IV BÖLMƏ

## ERMƏNİ SAXTAKARLIĞI DAVAM EDİR, YAXUD MOSKVA NƏŞRLƏRİNDƏ ZİDDİYYƏTLƏR

***Ramin Məmmədov mənə elə gəlir ki, Qəbələ rayonunda ən çox tanınan ziyalı kadrlarımızdan biridir. Təxminən 15 il əvvəl Qəbələdə onu Bum kənd sakinlərindən və yaxın-doğma adamlardan başqa çox az adam tanıyırdı. İndi polis kapitanı, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, ona qədər kitabın müəllifi, fəal tədqiqatçı-jurnalist Məmmədov Ramin Hüseyn oğlunu nəinki bütün Qəbələdə, Bakıda, doğma Azərbaycanın hər yerində, həm də böyük Rusiyanın əksər şəhərlərində yaxından tanıyır və sevirlər.***

***Bu sevgi və tanışlığın bünövrəsində nə durur? Mən deyərdim ki, R. Məmmədovun coşqun vətənpərvər ürəyi! O, iki nəcib istəyin mübariz qələm fədaisidir. Birinci, fəaliyyəti, əməyi və əxlaqı ilə mənsub olduğu xalqa, vətənə baş ucalığı, üz ağlığı, qürur və iftixar hissi bəxş etmiş Azərbaycan övladlarını soraqlayıb tapmaq və onları həmvətənlərinə təqdim etmək Ramin qələminin ən birinci işidir. İkincisi, şovinist erməni***

***saxtakarlarının ideoloji təxribatlarını aşkar edib bunları müasirlərinə çatdırmaq və bizim mürgü döyən müftəxor aparat burjuaziyasını oyatmaq, onları düşmənlərin gizli və daha məkrli niyyətlərindən xəbərdar etmək R. Məmmədovun Rusiyaya səfərlərinin başlıca məram və məqsədidir.***

***"Səfərnamə" kitabının müəllifi Rusiyadan qayıtmışdır. O, yenə əliboş gəlməmişdir. Böyük Rusiyadan, xüsusilə Moskvadan çoxlu yeni kitablar, qəzet və jurnallar və müxtəlif nəşrlər gətirmişdir. Ümumiyyətlə, kitab və qəzet bağlamaları Raminin daimi yol yoldaşıdır. O, Rusiyaya öz kitablarını və Azərbaycan nəşrlərini aparır. Azərbaycana isə Rusiyada çıxan yeni çap məhsullarını, xüsusilə yeni ictimai-siyasi ədəbiyyatı gətirir. Qəzetimizin əməkdaşı bu səfər də çoxlu yenilik və tapıntılarla qayıtmışdır. Bu haqda o, növbəti yazılarında yəqin ki, ətraflı danışacaq. Bu nömrədə oxuculara R. Məmmədovun "Erməni saxtakarlığı davam edir" sərlövhəli yazısını təqdim edirik.***

***Baş redaktor***

Artıq xeyli vaxtdır Azərbaycanımızın görkəmli şəxsiyyətlərini, Qarabağ həqiqətlərini MDB ölkələrində tanıtmaqla məşğulam. Saxta erməni təbliğatını ifşa edən, rusca yazılmış onlarla adda kitabların yüzlərlə nüsxələrini Rusiyanın çoxsaylı yaşayış məntəqələrinə, şəhərlərinə, kitabxanalara, redaksiyalara, ayrı-ayrı ziyalılara, soydaşlarımıza çatdırmışam. Bu gün Azərbaycanı Rusiyada, MDB ölkələrində yaşadan yüzlərlə alim, hərbçi, milis işçisi, sadə peşə adamı, həkim, yazıçı, jurnalist həmyerlilərimizin həyat tarixçəsinə dair materiallar toplamışam, arxivimdə olan, məmləkətimizi tarixdə yaşadan şəxsiyyətlər haqda məlumatları da götür-qoy edib çoxsaylı eloğlumuz haqda portret-





oçerklər yazmışam. Moskvada onlarla erməni saxtakarlığını aşkar etmiş, bunların hamısı barədə "Ot Baku do Moskvı", "Ot Baku do Moskvı i daleye", "Səfərnamə-Puteşestviye" adlı kitablarımda oxuculara təqdim etmişəm.

Yenicə səfərdən qayıtmışam. Bu mənim sayca dördüncü səfərimdir. 1998-ci ildən başlayaraq məzuniyyətim hesabına hər il Rusiyaya səfər edirəm. Bu zaman bir neçə istiqamətdə fəaliyyət göstərmişəm. İki sahədə daha çox çalışmışam. Birinci, soydaşlarımızı-ziyalılarımızı axtarıb tapmaq, onları işıqlandırmaq, ikincisi, erməni saxtakarlığını, onların məkrli və maskalanmış antiAzərbaycan təbliğatını müxtəlif ensiklopedik lüğətlərdə, məlumat kitablarında, dövri mətbuatda aşkar etmək.

Bu qeydlərimdə mən oxuculara bir daha qərəzli və məkrli erməni saxtakarlığı haqda məlumat verəcəyəm.

2000-ci ildə Moskvada "VEÇE" nəşriyyatında 10000 tirajla 608 səhifəlik "İmperiya Stalina" adlı ensiklopedik lüğət kitabı işıq üzü görmüşdür. Kitaba 900-dən bir az artıq tərcümeyi-hal məlumatı daxil edilib. 333-cü səhifədə görkəmli partiya və dövlət xadimi Nəriman Nərimanov haqqında məlumat verilmişdir. Əvvəla nəzərinizə çatdırıram ki, N. Nərimanovun dramaturq, nasir, publisist, ictimai xadim olması barədə bir kəlmə belə deyilmir. Sadəcə "ədəbiyyatla məşğul olurdu" və "Tiflisdən uçarkən təyyarə qəzasında həlak olmuşdur". "Nərimanovun təklifi, Türkiyənin köməkliyi ilə Dağlıq Qarabağ və Naxçıvan vilayətləri Azərbaycana verilib, baxmayaraq ki, əhalinin əsas tərkibini ermənilər təşkil edirmiş".

Görkəmli alimlərimiz İbrahim İsmayılzadənin və Ümnisə Musabəyovanın qızı Dilarə İsmayılzadə tarix elmləri doktorudur, Moskvada yaşayır. Səfərlərim zamanı onunla görüşüb, söhbətləşmişəm. Dilarə xanım

qəhrəmanlığa bərabər iş görüb. Zaqafqaziyanın bütün şəhərləri ilə bağlı tədqiqat aparmış və sübuta yetirmişdir ki, XIX əsrdə,- XX əsrin əvvəllərində Zaqafqaziyanın bütün şəhərlərində azərbaycanlılar çoxluq təşkil etmişlər. Bu barədə Dilarə xanımın 1991-ci ildə Moskvada "Nauka" nəşriyyatında işıq üzü görmüş "Naseleniye qorodov Zakavkazskoqo kraya v XIX-naçale XX v." kitabında geniş məlumat verilir.

Deməliyəm ki, hazırda Moskvada çıxan əksər ensiklopedik elmi-kütləvi kitablar ermənilər tərəfindən tənzimlənir. Bütün mötəbər nəşrlərdə ermənilər bu və ya başqa şəkildə təmsil olunurlar. Məsələn, "İmperiya Stalina" kitabının müəllifi K. A. Zelenskiy olsa da korrektoru B. İ. Tumanyandır. Erməni rəssamı Dmitri Nalbandyan kitabda geniş təbliğ olunur, lakin Böyük Vətən müharibəsi illərində siyasi və satirik plakatlar ustası kimi tanınmış xalq rəssamı, Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenlərinə layiq görülmüş Qəzənfər Xalıqovun adı bu kitaba düşməyib. Görünür, korrektor B. İ. Tumanyan "yaxşı çalışıb".

1983-cü ildə Moskvada Hərbi nəşriyyatda 864 səhifəlik, üç yüz min tirajla "Voennıy ensiklopediçeskiy slovar" adlı kitab işıq üzü görüb. Burada Heydər Əliyev, Babək və bir çox digər soydaşlarımız haqqında məlumat var. 1990-cı ildə isə səkkiz cilddə nəzərdə tutulmuş "Sovetskaya voennaya ensiklopediya"nın 100000 tirajla birinci cildi çap olunmuşdur. Kitabın nəşrə hazırlanmasında Q. V. Avetisyan və S. V. Aralekov adlı ermənilərin iştirakı bu nəşrdə H. Əliyev və Babəkin adlarını ixtisara səbəb olub. Əvəzində səhifə 115-də əvvəllər adı heç yerdə çəkilməyən general-mayor, kəşfiyyatçı Mixail Allaxverdov peyda olub.

2001-ci ildə Rusiya paytaxtında "Ripol klassik" nəşriyyatında iki cildlik "Voennıy ensiklopediçeskiy slovar" çapdan çıxıb. Burada dünyanı bir-birinə qarışdıran, iki-





üzlü, "qlavnıy perestroyşik", kommunizmi dağıtmağa gəlmişdim" deyə Türkiyədə çıxış edən Mixail Qorbaçov ön plana çəkilir, amma H. Əliyevlə Babəkə yenə yer tapılmayıb.Bəlkə ona görə ki,nəşrin meneceri S.V.Ohanyandır.

1954-cü ildə 500 min tirajla çapdan çıxmış üç cildlik ensiklopedik lüğətin 2-ci cildində yazılıb ki, Koroğlu Azərbaycan xalqının qəhrəmanlıq dastanıdır. Orta Asiya xalqlarının da belə dastanı var. Dastan əsasında bəstəkar Ü. Hacıbəyov eyniadlı opera yaradıb.

Həmin lüğətin 1990-cı ildə iki milyon yarım tirajla çapdan çıxmış 1632 səhifəlik "Sovetskiy ensiklopediçeskiy slovar"ın 576-cı səhifəsində isə tamam başqa şey yazılıb: "Koroğlu Yaxın Şərq və Orta Asiya xalqlarının dastanıdır". Redaksiya heyətinin tərkibində V. A. Ambarsumyan adlı birisinin olmasını xatırlatmağı özümə borc bilirəm. Təəssüf ki, saxtakarlıq təkcə bununla bitmir. Həmin başabəla ensiklopedik lüğətdə başqa saxtakarlıqlar da var. Amma mən birini xatırladacağam. Sonuncu kitabın 22-ci səhifəsində yazılıb ki, Rusiya Federasiyasında 336 min nəfər, dünya ölkələrində isə cəmi 17,2 milyon nəfər azərbaycanlı var. Halbuki "Respublika" qəzeti 1994-cü ildə (№ 79 (174) 04.10.1994) göstərirdi ki, "1iyul 1993-cü ildə dünyanın 62 ölkəsində azərbaycanlıların sayı 48.853.291 nəfər olmuşdur. Bu məlumatı Almaniyada yaşayan soydaşımız Əli xan İqbal hazırlatdırmışdır". Qəzetin həmin sayında dünya ölkələri sadalanır və hansı ölkədə neçə nəfər soydaşımızın yaşadığı göstərilir.

Rusiya Federasiyasına gəldikdə isə 1999-cu ildə Moskva və Bakı mətbuatında oxumuşam ki, Rusiya paytaxtında rəsmi 200 min, qeyri-rəsmi 700 min nəfər azərbaycanlı yaşayır. Təkcə Tümen vilayətində təxminən yarım milyondan artıq soydaşımız yaşayır. Sankt-Peterburq, Novosibirsk, Saratov, Ulyanovsk, Kazan,

Ufa, Qorki, Samara, Omsk, Tomsk... şəhərlərinin hər birində 50-200 min arasında həmyerlimizin yaşaması məlumdur. RF-də ümumilikdə 2 milyon azərbaycanlı yaşayır.

"Bolşoy ensiklopediçeskiy slovar"ın (Moskva-1998) 70-ci səhifəsində RF-də 532 min, dünyada 6 milyon 555 min erməni olması bildirilir. Q. N. Alxasyants adlı şəxs həmin kitabda ayrı-ayrı bölmələrin müəlliflərindən biridir.

Müəllifin kimliyi bəlkə o qədər də vacib deyil. Əsas budur ki, müasir Rusiya nəşrlərində saxtakarlıqlar baş alıb gedir.

1998-ci ildə Moskvada A. Q. Şemarin adlı müəllif "Stranı mira" adlı 41 min tirajla kitab nəşr etdirib. Orada 109-cu səhifədə oxuyuruq: "80-ci illərin sonunda Dağlıq Qarabağın Azərbaycanın tərkibindən Ermənistanın tərkibinə verilməsi ilə bağlı iki respublika arasında münaqişə başlayıb. SSRİ rəhbərliyinin münaqişəni sülh yolu ilə həll edə bilməməsi müharibəyə gətirib çıxarıb. Müharibə Ermənistanın iqtisadiyyatına böyük ziyan vurub...".

Bu vicdansız müəllif 110-cu səhifədə Azərbaycan haqqında isə çox qısa və ötəri məlumat verib.

Moskvada Qızıl Meydandan 1-2 dayanacaq aralıda Puşkin meydanına bitişik "Armeniya" adlı ərzaq mağazası var. Buna baxmayaraq ərzaqla yanaşı burada əleyhimizə onlarla adda qəzet, jurnal və kitablar satılır. Dekabr 2001-ci il tarixli "Qrajdanin" adlı qəzetlə tanış oluram. Redaksiya heyətinin tərkibində A. İ. Volski, A. N. Saxarov və A. A. Nuykinin olması diqqətli oxucuya çox şeydən xəbər verir. Bu heyət tərslikdən 1-ci səhifədə göstərilib. Qəzetin 6-cı səhifəsində vətən xaini, general-leytenant A. A. Vlasovun 100 illiyi ilə bağlı geniş material verilmişdir. 7-ci səhifədə Leninlə Stalinin birgə və Mustafa Kamal Atatürkün şəkilləri





"Soyuq müharibə" Ermənistanda axıra çatacaq" adlı böyük yazının içində verilib. Orada belə sözlər var: "Leninin Mustafa Kamalla (Atatürklə) Ermənistanın əleyhinə cinayətkar sövdələşməsi Rusiyaya baha başa gəldi". Bu sözlərin ardınca yazının müəllifi, "Armyanskiy vestnik" jurnalının baş redaktoru Karen Mikaelyan hər cürə uydurmaları, Türkiyənin "təzyiqi" altında "Şərqi Ermənistanın parçalanıb Qarabağın, Naxçıvanın "qoparılıb" Azərbaycana verilməsi, Azərbaycanla Türkiyənin Ermənistanı və Arsaxı blokadaya aldığı şəraitdə Ermənistanla Rusiya arasında əməkdaşlıq səmərəli ola bilməz""... kimi yalanları həqiqət kimi oxuculara təqdim edir.

Dünya durduqca biz bütün sahələrdə, ayıq-sayıq olmalıyıq.

***"Dünyaya pəncərə", 15.03.2002.***

## *MİNNƏTDARLIQ*

*Kitabın nəşri üçün maddi və mənəvi köməklik göstərdiklərinə görə Qaradağ rayon Su təsərrüfatı idarəsinin rəhbəri Azər Quliyevə və məmləkətimizin vətənpərvər, ziyalı övladı Ağalar İbrahimova minnətdarlığımı bildirirəm.*

***M ü ə l l i f***





## KİTABIN İÇİNDƏKİLƏR

*Əməli, qələmi və qəlbi gözəl müəllif (D. Hüseynov, A.Tahirli)*
***5***

Azərbaycan əlifbası
***8***

**I BÖLMƏ**

Xalqlar dostluğu
***9***

Nizami Gəncəvi
***10***

Şirvani M. Ə.
***11***

Şirvani H. Z.
***11***

Topçubaşov Ə. M.
***11***

Bakıxanov A. A.
***12***

Mirzə Kazım Bəy
***12***

Qutqaşınlı İ. B.
***12***

Axundov M. F.
***13***

Şahtaxtinski M. A.
***13***

Şahtaxtinski İ. N.
***13***

Mehmandarov S.
***13***

Şahtaxtinski Ə. N.
***13***

Naxçıvanski H. K.
***13***

Şıxlinski Ə.
***14***

Nərimanov N.
***14***

Hacınski M.
***14***

Tağıyev N. H.
***14***

Şahtaxtinski H. X.
***15***





Şahtaxtinski B. A.
***15***

Hacıbəyov Ü. Ə.
***15***

Maqomayev Ə. M.
***15***

Əlyarbəyov T. A.
***16***

Hüseynov M. B.
***16***

Topçubaşov M. A.
***16***

Naxçıvanski C. C.
***16***

Əliyev Ə. M.
***16***

Mikayılzadə İ.
***17***

Vəzirov Q. M.
***17***

Əmiraslanov Ə. A.
***17***

Quliyev Y. A.
***17***

Xaspoladov Ə. M.
***18***

Məmmədəliyev Y. H.
**18**

Rüstəmbəyova A. F.
**19**

Məmmədbəyova L. Ə.
**19**

Aslanov H. Ə.
**19**

Musabəyov Y. S.
**19**

Abbasov A. Ə.
**20**

Tağıyev E. İ.
**20**

Orucov S. A.
**20**

Rəsulbəyov H. C.
**20**

Kərimov K. A.
**21**

Hüseynzadə M. H.
**21**

Abdullayev H. M.
**22**

Mirtağıyev B. M.
**22**





Məmmədov İ. M.
**22**

Seyidməmmədova Z. H.
**23**

Vəkilov Ə. P.
**23**

Əliyev H. Ə.
**24**

Əlizadə Ə. N.
**25**

Qasımbəyov H. H.
**25**

Kərimov C. Ə.
**25**

Sultanova A. B.
**26**

Həbibov H. A.
**26**

Səlimova Q. İ.
**26**

Ağahüseynov T. Y.
**27**

Hüseynov A. Ə.
**27**

İmaməliyev A. S.
**28**

Bərşadlı V. Ə.
**28**

İsgəndərov Ə. Ə.
**28**

Salmanov F. Q.
**29**

Salahov T. T.
**29**

İsmayılov Y. X.
**30**

Munçayev R. M.
**30**

Hüseynov Ç. H.
**31**

Zərgərli F. İ.
**31**

Məmmədov Ə. Ə.
**32**

Kərimov Q. M.
**32**

Kajlayev M. M.
**33**

Mahmudova T. Z.
**33**

İsmayılzadə D. İ.
**33**





Məmmədov V. H.
**34**

Əliyev Y. M.
**34**

Kəsəmənli F. P.
**34**

Rəhmanova A. H.
**35**

Ələkbərov K. O.
**35**

İsmayılov T. K.
**36**

Abışev A. Z.
**36**

İbrahimbəyov M. M.
**36**

Qurbanov R. O.
**37**

Əfəndizadə C. M.
**37**

Quliyev E. Q.
**38**

Abbasov R. Y.
**38**

İbrahimbəyov R. M.
**38**

Bağırov S. İ.
***39***

Daşdəmirov Ə.F.
***39***

Məlikov T. D.
***40***

Maqomayev M. M.
***40***

Quliyev V. C.
***41***

Abutalıbov H.
***41***

Əliyev T. Ə.
***42***

Şamilov A. Q.
***42***

Hüseynov Y. M.
***42***

Çələbiyev F. İ.
***43***

Əmiraslanov Y. Ə.
***43***

Bayramov E. T.
***43***

Ələkbərov V. Y.
***44***





Musayev M. M.
***44***

Əbilov Ə. İ.
***45***

Abdullayev S. S.
***45***

Əliyev M. A.
***46***

Əmirov A. T.
***46***

Həbibov S. Q.
***47***

Mirzəyev R. M.
***47***

Nəsib Nəbioğlu
***47***

Hacıyev T. S.
***48***

Bayramov N. Q.
***49***

Həbibov İ. H.
***50***

Babayev R. G.
***50***

Həsənov K. B.
***51***

Süleymanov Ə. H.
*51*

Sadıqov S. Q.
*52*

Şıxlinski Ş. M.
*52*

Seyidov A. R.
*53*

SSRİ Qaz sənayesi naziri
*55*

SSRİ (RAN) EA-nın müxbir üzvü
*60*

**II BÖLMƏ**

Rusiyada Azərbaycan ictimai təşkilatlarının mətbuat orqanları və başqa nəşrlər
*63*

Rus ziyalısı Azərbaycan haqqında kitab yazıb
*79*

**III BÖLMƏ**

Azərbaycan – Rusiya münasibətlərinə dair
*81*

Yazmaq yaşatmaqdır
*87*





**IV BÖLMƏ**

Erməni saxtakarlığı davam edir, yaxud Moskva nəşrlərində ziddiyyətlər
*91*

*Minnətdarlıq*
*98*

***Ramin Hüseyn oğlu Məmmədov***

**Rusiya:**
**ziyalılarımız, mətbuatımız,**
**münasibətlərimiz**

*BAKI – ŞİRVANNƏŞR – 2003*

------------

Kompüter icraçısı ***Həyat Mahmudova***

İstehsalat şöbəsinin müdiri
***Həmiyyə Heydərova***

Sex müdiri ***Telnaz Cəbrayılova***

Yığıma verilib ***28.10.2003.***
Çapa imzalanıb ***07.11.2003.***
Formatı ***60x84 1/16.***
Fiziki çap vərəqi ***6,87.***
Sayı ***500.***